RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 55 (10075) 3 aprel 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Vahid məqsədə doğru

## Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazı, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyevi, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyevi, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üsteli və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.**

2-3

# Hər zaman bir-birinin yanında

## Prezident İlham Əliyev Türkiyənin Vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Cevdet Yılmaz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Cevdet Yılmaz Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, məhz bunun Şuşa Bəyannaməsinin əsas prinsiplərindən biri olduğunu vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin hər zaman Türkiyənin yanında olduğunu dedi.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin münasibətlərimizin daha da genişlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün keçirilməsinin əhəmiyyətinə toxunuldu, bu tədbirin təşkilat çərçivəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı.

Cevdet Yılmaz bu toplantıda Şimali Kipr Türk Cümhuriyyətinin Baş nazirinin iştirakını da məmnunluqla qeyd edərək, buna görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi.

Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün yüksək səviyyədə keçirildiyini və həmin tədbirdə yaxşı nəticələrin əldə edildiyini deyən qonaq Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyinin uğurlu olduğunu vurğuladı.

Görüş zamanı həmçinin Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlığın perspektivləri, regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.



# Məsud Pezeşkian İlham Əliyevə zəng edib

**Aprelin 2-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Məsud Pezeşkian Azərbaycanın İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev ölkəmizin İrana göstərdiyi humanitar yardımın davam edəcəyini deyib, yaxın zamanlarda növbəti humanitar yardımın göndəriləcəyini vurğulayıb.

İranda vəziyyətin gərginləşməsindən narahatlığını ifadə edən dövlətimizin başçısı həlak olan İran vətəndaşlarına Allahdan rəhmət diləyib.

Prezident İlham Əliyev qarşıdurmanın tez bir zamanda sona çatmasını arzuladığını bildirib.

Telefon söhbəti zamanı regionda sülhün tezliklə əldə olunmasının zəruriliyi vurğulanıb.

*Prezidentin Mətbuat Xidməti*

# Təhlükəsizliyin və sabitliyin Azərbaycan nümunəsi

"Global Terrorism Index 2026" (GTI) hesabatı ilə dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralanması təqdim edilib. Hesabatda Azərbaycan daha da irəliləyərək dünyanın ən təhlükəsiz ölkələri sırasında yer alıb. Belə ki, ötən il terror təhlükəsi üzrə "0.233" indekslə 90-cı pillədə qərarlaşan ölkəmiz 2026-cı ildə üç pillə yüksələrək "0.123" indekslə 93-cü yerə yüksəlib. Bu göstərici Azərbaycanın terror təhlükəsi baxımından qlobal miqyasda ən təhlükəsiz ölkələrdən biri olduğunu bir daha təsdiqləyir.

Bu reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

8






# Hərb tariximizi şərəfləndirən Aprel döyüşləri

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev həmin dövrdə hərbi strategiyanın hazırlanması, ordunun möhkəmləndirilməsi, qələbəyə inam hissinin yüksəldilməsi barədə düşünür, ən mötəbər tribunalardan öz sözünü deyir, sülh mümkün olmasa, hərbə önəm verəcəyini bəyan edirdi. Bununla yanaşı, qələbəyə gedən yolun konturları çəkilirdi və 2016-cı ilin aprelində bu, baş verdi. Azərbaycan Ordusu 2-5 aprel tarixində düşmənə qarşı geniş əməliyyat keçirdi. Nəticədə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Suqovuşan kəndləri istiqamətində bəzi mövqelər igid əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində düşməndən azad edildi.

9

# Bakının diktəsi, İrəvanın etirafları

Mövcud reallıqlar artıq Ermənistanın hazırkı siyasi rəhbərliyinin, hökumət nümayəndələrinin dilindən də açıq etiraf olunur. Parlament sədri Alen Simonyanın çıxışları da əvvəlki yanlışlıqların bəyanı və Ermənistanın xəyallarla reallıqlar, keçmişin yükü ilə gələcəyin sağ qalma strategiyası arasındakı çırpınışıdır. Məlum olduğu kimi, baş nazir Nikol Paşinyandan sonra A.Simonyan da qondarma "Artsax" məsələsinin gündəmdən birdəfəlik çıxarıldığını xatırladıb. Spiker jurnalistin sualına cavabında "Niyə Qarabağa "Artsax" deyirsiniz, başa düşmək istəyirəm, bəs niyə Ermənistanın bəzi ərazilərinə Azərbaycan adları veriləndə özünüzü pis hiss edirsiniz?" deyib. Simonyan vaxtilə özünün də "Artsax" sözünü işlətdiyini xatırladan media nümayəndəsinə "səhv etmişəm" deyə qarşılıq verib.

8



# Vahid məqsədə doğru

## Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib



## Prezident İlham Əliyevin çıxışı

- Türk Dövlətləri Təşkilatının hökumət başçılarının toplantısı bu dəfə Bakıda keçirilir. Sizi səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz.

Əminəm ki, bu görüşün çox böyük faydası olacaq. Hər zaman olduğu kimi, bizim ölkələrimiz birlik, həmrəylik göstərəcəklər. Eyni zamanda qarşımızda duran önəmli iqtisadi məsələlərin müzakirəsi üçün də bu görüşün çox böyük əhəmiyyəti var.

Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi, təbii ki, çox önəmlidir.

Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq.

Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq.

Dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil. Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq. Təşkilatımızın inkişafı üçün, əlbəttə ki, Zirvə görüşlərinin böyük əhəmiyyəti var. Bu görüşlər müntəzəm olaraq keçirilir və bildiyiniz kimi, Azərbaycanın təşəbbüsü ilə dövlət başçılarının qeyri-rəsmi görüşləri də keçirilməyə başlamışdır. Birinci belə qeyri-rəsmi Zirvə görüşü Qarabağda, Şuşada keçirilmişdir. Artıq bu, ənənə halına çevrilib və hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Dövlət başçıları artıq ildə ən azı iki dəfə görüşürlər. Çünki həm müzakirə edilməli məsələlər çoxdur, həm dünyada proseslər o qədər sürətlə gedir ki, daim biz məsləhətləşmələr aparmalı, bir-birimizin fikirlərini öyrənməli və düzgün qərarların qəbul edilməsi üçün ortaq addımlar atmalıyıq.

İqtisadi sahədə, - sizin də görüşünüzün əsas məzmunu bu olacaq, - işlər yaxşı gedir. Azərbaycana gəldikdə, bütün üzv ölkələrlə bizim ticarət dövriyyəmiz artır, qarşılıqlı sərmayə qoyuluşunun həcmi artır. Biz təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoymuşuq. Düzdür, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Ancaq digər üzv ölkələrlə də qarşılıqlı sərmayə qoyuluşu prosesi gedir. Bizim Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılmışdır. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir, yaxud da ki, onların icrası üçün hazırlıq işləri aparılır.

Xüsusi minnətdarlığı Qarabağın bərpasına qardaş ölkələrin dəstəyinə görə ifadə etmək istərdim. Həm bərpa işlərinə, həm Qarabağda yeni müəssisələrin yaradılması işinə verdiyiniz dəstək bizim üçün çox önəmlidir. Bildiyiniz kimi, artıq Özbəkistan tərəfindən bizə hədiyyə edilmiş Mirzə Uluqbəy məktəbi fəaliyyət göstərir. Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Qırğızıstanın hədiyyəsi olan Manas məktəbi fəaliyyət göstərir. Bunlar Füzuli, Ağdam rayonlarındadır. Türkiyədən olan bir çox şirkətlər önəmli infrastruktur layihələrində - yollar, körpülər, tunellər, dəmir yolları layihələrində iştirak edirlər. Eyni zamanda Qarabağda iş yerlərinin yaradılması da bizim üçün çox önəmlidir və yenə də burada birinci xarici sərmayə qardaş ölkələrdən gəlib. Xankəndidə Özbəkistanın dəstəyi ilə böyük tikiş fabriki fəaliyyətə başlamışdır və hörmətli Prezident Şavkat Miromonoviç Mirziyoyevlə birlikdə biz o fabrikin açılışını qeyd etmişdik. Yəni bütün bunlar bir daha göstərir ki, bu gün bizim üçün əsas olan məsələdə, yəni Qarabağın və Şərqi Zəngəzurun bərpasında yenə də bizim yanımızda qardaş ölkələrdir. Biz də öz növbəmizdə hər zaman lazım olan dəstəyi göstərməyə hazırıq və bunu edirik. Türkiyədə yaşanan o dəhşətli zəlzələdən sonra Azərbaycan öz qardaşlıq dəstəyini göstərmişdir və Azərbaycanın maliyyə imkanları hesabına Kahramanmaraşda 100 milyon Amerika dolları dəyərində "Azərbaycan məhəlləsi" tikilib. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə biz bu "Azərbaycan məhəlləsi"nin açılışını da qeyd etmişdik.

Yəni bu, həm bir-birimizə göstərilən praktiki yardımlardır, eyni zamanda bizim niyyətimizi göstərir. Eyni zamanda bizim xalqlarımıza bir daha yol göstərir ki, biz bir-birimizin yanında olmalıyıq. Bütün dünyaya isə göstərir ki, türk dünyası, Türk Dövlətləri Təşkilatı hər zaman - yaxşı günlərdə və çətin günlərdə üzv ölkələr səviyyəsində və təşkilat olaraq vahid məqsədlərə çatmaq üçün əlindən gələni əsirgəmir.

Təbii ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Yəqin ki, bu gün Azərbaycan tərəfi bu məsələ ilə bağlı məlumat verəcək. Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Həm dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib. O ki qaldı Zəngəzur dəhlizinin icrasına, orada avtomobil yolunun təqribən 90 faizi, dəmir yolunun isə təxminən 70 faizi hazırdır. Ümid edirəm ki, yaxın gələcəkdə bu layihə tam icra ediləcəkdir. Bilirik və çox şadıq ki, Türkiyədə də Qars-Naxçıvan dəmir yolunun tikintisinə start verilmişdir. Beləliklə, bu layihələrin uzlaşdırılması, koordinasiya şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaqdır. Bu, Orta dəhlizin bir qolu olacaq və bizim inşa etdiyimiz dəmir yolu infrastrukturu birinci mərhələdə 15 milyon ton yükün daşınmasına hesablanıb. Amma gələcəkdə bu arta da bilər və yəqin ki, artacaq. Amma hər halda 15 milyon tonluq yeni bir dəhlizin açılması həm ölkələrimiz, həm də geniş coğrafiya üçün böyük önəm daşıyır. Biz yenə də burada çox ciddi və məsuliyyətli mövqe sərgiləyirik - həm öz maraqlarımızı təmin edirik, həm də dünya üçün yeni nəqliyyat yollarını təqdim edirik. Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlibdir. Bax, bunları sizin diqqətinizə çatdırmaq istəyirdim. Bilirəm ki, bu gün sizin işiniz çox olacaq, bir çox məsələlər müzakirə ediləcək. Şübhə etmirəm ki, sizin görüşünüz bizim təşkilatımızın inkişafına növbəti töhfə olacaqdır. Bir daha sizi salamlayıram.

❖ ❖ ❖

Türkiyə Respublikasının Vitse-prezidenti **Cevdet YILMAZ** çıxış edərək dedi:

- Cənab Prezident, bizi qəbul etdiyiniz üçün minnətdarlığımızı bildiririk. Türkiyədən Əziz Qardaşınız, Prezidentimiz cənab Rəcəb Tayyib Ərdoğandan Sizə ən səmimi salamlarını gətirdim, çatdırmaq istəyirəm.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, sağ olun.

**Cevdet YILMAZ:** Fürsətdən istifadə edərək, keçmiş Ramazan bayramı və Novruz bayramı münasibətilə də hər kəsi təbrik edir, bölgəmizdə və dünyada sülhə, bolluğa və bərəkətə vəsilə olmasını diləyirəm.

Bu formatda toplantımızı mən ilk dəfə Sizdən eşitmişdim, Sizin bir fikriniz olduğunu bilirəm. Qırğızıstanda da çox uğurlu bir toplantı keçirdik. İkincisini də, inşallah, burada əziz qardaşım cənab Əli Əsədov ilə keçirəcəyik. İlk növbədə həm bu toplantıya, həm də Türk Dövlətləri Təşkilatına töhfələrinizə görə bir daha təşəkkürümü bildirirəm.

Bir az əvvəl Siz də qeyd etdiyiniz kimi, iqtisadiyyat çox önəmlidir. Bölgəmizdə də mühüm proseslər baş verir. Bunun qısa perspektivdə mənfi təsirləri var, amma orta perspektivdə inanıram ki, bizə yeni fürsətlər gətirəcək. Xüsusilə bu dövrlərdə sabitliyi, əmin-amanlığı qoruyan ölkələr yeni dövrdə çox əlverişli mövqeyə yüksələcək. Bu istiqamətlərdə, inşallah, hamımız birlikdə addımlar atarıq. Enerji və nəqliyyat məsələləri çox əhəmiyyətlidir. Siz də xüsusi qeyd etdiniz, xüsusilə Zəngəzur dəhlizinin açılması həm Türkiyə-Azərbaycan əlaqələrində, həm də daha geniş coğrafiyada çox böyük fayda gətirəcək.

Digər tərəfdən, enerji məsələsində də dünya son dövrlərdə yaşananlardan sonra şaxələndirmənin önəmini artıq daha yaxşı gördü. Bu sahələrdə də, inşallah, xüsusilə Xəzər tranziti başda olmaqla, yeni fürsətləri birlikdə dəyərləndiririk. Qarşılıqlı investisiyaların inkişaf etdirilməsi məsələsində də, inşallah, hamımız birlikdə səy göstərəcəyik. Mən çox mühüm yeni investisiya imkanlarının yaranacağına da inanıram.

Sizin bir az əvvəl vurğuladığınız kimi, Türk Dövlətləri Təşkilatı çox qısa müddətdə böyük yol qət etdi. İnşallah, qarşıdakı dövrdə bu daha da dərinləşərək davam edəcək. Təşkilata sədrliyiniz çox uğurla davam edir. Xüsusilə Sizin ilk dövrlərdən etibarən Türk Dövlətləri Təşkilatına yaxından göstərdiyiniz diqqətə və verdiyiniz dəstəyə görə minnətdarıq.

Qarabağdakı inkişafa görə də hamımız qürur, iftixar duyuruq. Qarabağ yenidən Azərbaycan oldu, azadlığına qovuşdu. Ancaq bununla da kifayətlənilmədi, Qarabağda böyük inkişaf, sərmayələr var. İnşallah, yaxın zamanda hamımız birlikdə daha çox inkişaf etmiş Qarabağı görəcəyik. Biz də Türkiyə Cümhuriyyəti olaraq əlimizdən nə gəlirsə, daim Qarabağın, Azərbaycanın yanındayıq.

Sizin də qeyd etdiyiniz kimi, zəlzələ zamanı bizim yanımızda çox güclü şəkildə durdunuz, minnətdarıq. Həqiqətən də, Türkiyə Cümhuriyyəti olaraq bütün türk dünyasının göstərdiyi həmrəyliyə görə təşəkkür edirik. Birlik içərisində olmağın bərəkəti, gücü də məhz buradadır. Çətin dövrlərdə, xoş zamanlarda daim bir-birimizə dəstək oluruq. Xüsusilə dünyada qurumların zəiflədiyi, qaydaların zəiflədiyi bir dövrdə regional əməkdaşlıqlar daha böyük önəm qazanmışdır. Bu baxımdan Türk Dövlətləri Təşkilatı yeni dövrdə əvvəlkindən də daha önəmli bir mövqeyə gəlmişdir.

Bu gün aramızda Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri də var. Mən Zati-alinizə Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı həssaslığınıza görə də xüsusi olaraq çox təşəkkür edirəm. İnşallah, həmkarlarımızla birlikdə qeyd etdiyiniz mövzuları ətraflı şəkildə müzakirə edib, Siz liderlərimizin ortaya qoyduğunuz baxışa biz də əlimizdən gələn bütün dəstəyi verəcəyik.

Mən yüksək təşkilatçılığa görə Zati-alinizə bir daha minnətdarlığımı bildirir, çox təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Təşəkkür edirəm.

❖ ❖ ❖

Özbəkistan Respublikasının Baş naziri **Abdulla ARİPOV** dedi:

- Zati-aliləri cənab Prezident, hörmətli İlham Heydər oğlu. İlk növbədə Sizə Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Miromonoviç Mirziyoyevin ən səmimi salamlarını və xoş arzularını çatdırmaq istəyirəm. Fürsətdən istifadə edərək, Sizə xüsusi diqqətə və qardaş Azərbaycan xalqına xas olan ənənəvi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Biz bu gün strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlmiş Azərbaycan-Özbəkistan münasibətlərinə böyük dəyər veririk. Şübhəsiz ki, açıq və etimad ruhunda olan dialoq və Zati-alinizlə Şavkat Miromonoviç Mirziyoyev arasındakı qardaşlıq və dostluq qardaş xalqlarımızı daha da birləşdirir. Özbək xalqı qardaş Azərbaycanın nailiyyətlərinə sevinir. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan sürətlə inkişaf edir və ildən-ilə böyük nailiyyətlər əldə edir. Sizin şəxsi səyləriniz və təşəbbüsləriniz sayəsində qardaş Azərbaycanın vacib və ayrılmaz parçası olan Qarabağ son dövrlərdə daha da firavan bölgəyə çevrilir.

Mən və həmkarım Əli Əsədov daim əlaqədəyik. Biz Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli fəaliyyəti yüksək qiymətləndiririk. Təşkilatımızın bundan sonra da gücləndirilməsi üçün səylər göstərməyə hazırıq.

Fürsətdən istifadə edərək, Sizə və Sizin simanızda qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram. Qəbula görə təşəkkür edirəm.

*Ardı 3-cü səh.*

# Vahid məqsədə doğru

## Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib



*Əvvəli 2-ci səh.*

❖ ❖ ❖

Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri **Adılbek KASIMALİYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu, öz növbəmdə sıx iş qrafikinizdə bizim nümayəndə heyətinə vaxt ayırdığınıza görə Sizə dərin minnətdarlığımı bildirir, TDT hökumət başçılarının 2-ci toplantısının yüksək səviyyədə təşkil edildiyini, bu qəbildən olan görüşlərin açıq və məzmunlu dialoq üçün yaxşı imkan yaratdığını qeyd etmək istəyirəm. Fürsətdən istifadə edərək, Qırğız Respublikasının Prezidenti hörmətli Sadır Nurqojoyeviç Japarovun Sizə və qardaş Azərbaycan xalqına ən xoş arzularını çatdırmaq istəyirəm.

Qırğız Respublikası Azərbaycan ilə qardaşlıq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərə böyük dəyər verir. Biz Sizin Qırğızıstana gözlənilən tarixi dövlət səfərinizə böyük əhəmiyyət veririk. Sevindirici haldır ki, bugünkü görüşümüz ölkələrimizin TDT çərçivəsində əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyini təsdiq edir. Əminəm ki, ticarət, nəqliyyat və logistika sahələrində olan layihələr bundan sonra da dövlətlərimizin dayanıqlı inkişafına xidmət edəcək.

Həqiqətən də, bizim ölkələrimizin qarşılıqlı maraq doğuran bütün sahələrdə yaxşı imkanları var.

Sonda hörmətli İlham Heydər oğlu, səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirir, Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm. Diqqətinizə görə sağ olun.

❖ ❖ ❖

Qazaxıstan Respublikasının Baş naziri **Oljas BEKTENOV** dedi:

- Zati-aliləri cənab Prezident, hörmətli İlham Heydər oğlu. İlk növbədə qardaş Azərbaycan torpağında Sizinlə görüşmək fürsətinə görə təşəkkürümü bildirirəm. İcazə verin, Sizə Qazaxıstan Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin səmimi salamlarını çatdırım. Səfərim ərəfəsində onunla söhbətim oldu və o, lazımi təlimatlarını verdi.

Azərbaycan və Qazaxıstan arasında münasibətlər olduqca dinamik şəkildə inkişaf edir. Bizim çoxsaylı böyük iqtisadi layihələrimiz var. Bu il biz ilk mühüm, strateji layihəmiz olan, Avropanı Çin və Asiya regionu ilə birləşdirəcək, Xəzər dənizinin dibi ilə inşa edilən fiber-optik kabel layihəsini başa çatdıracağıq. Ümid edirik ki, həmin layihə bütün dövlətlərimizin, regionumuzun inkişafına böyük təkan verəcək.

Türk Dövlətləri Təşkilatı çərçivəsində bizim həmkarlar, dostlar və qardaşlar arasında olduqca yaxşı, səmimi və etimad üzərində qurulmuş əlaqələrimiz var. İqtisadi layihələrimizin sayı olduqca çoxdur. Hökumətlər səviyyəsində həmkarlarımızla sıx əlaqədəyik, tez-tez görüşürük və məsələləri öz səviyyəmizdə həll etməyə çalışırıq ki, rəhbərlərimiz görüşərkən müsbət dəyişiklikləri müzakirə etsinlər.

Sizi və təşkilata üzv dövlətlərin rəhbərlərini cari ilin 15 may tarixində müqəddəs Türküstan şəhərində TDT-nin qeyri-rəsmi görüşündə gözləyirik və yüksəksəviyyəli qonaqları qarşılamağa hazırlaşırıq.

Cənab Prezident, bir daha Sizə və qardaş Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram. Sağ olun.

❖ ❖ ❖

Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini **Nökərqulu ATAQULIYEV** dedi:

- Hörmətli cənab Prezident, Sizi salamlayıram. Qəbula görə təşəkkür edirəm. İcazənizlə, hörmətli Arkadağımızın və hörmətli Prezidentimiz Sərdar Berdiməhəmmədovun səmimi salamlarını çatdırım. Bugünkü görüş yüksək səviyyədə təşkil edilib və bu toplantıya dəvətə görə təşəkkür etmək istəyirəm. Əminik ki, bu toplantı yüksək səviyyədə keçəcək. Həmkarımızla biz ticarət dövriyyəmizin artırılması və digər məsələləri müzakirə edəcəyik, xalqlarımızı bir-birinə yaxınlaşdırmaq üçün səylər göstərəcəyik. Bu işdə Sizin böyük töhfəniz var və buna görə də Sizə təşəkkürümü bildirmək, uğurlar arzu etmək istəyirəm. Sağ olun.

❖ ❖ ❖

Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri **Ünal ÜSTEL** dedi:

- Hörmətli cənab Prezident, qardaş Azərbaycanda olmaqdan duyduğum xoşbəxtliyi ifadə etmək istəyirəm. Xüsusilə bu qəbulunuza görə Sizə xalqım, hökumətim adından və şəxsən öz adımdan ürəkdən təşəkkür edirəm.

Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv olması üçün başda Ana Vətənimiz Türkiyə Cümhuriyyətinin lideri cənab Rəcəb Tayyib Ərdoğanın təşəbbüsünə və Sizin - qardaş Azərbaycanın Prezidenti İlham Əliyevin bizə verdiyi dəstəyə görə çox təşəkkür edirəm. Xalqım bu dəstəyin davam etdiyini görməkdən böyük xoşbəxtlik duymaqdadır.

Ancaq gəldiyimiz nöqtədə dünyada yaşanan mövcud vəziyyətə görə Sizin daha əvvəl dediyiniz kimi, türk ailəsi bizim ailəmizdir, başqa ailəmiz yoxdur. Bu ailəmizi gücləndirmək üçün biz - Şimali Kipr Türk Cümhuriyyəti Sizin Aralıq dənizindəki qardaşlarınız olaraq və Aralıq dənizinin ortasında yaşayışını tamamilə turizmdən, səhiyyədən təmin edən bir ada olaraq Sizlərin orada sərhəd gözətçilərinizik. Bu baxımdan gəldiyimiz hazırkı nöqtədə və yaşanan bu mövcud vəziyyətdən sonra Türk Dövlətləri Təşkilatında artıq müşahidəçi üzv olmaqdan əsl üzvə keçərək əməkdaşlığımızı daha çox sürətləndirməliyik. Gəldiyimiz nöqtədə görürük ki, istər iş adamlarımızın, istərsə insanlarımızın, istərsə digər sektorlarda quracağımız əməkdaşlıqlar, istərsə də nəqliyyat sahəsində yaşanan çətinlikləri aradan qaldırmaq üçün Şimali Kipr Türk Cümhuriyyətindən bir baza olaraq istifadə edə bilərsiniz. Çünki Aralıq dənizinin ortasında və hər tərəfə çata bilən rahat bir ada mövqeyində olan ölkəmiz sizlərlə əməkdaşlıq qurmaqdan böyük məmnunluq duyacaq. Bu istiqamətdə bizə hər zaman verdiyiniz dəstəyə görə bir daha təşəkkür edirəm.

Qardaş Baş nazirlərlə birlikdə olmaqdan böyük məmnunluq duydum. Bu ailənin əməkdaşlığı Şimali Kipr Türk Cümhuriyyəti üçün çox önəmlidir. Çünki Sizin Qarabağda apardığınız böyük azadlıq mübarizəsi kimi, biz - Şimali Kipr Türk Cümhuriyyətində yaşayan xalqımız da eynisini Türkiyə Cümhuriyyətinin bizə verdiyi böyük dəstəklə böyük bir azadlıq mübarizəsi apardıq, çoxlu şəhidlər verdik. Siz də Qarabağda, Şuşada çox şəhidlər verdiniz. Oradakı şəhidlərimizi Sizin hüzurunuzda bir daha hörmət və ehtiramla anmaq istəyirəm.

Fürsətdən istifadə edərək, geridə qalan Ramazan və Novruz bayramları münasibətilə Sizi ürəkdən təbrik edirəm. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, sağ olun.

❖ ❖ ❖

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek ÖMÜRALIYEV** dedi:

- Möhtərəm cənab Prezident, Zati-aliləri. Mən də öz növbəmdə bugünkü görüşə görə təşəkkürümü bildirmək istəyirəm. TDT gündən-günə inkişaf edir və güclənir. Siz də qeyd etdiyiniz kimi, təşkilatın beynəlxalq müstəvidə rolu artmaqdadır. Fürsətdən istifadə edərək, təşkilatımızın işinə verdiyiniz töhfəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Zati-aliləri, Sizin "Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur" sözlərini xatırlatmaq istərdim.

Qeyd etdiyiniz kimi, Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri TDT dövlətləri ilə əməkdaşlıqdır və bu da bizim təşkilatın daha da möhkəmlənməsinə xidmət edir. Ötən il Qəbələdə keçirilmiş 12-ci Zirvə Toplantısının mövzusu regional sülh və təhlükəsizlik idi, region və onun hüdudları kənarında cərəyan edən proseslərlə uzlaşırdı. Zirvə Toplantısı zamanı TDT üzv dövlətlərin Azərbaycanda birgə hərbi təlimlərinin keçirilməsi təklifinə görə də Sizə təşəkkür edirəm. Sizin bununla bağlı dəvətiniz üzv ölkələrin dövlət başçılarına çatdırılmışdır.

Zati-aliləri, bu gün Bakıda praktiki əməkdaşlığımızın inkişafı və Zirvə toplantıları zamanı liderlər tərəfindən verilən təlimatların hökumətlər səviyyəsində daha da əlaqələndirilmiş şəkildə icrasına xidmət edəcək TDT üzv dövlətlərin hökumət başçılarının ikinci toplantısı keçiriləcək.

Hesab edirəm ki, bütün proqramların və layihələrin vaxtında reallaşdırılması, TDT çərçivəsində həmrəyliyin və əməkdaşlığın gücləndirilməsi üçün belə bir mexanizmə böyük ehtiyac var.

Ötən ay regionda və daha da geniş coğrafiyada cərəyan edən hadisələrin müzakirəsi üçün TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi görüşü təşkil edildi. Görüşdə "TDT+" formatının təsis edilməsi haqqında qərar imzalanması regionda və beynəlxalq arenada dialoqu, əməkdaşlığı və tərəfdaşlığı təşviq edir, çoxtərəfli diplomatiyada TDT-nin rolunu və əhəmiyyətini artırır.

TDT-nin qeyri-rəsmi Zirvə toplantıları Sizin təşəbbüsünüzlə hər il keçirilir. Burada qeyd edildiyi kimi, cari il mayın 15-də Qazaxıstanın Türküstan şəhərində növbəti Zirvə Toplantısı keçiriləcək. Liderlərin ildə bir neçə dəfə görüşməsi təşkilat daxilində əlaqələndirməni gücləndirir, artıq qeyd etdiyim kimi, beynəlxalq arenada əhəmiyyətini artırır.

İcazə verin, bir daha Sizə türk dünyasında həmrəyliyin və qardaşlığın möhkəmləndirilməsinə verdiyiniz töhfəyə və təşkilatın fəaliyyətinə dəstəyinizə görə təşəkkür edim. Sağ olun.

❖ ❖ ❖

Baş nazir **Əli ƏSƏDOV** dedi:

- Möhtərəm cənab Prezident, icazənizlə, bütün həmkarlarımın adından və öz adımdan Sizə təşəkkürümüzü bildirək ki, bizi qəbul etdiniz. Nitqinizdə bizim qarşımıza qoyulan məsələlər, təbii olaraq, bundan sonra mənim üçün və həmkarlarım üçün yol xəritəsi olacaq.

Möhtərəm cənab Prezident, Sizin hələ 2024-cü il fevral ayının 14-də andiçmə mərasimində söylədiyiniz kimi, bizim ailəmiz türk dünyasıdır. Sizin bu kəlamınız bizim üçün, bütün Azərbaycan üçün, o cümlədən Azərbaycan hökuməti üçün yol xəritəsidir. Biz fəaliyyətimizi bu istiqamətdə qururuq. Bugünkü görüşümüzün - Türk Dövlətləri Təşkilatının ikinci görüşünün Bakıda keçirilməsi də bu tədbirlər içərisindədir.

Möhtərəm cənab Prezident, Sizin və həmkarlarınızın qarşımızda, hökumətlər qarşısında qoyduğunuz məsələləri rəhbər tutaraq biz bu gün gündəliyimizi formalaşdırmışıq, gündəlik bütün həmkarlarımla razılaşdırılıb. Siz də bu gün söylədiyiniz kimi, əsas məsələləri qısa olaraq deyim ki, bu, ticari-iqtisadi məsələlərdir - investisiya əməkdaşlığı, o cümlədən ikitərəfli və çoxtərəfli fondlar. Mən iki qardaş ölkə tərəfindən yaradılmış fondları, o cümlədən Türkiyə İnvestisiya Fondunu da qeyd etmək istəyirəm. Nəqliyyat-tranzit, energetika sahələrində, o cümlədən "yaşıl enerji", logistika və Orta dəhlizlə bərabər Siz də bu gün qeyd etdiyiniz kimi, Zəngəzur dəhlizinin həm Azərbaycan, həm Türkiyə, həmçinin geniş region üçün böyük əhəmiyyəti var.

Cənab Prezident, Sizin dövlət başçıları ilə Qəbələdə 12-ci Zirvə Görüşünüzün bəyannaməsindən irəli gələn məsələlərə də əsaslanaraq görüşümüzün sonunda bəyanat qəbul edəcəyik. Bu, diplomatik kanallarla razılaşdırılıb.

Möhtərəm Prezident, bir daha Sizə təşəkkürümüzü bildirmək istəyirəm. Çox sağ olun.

❖ ❖ ❖

Görüşün yekununda çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Sağ olun, təşəkkür edirəm. Xahiş edirəm, mənim səmimi salamlarımı ölkələrinizin dövlət başçılarına - dostlarıma, qardaşlarıma çatdırasınız. Onlarla hər görüşüm mənim üçün çox dəyərlidir, əhəmiyyətlidir və qiymətlidir.

Bu gün burada səslənən fikirlər bir daha onu göstərir ki, təşkilatımızın çox gözəl gələcəyi var. Çünki hər bir üzv ölkə və müşahidəçi ölkə təşkilatımızın güclənməsini istəyir. İstəyir ki, təşkilatımız dünya arenasında daha önəmli rol oynasın və əminəm ki, biz buna nail olacağıq.

Bir məsələni də qeyd etmək istərdim. Bizim təşkilatımızın nadirliyi haqqında mən artıq giriş sözümdə fikirlərimi bildirdim. Bir məsələyə də toxunmaq istərdim, o da çox önəmlidir. Çünki təşkilata üzv ölkələr arasında ikitərəfli formatda da münasibətlər çox yaxşıdır. Heç bir problem yoxdur, heç bir anlaşılmazlıq yoxdur və bu da deyə bilərəm ki, dünya təşkilatları arasında nadir bir hadisədir. Çünki biz bilirik dünyada hansı beynəlxalq təşkilatlar var və o təşkilatlar çərçivəsində bəzən bəzi üzv ölkələr arasında ixtilaflar var, qarşıdurmalar var, hətta münaqişələr də var. Amma bizim nadirliyimiz, - bu, bizim çox böyük ümumi müştərək dəyərimizdir, - odur ki, həm çoxtərəfli, həm ikitərəfli formatda ancaq xoş münasibət, xoş niyyət, bir-birimizə olan dəstək və bir-birimizə olan hörmət və ehtiramdır. Bu, çox böyük dəyərdir. Biz bunu həm qorumalıyıq, həm gələcək nəsilləri bu ruhda tərbiyə etməliyik və təşkilatımızı bütün istiqamətlər üzrə elə gücləndirməliyik ki, illər keçdikcə təşkilatımız dünya miqyasında qlobal aktora çevrilsin. Yenə də deyirəm, buna nail olmaq üçün bütün imkanlar var. Birincisi, bizim birliyimiz, ortaq etnik köklərimiz, böyük coğrafiyamız, enerji resurslarımız, nəqliyyat yollarımızdır. Bu gün nəqliyyat deyiləndə bizim coğrafiyamızdan, yəni bizdən yan keçmək mümkün deyil. Biz investisiya qoymaqla, hər bir ölkə öz ərazisində sərmayə qoymaqla bu coğrafiyanı daha da önəmli bir amilə çeviririk. Əminəm ki, bu gün müzakirə olunan və sizin toplantınızda müzakirə ediləcək məsələlər təşkilatımızın gücünü daha da artıracaq.

Bir daha xoş gəlmisiniz.

# TDT-yə üzv dövlətlərin hökumət başçıları/Vitse-prezidenti Bakıda görüşüb



Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycanın Baş naziri Əli Əsədov Bişkek görüşünün çoxtərəfli əməkdaşlığımızın institusional əsaslarının möhkəmləndirilməsi, qarşılıqlı əlaqələrimizin gücləndirilməsi baxımından çox səmərəli olduğunu deyib.

Baş nazir bildirib ki, bu gün türk dövlətləri arasında siyasi, iqtisadi, nəqliyyat-tranzit, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya, humanitar və bir çox digər sahələrdə əlaqələrin inkişafı üçün mühüm imkanlar mövcuddur. Azərbaycan TDT çərçivəsində əməkdaşlığa daim xüsusi önəm verib, təşkilata üzv olan bütün dövlətlərlə ikitərəfli müstəvidə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri qurub. Bu baxımdan, ölkələrimiz arasında ticarət-investisiya əlaqələrinin daha da genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Son illərdə bu istiqamətdə müsbət dinamika müşahidə olunur.

Əli Əsədovun sözlərinə görə, ötən il Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ümumi ticarət dövriyyəsi 5 faizdən çox artıb. Azərbaycanın üzv dövlətlərə yatırdığı sərmayələrin ümumi həcmi isə 21 milyard ABŞ dollarıdır. Eyni zamanda bir sıra tərəfdaş ölkələrlə yaradılmış birgə investisiya fondları prioritet sahələr üzrə qarşılıqlı sərmayə qoyuluşunun genişlənməsinə və iqtisadi əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir. Lakin mövcud potensialımız qeyd edilən göstəricilərdən qat-qat böyükdür.

Baş nazir diqqətə çatdırıb ki, türk dünyasının geostrateji mövqeyi ölkələrimiz üçün olduqca böyük üstünlüklər yaradır. Avropa ilə Asiyanı birləşdirən, Şərq-Qərb və Şimal-Cənub istiqamətlərinin kəsişməsində yerləşən regionumuz beynəlxalq nəqliyyat və logistika baxımından mühüm əhəmiyyətə malikdir. Bu potensialdan daha səmərəli istifadə etmək üçün nəqliyyat bağlantılarının inkişafı və tranzit imkanlarının genişləndirilməsi əsas prioritetlərdən biri olmalıdır.

Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz qeyd edib ki, Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mühiti türk dünyası daxilində qarşılıqlı əlaqəni daha da gücləndirəcək. "Biz inanırıq ki, nəqliyyat, enerji, infrastruktur və rabitə kimi bir çox sahələrdə əməkdaşlıq üçün yeni imkanlar türk dünyasının rifahına əhəmiyyətli töhfə verəcək", - deyə Vitse-prezident bildirib.

Cevdet Yılmaz diqqətə çatdırıb ki, Türk Dövlətləri İnvestisiya Fondunun, türk dövlətlərinin ilk maliyyə qurumu olaraq, yaxın gələcəkdə maliyyələşdirmə fəaliyyətinə başlayacağını gözləyirik. Fondun beynəlxalq səviyyədə nüfuzlu maliyyə qurumu kimi layiq olduğu mövqeyi tutmasını təmin etmək üçün səylərimizi davam etdirmək vacibdir.

Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini yüksək qiymətləndirdiklərini qeyd edib. Bildirib ki, Orta dəhlizin institusional statusunu artırmaq məqsədilə Qazaxıstan bu il Azərbaycanla müvafiq hökumətlərarası saziş imzalamağı planlaşdırır.

Onun sözlərinə görə, dünyadakı mövcud vəziyyət təşkilat çərçivəsində "TDT+" formatının aktuallığını artırır. Qazaxıstan Orta dəhlizin əsas iştirakçıları ilə bu formatda görüşlərin keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu əməkdaşlıq hər iki bazarda mühüm tərəf kimi çıxış etmək və enerji tərəfdaşlığında yeni arxitektura formalaşdırmaq imkanı yaradacaq.

"Yaxın gələcəkdə Qazaxıstan TDT-nin süni intellekt və rəqəmsal inkişaf üzrə qeyri-rəsmi Zirvə görüşünə evsahibliyi etməyi planlaşdırır. Əminəm ki, bu görüş rəqəmsal transformasiyaya yeni təkan verəcək və texnoloji əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək", - deyə Baş nazir bildirib.

Qırğızıstan Nazirlər Kabinetinin sədri Adilbek Kasımalıyev Bakıda qarşıda duran mühüm məsələlərin müzakirəsi üçün çox əlverişli şərait yaradıldığını söyləyib. O, Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycanın sədrliyinin əməkdaşlığa yeni təkan verəcəyinə və əvvəllər əldə olunan razılaşmaların ardıcıl şəkildə həyata keçiriləcəyinə inamını ifadə edib.

Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov çıxışında iqtisadi inteqrasiyanı dərinləşdirmək məqsədilə Baş nazir müavinlərinin sədrliyi ilə Türk Dövlətləri Təşkilatının İqtisadi Tərəfdaşlıq üzrə Daimi Şurasının təsis olunmasını vacib hesab etdiklərini deyib. Bildirib ki, biz üzv dövlətlərin həmin mexanizmə və onun qısa zamanda təsdiq edilməsinə verəcəyi dəstəyə ümid edirik.

"Sənaye əməkdaşlığı və strateji ehtiyatlar sahəsində əməkdaşlığın inkişafı qarşılıqlı fəaliyyətin əsas istiqamətlərindən biridir. Bu baxımdan düşünürük ki, Türk Dövlətlərinin Sənaye İttifaqının qurulması, o cümlədən tammərhələli istehsalat dəyər zəncirlərinin yaradılmasına yönəlmiş strateji minerallar üzrə əməkdaşlıq proqramının qəbul edilməsi üçün səylərin intensivləşdirilməsi zəruridir", - deyə Özbəkistanın Baş nazir əlavə edib.

Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel bu gün dünya siyasi və iqtisadi baxımdan çoxqatlı böhranların caynağında olduğunu bildirərək deyib: "Müharibələr, iqtisadi böhranlar, qlobal iqlim dəyişikliyinin yaratdığı təsirlər, nizamsız miqrasiya və bir çox digər çətinliklər dünyanı son dərəcə riskli hala gətirib. Bu səbəbdən türk dövlətlərinin strateji həmrəyliyi, türk dünyası və millətimiz adına tarixi zərurətdir".

Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyev Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının ölkələrimiz arasındakı iqtisadi inteqrasiyanın güclənməsinə əhəmiyyətli töhfə olduğunu bildirib. Onun sözlərinə görə, Türkmənistan qədim Böyük İpək Yolunu müasir şəraitdə dirçəltmək təşəbbüslərini davamlı şəkildə irəli aparmaqla "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutları boyunca nəqliyyat dəhlizlərinin inkişafına xüsusi əhəmiyyət verir.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Türk Dövlətləri Təşkilatının əməkdaşlığın gücləndirilməsində və hökumətlər arasında daha yaxşı əlaqənin təmin edilməsində öz rolunu göstərdiyini qeyd edib. "Son illər ərzində təşkilat öz fəaliyyətinin miqyasını genişləndirib. Hal-hazırda 58 müxtəlif sahədə biz əməkdaşlıq mexanizmləri tətbiq edirik", - deyə Kubanıçbek Ömüralıyev əlavə edib.

"Hazırda regionumuzda və dünyada ciddi çağırışlar müşahidə olunur. Biz isə yaranan qeyri-sabitlik səbəbindən dövlət başçılarımızın təlimatlarına əsasən siyasi və təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndiririk. Həmçinin nəqliyyat bağlantıları da əməkdaşlığın ən perspektivli sahələrindən biridir və Orta dəhliz bu gün cari geosiyasi mühitdə ən vacibdir. Belə ki, 2025-ci ildə Orta dəhlizlə yükdaşıma həcmi 4,7 milyon tona çatıb və bu rəqəmin 2027-ci ilə qədər 10 milyon tona çatacağı gözlənir", - deyə Kubanıçbek Ömüralıyev vurğulayıb.

Sonra Azərbaycanın Baş naziri Əli Əsədov görüşdə gündəlikdə nəzərdə tutulmuş məsələlər üzrə məhsuldar və konstruktiv müzakirələr apardığını deyib. O bildirib ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi, iqtisadi-ticari əlaqələrin inkişafı, nəqliyyat və enerji sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsi, həmçinin digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı mühüm fikirlər səsləndirildi. Müzakirələr bir daha göstərdi ki, ölkələrimiz arasında mövcud olan qardaşlıq münasibətləri və qarşılıqlı etimad təşkilat çərçivəsində əməkdaşlığın daha da inkişafı üçün möhkəm əsas yaradır.

Sonda görüşün nəticələrinə dair Birgə Bəyanat qəbul edilib.

# Baş nazir Əli Əsədov Türkiyənin Vitse-prezidenti Cevdet Yılmazla görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 2-də ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazla görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələr üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin bu münasibətlərin daha da möhkəmlənməsində əsas amil olduğu vurğulanıb.

Tərəflər ötən ilin dekabrında Bakı şəhərində keçirilmiş iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının nəticələrini müsbət qiymətləndirərək iqtisadiyyat, investisiya, enerji, nəqliyyat və digər sahələrdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər, bir sıra istiqamətlərdə birgə layihələrin icra vəziyyətini nəzərdən keçiriblər.

Görüşdə həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub, təşkilatın üzv dövlətləri arasında həmrəyliyin və qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb. Bu baxımdan Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün önəmi xüsusi qeyd edilib.

# TDT-nin Bakıda keçirilən görüşü çərçivəsində Birgə Bəyanat qəbul edilib



Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü çərçivəsində Birgə Bəyanat qəbul olunub.

AZƏRTAC bəyanatı təqdim edir:

"Türk Dövlətləri Təşkilatının hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü 2026-cı il aprelin 2-də Bakıda keçirilmişdir. Görüşdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri - Prezident Administrasiyasının rəhbəri Adılbek Kasımaliyev, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, Şimali Kipr Türk Respublikasının Baş naziri Ünal Üstel, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyev, həmçinin TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev iştirak etmişlər.

TDT-yə üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin 2025-ci il sentyabrın 18-də Bişkekdə Qırğız Respublikasının sədrliyi dövründə keçirilmiş birinci görüşün uğurla təşkil olunmasını alqışlamışlar;

Azərbaycan Respublikasının TDT-də davam edən sədrliyinə dəstək ifadə etmiş və birlik, institusional potensialın gücləndirilməsi və prioritet sahələr üzrə praktiki əməkdaşlığın inkişafına yönəlmiş fəal səylərini yüksək qiymətləndirmişlər;

Naxçıvan Sazişi və TDT-nin digər əsas sənədləri çərçivəsində üzv dövlətlərin öhdəliklərini bir daha təsdiqləmiş və TDT çərçivəsində sıx əməkdaşlığın regionda və onun hüdudlarından kənarda sülh, sabitlik və davamlı inkişafın təşviqində mühüm rol oynadığını vurğulamışlar;

2025-ci il oktyabrın 7-də Qəbələdə "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilmiş TDT-nin 12-ci Zirvə Görüşünün nəticələrinin əhəmiyyətini qeyd etmiş, dəyişən geosiyasi və təhlükəsizlik çağırışları fonunda qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərin möhkəmləndirilməsi məqsədilə əməkdaşlığın intensivləşdirilməsi barədə razılığın əldə olunduğunu vurğulamışlar;

Bu çərçivədə 2026-cı il martın 7-də İstanbulda keçirilmiş TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasının nəticələrini müsbət qiymətləndirmiş, regionda sülh və təhlükəsizliyə birbaşa təhdid yaradan regional və qlobal proseslər üzrə geniş məsləhətləşmələrin aparılması üçün mühüm imkan kimi dəyərləndirmişlər;

Üzv və müşahidəçi dövlətlər arasında iqtisadi əlaqələrin və investisiya əməkdaşlığının genişləndirilməsinin, o cümlədən birgə layihələrin təşviqi, biznes və investisiya mühitinin yaxşılaşdırılması və bizneslərarası əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulamışlar;

"Türk Dünyasına Baxış-2040" sənədini nəzərə alaraq, ticarətdə qeyri-tarif maneələrinin aradan qaldırılması yolu ilə üzv dövlətlər arasında ticarət həcminin artırılmasına sadiqliyini ifadə etmişlər;

Sənaye inkişafının iqtisadi artıma töhfəsini və dayanıqlı iqtisadi modelin formalaşmasındakı rolunu qeyd edərək, qarşılıqlı maraq doğuran sənaye sahələrində əməkdaşlığın gücləndirilməsinə hazır olduqlarını bildirmişlər;

Standartlaşdırma, rəqəmsallaşma və "yaşıl texnologiya"ların təşviqi sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmişlər;

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinin davamlı iqtisadi artım və ərzaq təhlükəsizliyi baxımından əhəmiyyətini vurğulamışlar;

Enerji təhlükəsizliyinin gücləndirilməsi, enerji mənbələrinin şaxələndirilməsi və enerji marşrutlarının təhlükəsizliyinin təmin olunmasının vacibliyini qeyd etmişlər;

Neft, qaz və digər karbohidrogenlərin nəqli sahəsində mövcud infrastrukturun səmərəli istifadəsini və genişləndirilməsini dəstəkləmişlər;

"Yaşıl enerji" layihələrinin inkişafı və ötürülməsi sahəsində əldə olunmuş irəliləyişi alqışlamış və Yaşıl Enerji Dəhlizinin inkişafına güclü dəstək ifadə etmişlər;

Kritik mineralların enerji təhlükəsizliyi baxımından əhəmiyyətini vurğulamış və əməkdaşlıq imkanlarının araşdırılmasına çağırmışlar;

Enerji səmərəliliyinin artırılması və qabaqcıl təcrübələrin paylaşılmasının təşviq olunmasını dəstəkləmişlər;

Nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq imkanlarının araşdırılmasını dəstəkləmişlər;

İnnovasiya, rəqəmsal transformasiya və süni intellektin iqtisadi inkişaf üçün strateji əhəmiyyətini qeyd etmiş və bu sahələrdə əməkdaşlığın genişləndirilməsini dəstəkləmişlər;

Kosmik texnologiyaların artan əhəmiyyətini nəzərə alaraq, bu sahədə birgə təşəbbüslərin təşviqini dəstəkləmişlər;

Nəqliyyat dəhlizlərinin inkişafını və rəqəmsal əlaqələndirmə infrastrukturunun inteqrasiyasını dəstəkləmişlər;

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulamışlar;

TDT-nin Zirvə görüşlərində qəbul edilmiş qərarların icrasının təmin edilməsinin vacibliyini bir daha təsdiqləmişlər;

Qazaxıstanın 2026-cı ildə Türküstanda Süni İntellekt və Rəqəmsal İnkişaf mövzusunda qeyri-rəsmi Zirvə Görüşünə evsahibliyi təşəbbüsünü alqışlamışlar;

Tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan Respublikasına dərin minnətdarlıqlarını bildirmişlər.

Birgə Bəyanat 2026-cı il aprelin 2-də Bakıda ingilis dilində qəbul edilmişdir".

# Soner KILIÇ: "Azərbaycan türk dünyasında dayanıqlı turizmin strateji mərkəzinə çevrilmək potensialına malikdir"

Müasir dövrdə sağlam həyat tərzinə artan maraq, ekoloji dayanıqlılıq və məsuliyyətli səyahət anlayışının güclənməsi turizm sektorunda yeni yanaşmaların formalaşmasına səbəb olur.

Bu barədə AZƏRTAC-a açıqlaması zamanı türkiyəli jurnalist, turizm üzrə ekspert Soner Kılıç bildirib. Onun sözlərinə görə, qlobal turizm bazarında yalnız istirahət deyil, eyni zamanda sağlamlıq, təbiətlə təmas və mədəni dəyərlərlə zəngin təcrübələr ön plana çıxır.

"Bu kontekstdə dayanıqlı turizm və ekoturizm modelləri sürətlə inkişaf edir. Azərbaycan isə öz zəngin təbii ehtiyatları, biomüxtəlifliyi və tarixi-mədəni irsi ilə bu yeni turizm konsepsiyasına uyğun gələn nadir ölkələrdən biridir. Azərbaycan coğrafi mövqeyi baxımından da mühüm üstünlüklərə malikdir. Qafqaz regionunda yerləşən ölkə həm Avropa, həm də Asiya bazarları üçün əlçatan turizm istiqaməti kimi çıxış edir. Bu isə Azərbaycanın beynəlxalq turizm marşrutlarına inteqrasiyasını asanlaşdırır. Azərbaycanda sağlamlıq turizmi və ekoturizm paralel şəkildə inkişaf etdirilə biləcək sahələrdir. Naftalan nefti ilə müalicə mərkəzləri dünyada analoqu az olan sağlamlıq turizmi məhsuludur. Bununla yanaşı, Şahdağ və Göygöl kimi milli parklar, dağlıq və meşəlik ərazilər ekoturizm üçün böyük imkanlar yaradır. Bu potensialın daha səmərəli istifadəsi üçün infrastrukturun inkişafı, beynəlxalq standartların tətbiqi və rəqəmsal tanıtım mexanizmlərinin gücləndirilməsi vacibdir. Xüsusilə regionlarda turizm xidmətlərinin keyfiyyətinin artırılması yerli icmaların sosial-iqtisadi inkişafına da müsbət təsir göstərəcək", - deyə Soner Kılıç vurğulayıb.

Ekspert əlavə edib ki, müasir turistlər daha çox təbii mühitdə vaxt keçirməyə üstünlük verirlər: "Azərbaycanda trekkinq, dağ yürüşləri, veloturizm, kənd turizmi və orqanik kənd təsərrüfatı təcrübələri turistlər üçün cəlbedici məhsullardır. Bu fəaliyyətlər həm fiziki sağlamlığı gücləndirir, həm də psixoloji rahatlıq təmin edir. Ekoturizm yalnız turizm fəaliyyəti deyil, eyni zamanda ətraf mühitin qorunması və davamlı inkişaf prinsiplərinin təşviqidir. Türk dünyası ölkələri arasında turizm sahəsində əməkdaşlıq geniş perspektivlər vəd edib. Türk Dövlətləri Təşkilatı və



TÜRKSOY kimi beynəlxalq qurumlar ortaq mədəni irsin qorunması və təbliği baxımından mühüm platforma rolunu oynayır. Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə birgə hazırlanacaq turizm layihələri çərçivəsində ortaq marşrutların yaradılması xüsusi əhəmiyyət daşıyır. Məsələn, "Türk dünyası İpək Yolu marşrutu", yaylaq turizmi xətti və ortaq mədəni festivallar turistlər üçün vahid və cəlbedici turizm məhsulu formalaşdıra bilər".

Onun sözlərinə görə, bu əməkdaşlıq həm turist axınının artmasına, həm də region ölkələrinin beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olacaq. Ekspert Azərbaycanın zəngin mətbəxinin də turizmin inkişafında mühüm rol oynadığını bildirib.

"Azərbaycan mətbəxi təbii və yerli məhsullara əsaslanır. Bu isə sağlam qidalanma baxımından müasir turizm trendləri ilə tam uyğunluq təşkil edir. Türk dünyası ölkələri arasında keçiriləcək qastronomiya festivalları və kulinariya tədbirləri həm mədəni inteqrasiyanı gücləndirəcək, həm də regionun turizm cəlbediciliyini artıracaq. Gələcəkdə turizmin inkişafı dayanıqlı yanaşma əsasında qurulmalıdır. Bu isə ekoloji tarazlığın qorunması, yerli icmaların maraqlarının nəzərə alınması və resurslardan səmərəli istifadəni tələb edir. Azərbaycan bu sahədə türk dünyasında nümunəvi model yarada bilər. Ortaq strategiyalar, bilik və təcrübə mübadiləsi regionda turizmin keyfiyyətini yeni mərhələyə yüksəldəcək", - deyə o qeyd edib.

Ekspert vurğulayıb ki, sağlam həyat, ekoturizm və türk dünyası əməkdaşlığı gələcəyin turizm modelini müəyyən edən əsas istiqamətlərdir: "Bu sahələrdə atılacaq addımlar nəticəsində Azərbaycan yalnız regionda deyil, qlobal turizm xəritəsində də mühüm mövqe qazana bilər".

# Benefisiar mülkiyyətçi məlumatlarına dair mərkəzləşdirilmiş reyestrin fəaliyyətinin təmin olunması ilə bağlı görülməli tədbirlər müəyyənləşdirilib

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının (Koordinasiya Şurası) növbəti iclası aprelin 2-də keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, iclası açan Baş nazirin müavini, Koordinasiya Şurasının sədri Samir Şərifov cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin səmərəliliyinin daha da artırılması üçün Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiqlənmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın, habelə digər tədbirlər planlarının icra vəziyyətinin müsbət qiymətləndirildiyini bildirib. O əlavə edib ki, müvafiq tədbirlərin davamlılığının təmin olunması üçün tezliklə yeni fəaliyyət planının qəbulu mühüm əhəmiyyət daşıyır. İclasda ötən il yaradılmış benefisiar mülkiyyətçi məlumatlarına dair mərkəzləşdirilmiş reyestrin fəaliyyətinə dair mövcud vəziyyət müzakirə edilib və bu reyestrin fəaliyyətinin təmin olunması ilə bağlı görülməli tədbirlər müəyyənləşdirilib.

Bundan əlavə, iclasda "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2026-2028-ci illər üzrə Milli Fəaliyyət Planı" layihəsi müzakirə olunub. Milli Fəaliyyət Planı layihəsində nəzərdə tutulan bəzi tədbirlərin aidiyyəti dövlət orqanları tərəfindən hələ də razılaşdırılmadığı nəzərə alınaraq, Şura sədri tərəfindən bu prosesin sürətləndirilməsi məqsədilə müvafiq tapşırıqlar verilib. İclasda həmçinin cari ilin iyulunda ölkəmizin evsahibliyi edəcəyi "Maliyyə Kəşfiyyatı Orqanlarının Eqmont Qrupunun 32-ci plenar iclasının keçirilməsi ilə bağlı" İş planı üzrə görülmüş işlərə dair hesabat dinlənilib, habelə Şuranın fəaliyyəti ilə bağlı digər məsələlər üzrə müzakirələr aparılıb.



# Azərbaycan-Çin münasibətlərinə həsr olunmuş "dəyirmi masa" keçirilib

Aprelin 2-də Milli Məclisdə Azərbaycan-Çin diplomatik münasibətlərinin qurulmasının 34 illiyinə həsr olunmuş "dəyirmi masa" keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir iştirakçılarını spiker Sahibə Qafarovanın adından salamlayan Milli Məclisin Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov Çinin Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olduğunu vurğulayıb, iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasından ötən 34 il ərzində münasibətlərimizin keçdiyi inkişaf yolundan danışıb. O, iki ölkə arasında yüksək səviyyədə olan strateji tərəfdaşlıq əlaqələrinin bugünkü səviyyəsindən məmnunluğunu bildirərək, Prezident İlham Əliyevin ötən il Çin Xalq Respublikasına dövlət səfərindən sonra iki ölkə arasında əlaqələrimizin daha da inkişaf edərək yeni mərhələyə yüksəldiyini qeyd edib.

Soltan Məmmədov Milli Məclis Sədrinin ötən ay Çinə səfərini xatırladaraq, parlamentlər arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin mühüm tərkib hissəsini təşkil etdiyini diqqətə çatdırıb. O, Azərbaycan və Çin arasında iqtisadiyyat, mədəniyyət və digər sahələrdə də əməkdaşlığın yüksələn xətlə inkişaf etməsinin hər iki xalqın maraqlarına xidmət göstərdiyini bildirib, Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi layihələrin əhəmiyyətindən və gələcək planlardan danışıb.

"Dəyirmi masa"da iştirak edən Çinin Azərbaycandakı səfiri Lu Mey iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 34-cü ildönümünün tamam olmasının qürurverici olduğunu qeyd edib. O, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Çinlə münasibətlərin inkişafına həmişə böyük önəm verdiyini və bu siyasi xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Səfir Azərbaycanın Çinin qlobal təşəbbüslərinə dəstəyinin yüksək qiymətləndirildiyini, iki ölkə arasında ticarət dövriyyəsinin və digər sahələrdə əməkdaşlığın daim inkişaf etdiyini vurğulayıb.

Qanunvericilik orqanları arasında əlaqələrin də yüksək səviyyədə olduğunu deyən səfir parlamentlərin ikitərəfli və çoxtərəfli münasibətlərin inşafında özünəməxsus rol oynadığını qeyd edib.

Tədbirdə həmçinin Azərbaycan və Çinin beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığından razılıq ifadə olunub, ölkələrimizin mühüm məsələlərdə bir-birinə daimi dəstək göstərmələrindən məmnunluq bildirilib.

Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri - deputatlar Qüdrət Həsənquliyevin, Günay Əfəndiyevanın, Rəşad Mahmudovun, Nigar Məmmədovanın, Tahir Mirkişilinin, Səbinə Salmanovanın, Elman Nəsirovun və Naqif Həmzəyevin iştirak etdiyi tədbirdə çıxış edənlər parlamentlərarası əlaqələrin Azərbaycan-Çin münasibətlərindəki rolundan danışıblar. Qeyd olunub ki, parlamentlər arasında qarşılıqlı təmaslar, dostluq qruplarının fəaliyyəti və parlamentarilərin səfərləri ikitərəfli münasibətlərin möhkəmlənməsinə əhəmiyyətli töhfə verir.

"Dəyirmi masa"da Azərbaycan ilə Çin arasında əməkdaşlığın artan əhəmiyyəti xüsusi vurğulanıb, rəqəmsal iqtisadiyyat, süni intellekt, "yaşıl energetika", logistika, "ağıllı texnologiya"lar və innovasiyalar kimi prioritet sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları ətraflı müzakirə olunub. Bildirilib ki, bu istiqamətlər üzrə birgə layihələrin həyata keçirilməsi ölkələrimizin davamlı iqtisadi inkişafına xidmət edir.

Müzakirələr zamanı Azərbaycan ilə Çin arasında mövcud olan münasibətlərin bundan sonra da bütün sahələr üzrə dərinləşdirilməsi perspektivləri nəzərdən keçirilib.

*"Azərbaycan"*

# Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət mükafatlarına təqdim edilən əsərlərin adları açıqlanıb

Azərbaycan Respublikasının Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına 2026-cı ilin Dövlət mükafatlarına təqdim edilən işlərin adları açıqlanıb.

Bu barədə AZƏRTAC-a Dövlət Mükafatları Komissiyasından məlumat verilib.

Dövlət mükafatlarına aşağıdakı işlər təqdim edilib:

**I. Elm və texnologiya sahəsində**

**1. Adil Qəribov -** "Atom-hidrogen energetikasında termo- və radiasion-heterogen proseslər" monoqrafiyası (rus dilində - "Термо- и радиационно-гетерогенные процессы в атомно-водородной энергетике").

**Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutu (optimallaşdırmadan sonra Fizika İnstitutunun tərkibində) təqdim edib.**

**2. Asəf Hacıyev -** "Çoxölçülü reqressiya analizi və süni intellekt" kitabı (ingilis dilində - "High-Dimensional Regression Analysis and Artificial Intelligence").

**Bakı Mühəndislik Universiteti təqdim edib.**

**3. Akif Əlizadə, Tələt Kəngərli, Dadaş Hüseynov, Zaur İmrani, Rauf Qardaşov, Amin İsmayılov, Xəyyam Rəhimov, Səyyarə İbadullayeva, Təvəkkül İsgəndərov, Qurban Yetirmişli, Nazim İsmayılov -** "Qarabağ və Şərqi Zəngəzur. Təbii Ehtiyatlar Atlası".

**Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutu (optimallaşdırmadan sonra Geologiya İnstitutunun tərkibində) təqdim edib.**

**4. Bədirxan Əhmədov -** "XX əsr Azərbaycan ədəbiyyatı tarixi. İcmallar, təhlillər, portretlər" (3 cilddə) monoqrafiyası.

**Xəzər Universiteti təqdim edib.**

**5. Camaləddin Aslanov -** "Düzaxınlı siyirtmə" ixtirası və onun əsasında elmi nəzəri perspektivliyi sübuta yetirilmiş ixtiranın təkmilləşdirilməsinə dair kompleks elmi-tədqiqat.

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya Elmi-Tədqiqat İnstitutu təqdim edib.**

**6. Əsgər Zeynalov -** "İrəvan ziyalıları" monoqrafiyası (rus dilində - "Эриванская аристократия").

**Azərbaycan Dillər Universiteti təqdim edib.**

**7. İlqar Nəzərov, Natiq Cavadov, Məmmədsaleh Əliyev, Soltan Qasımov, Rafiq Hüseynov -** Müdafiə təyinatlı məmulatların yaradılması, istehsalı və utilizasiyası sahəsində aparılmış elmi-tədqiqat, təcrübi-konstruktor işlərinin nəticələri əsasında müasir istehsalat sahələrinin yaradılması.

**Müdafiə Sənayesi Nazirliyinin "İqlim Elmi-İstehsalat Müəssisəsi" təqdim edib.**

**8. İlyas Həmidov, Məmməd Qocayev, Rəna Məmmədova, Leyla Həmidova -** "Azərbaycan dilinin frazeologiya lüğəti".

Bakı Slavyan Universiteti təqdim edib.

**9. Könül Bünyadzadə -** "Sufi fenomenologiya" ikicildlik monoqrafiyası.

**Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu təqdim edib.**

**10. Qəzənfər Paşayev və Orxan İsayev -** "İraq-Türkman ədəbiyyatı tarixi" monoqrafiyası.

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu təqdim edib.**

**11. Mahirə Hüseynova, Sayalı Sadıqova -** "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" monoqrafiyası.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti təqdim edib.**

**12. Məhəmməd Camalbəyov, Nazim Vəliyev -** "Yeni "Diskret-imitasiya modelləşdirmə konsepsiyası": nasos-quyu-lay sistemlərinin kompüter simulyasiyası ilə neft hasilatının optimallaşdırılması" elmi əsəri.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Neftqazelmitədqiqatlayihə" İnstitutu təqdim edib.**

**13. Rahib İmamquluyev -** "Qeyri-Səlis Məntiq və Süni İntellekt Əsaslı Adaptiv və İzaholunan İdarəetmə Sistemləri: IoT, 6G və Kibertəhlükəsizlik Tətbiqləri" elmi işlər silsiləsi.

**Bakı Biznes Universiteti təqdim edib.**

**14. Tarix Dostiyev -** "Orta əsr Gəncəsinin şirli keramikası (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası)" və "Şəmkirin şirli keramikası: forma və məzmunun birləşdiyi mədəniyyət fenomeni" monoqrafiyaları.

**Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu təqdim edib.**

**15. Vəfaddin İbayev -** "Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" kitabı.

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi təqdim edib.**

**II. Memarlıq və mədəniyyət sahəsində**

**16. Eldar Mikayılzadə -** Xalça sənəti sahəsində fəaliyyətinə, xalçaçı rəssam kimi son illərdə yaratdığı əsərlərinə görə ("Azərbaycan xalçası - ilmələrin rəqsi", "Xəmsə" silsilələri və "Səmavi dinlər" triptixi).

**Mədəniyyət Nazirliyi təqdim edib.**

**17. Musa İsmayılov (Mərcanlı) -** Azərbaycan mədəniyyətinin təbliği ilə bağlı silsilə əsərlər: "Azərbaycan. Yeni Era", "Tükənməz xəzinə", "Şirvanşahların minilliyi", "Dirçəliş. Başlanğıc", "Daşları toplamaq vaxtıdır", "Qarabağ Yeni sətirdən", "Şuşa. Zirvədən uca".

**Bakı Dövlət Universiteti təqdim edib.**

**18. Sakit Məmmədov -** "Heydər Əliyev və multikultural dəyərlər" silsilə əsərləri.

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təqdim edib.**

**19. Siyavuş Kərimi -** "Nəsimi" operası.

**Azərbaycan Teatr Xadimləri İttifaqı təqdim edib.**

**20. Yusif Eyvazov -** ifaçılıq fəaliyyətinə görə.

**Azərbaycan Musiqi Xadimləri İttifaqı təqdim edib.**

**III. Ədəbiyyat sahəsində**

**21. Kamal Abdulla -** "Gizli "Dədə Qorqud" - yeni mənalar axtarışında" kitabı.

**Azərbaycan Yazıçılar Birliyi təqdim edib.**

Dövlət mükafatlarına irəli sürülmüş işlərlə ictimaiyyətin geniş tanış olması və müvafiq rəylərin bildirilməsi məqsədilə idarə və təşkilatlardan, ictimai və yaradıcı birliklərdən xahiş olunur ki, yuxarıda göstərilən işlərin müzakirəsini təşkil etsinlər.

**Komissiyanın ünvanı:**
**AZ1066, Bakı şəhəri, Lermontov küçəsi, 68.**
**Azərbaycan Respublikasının Nazirlər Kabineti. E-mail: nk@nk.gov.az**

# BMT Azərbaycanın təşəbbüskarı olduğu qətnaməni qəbul edib

Cenevrə şəhərində BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sözügedən qətnaməyə əsas həmmüəllif ölkələr olan Türkiyə, Gürcüstan, Ekvador, Kenya, Malayziya və Tailand ilə yanaşı, Avropa İttifaqına üzv olan dövlətlər, Birləşmiş Krallıq, Kanada, Yaponiya, Avstraliya, Braziliya, Efiopiya, həmçinin Afrika, Asiya və Amerika qitələrini təmsil edən bir sıra digər dövlətlər milli qisimdə, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı dövlətləri qrup şəklində həmmüəllif kimi qoşulublar.

Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən olan və Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasına əsaslanan "dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması" prinsipinin BMT sistemi daxilində təşviq edilməsidir.

Qəbul edilmiş qətnamə səmərəli dövlət xidmətlərinin bütün insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Davamlı İnkişaf Gündəliyinin həyata keçirilməsində əhəmiyyətini vurğulayır.

Qətnamədə rəqəmsal texnologiyaların, həmçinin süni intellekt sistemlərinin korrupsiyanın qarşısının alınmasında və onunla mübarizədə oynadığı mühüm rola, hər kəsə dövlət xidmətlərinin bərabər çatdırılmasına, həmçinin təbii fəlakətlərə hazırlıq, cavab tədbirləri və bərpa işləri kontekstində dövlət xidmətlərinin əhəmiyyəti məsələlərinə diqqət ayrılır.

Sənəd 2015-ci ildə "ASAN xidmət"in təltif edildiyi "BMT-nin Dövlət Xidmətləri Mükafatı"nı dövlət xidmətlərinin göstərilməsi sahəsində dünyanın ən nüfuzlu mükafatı olaraq təsbit edir, eyni zamanda BMT qurumlarını və digər beynəlxalq təşkilatları müvafiq sahədə mövcud uğurlu təcrübələri təşviq etməyə və mükafatlandırmağa davam etməyə çağırır.

Qətnamədə həmçinin İnsan Hüquqları Şurasının 65-ci sessiyasında fəlakətlərə hazırlıq, cavab tədbirləri və bərpa kontekstləri də daxil olmaqla dövlət xidmətlərinin çatdırılmasının insan hüquqlarının təşviqi və qorunmasında, həmçinin Davamlı İnkişaf Məqsədlərinə nail olunmasında rolu mövzusunda panel müzakirəsinin keçirilməsi qərara alınır.

Azərbaycanın təşəbbüsü ilə daha öncə 2018 və 2023-cü illərdə BMT-nin İnsan Hüquqları Şurasında konsensusla qəbul edilmiş 37/7 və 52/8 nömrəli eyniadlı qətnamələrin əsasında irəli sürülmüş cari qətnamənin yekdilliklə qəbul edilməsi və ona çox sayda dövlətlərin həmmüəllif qismində qoşulması, ölkəmizin dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması sahəsində müsbət təcrübəsinə və bu sahədə beynəlxalq müstəvidə öncül roluna beynəlxalq ictimaiyyət tərəfindən göstərilən dəstəyin bariz göstəricisidir.

# Azərbaycan və Tacikistan XİN-ləri arasında növbəti konsulluq məsləhətləşmələri olub

Aprelin 2-də Bakıda Azərbaycan və Tacikistan Xarici İşlər nazirlikləri arasında növbəti konsulluq məsləhətləşmələri keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Tacikistan nümayəndə heyətinə isə Baş konsulluq idarəsinin rəhbəri Baxodur Safarzoda rəhbərlik edib.

Görüşdə Tacikistanın ölkəmizdəki səfiri Ilxom Abduraxmon, həmçinin Azərbaycanın Ədliyyə Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin rəsmiləri iştirak ediblər.

Konsulluq məsləhətləşmələri zamanı iki ölkə arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

İki ölkə arasında ədliyyə, təhsil, əmək, sosial müdafiə və digər vacib sahələr üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Konsulluq məsləhətləşmələri çərçivəsində Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev Tacikistanın nümayəndə heyəti ilə görüşüb.

# TDT qlobal iqtisadi aktora çevrilmək potensialına malikdir

Türk Dövlətləri Təşkilatı (TDT) baş nazirlərinin görüşlərinin əsas məqsədi üzv ölkələr arasında iqtisadi-ticarət əlaqələrini, nəqliyyat-logistika, enerji və rəqəmsal transformasiya sahələrində əməkdaşlığı gücləndirmək, həmçinin dövlət başçılarının müəyyən etdiyi strateji hədəfləri reallaşdırmaq üçün praktiki addımlar atmaqdır.



Azərbaycanın bu il TDT-nin ev sahibi olduğunu xatırladan Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, bu çərçivədə Qəbələdə keçirilən 13-cü Zirvə görüşü zamanı əsas prioritetlər müəyyənləşdirilib, yeni sahələrdə əməkdaşlıq yaranıb. Bu gün enerji, "yaşıl enerji" də daxil olmaqla, bağlantılar, hərbi və müdafiə sahəsində, o cümlədən "yumşaq güc" siyasəti üzrə TDT ölkələri arasında əməkdaşlıq mövcuddur. "Həmçinin TDT daxilində çoxlu platformalar yaranıb. Bu platformalar üzrə də dövlət və özəl qurumların qarşılıqlı əməkdaşlığı davam edir və onların gündəlik fəaliyyətinin tərkib hissəsinə çevrilib. Yəni, dövlət üçün vacib siyasi istiqamət xalqlar üçün də prioritet hesab olunaraq, qarşılıqlı fayda verəcək əməkdaşlıqlar təşviq edilir", - deyə o bildirib.

Deputat qeyd edib ki, hazırkı qlobal təhdid və çağırışlar fonunda TDT kimi regional təşkilatların rolu dünyada artmaqdadır. Son olaraq Naxçıvana dron hücumundan sonra Türkiyədə TDT təhlükəsizlik toplantısı keçirilib və müzakirələr aparılmışdı. Bakıda keçirilən görüşə gəldikdə isə nəqliyyat və logistika infrastrukturunun inkişafı, Orta dəhlizin potensialının artırılması TDT baş nazirlərinin müzakirəsinin diqqət mərkəzində olub.

P.Vəliyeva deyib ki, TDT çərçivəsində iqtisadi əməkdaşlıq mexanizmlərinin səmərəliliyinin artırılması, gömrük və sərhəd prosedurlarının sadələşdirilməsi, o cümlədən elektron sistemlərin tətbiqi ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasına imkan verəcək: "Türk Dövlətləri Təşkilatı yalnız mədəni və tarixi yaxınlıq platforması deyil, o həm də real siyasi-iqtisadi güc mərkəzinə çevrilir. Təşkilat regional ittifaqdan qlobal iqtisadi aktora çevrilmək potensialına və gələcəkdə vahid iqtisadi blok kimi çıxış etmək imkanına malikdir. Hazırda "orta güc" olan türk dünyasının strateji çəkisi getdikcə artır. Türk dünyası heç vaxt bu qədər yaxın olmayıb, bu təşkilat daxilində siyasi yaxınlaşma sürətlənib, ortaq maraqlar daha aydın formalaşıb. Bu isə xüsusilə, Cənubi Qafqaz, Mərkəzi Asiya və Qara dəniz regionu üçün yeni geosiyasi balans yaradır".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Mərkəzi Asiya-Avropa dəhlizləri TDT-yə üzv dövlətlərə qlobal proseslərə təsir etmək imkanı verir

"Bu gün dünyada baş verən gərgin geosiyasi proseslərin müharibə ilə müşahidə olunması birliyin və qarşılıqlı iqtisadi əməkdaşlığın nə qədər əhəmiyyətli olduğunu göstərir. Türk Dövlətlər Təşkilatı (TDT) həm iqtisadi, həm də siyasi baxımdan nəinki regional, hətta qlobal səviyyəli bir beynəlxalq güc mərkəzinə çevrilə bilər. Bu gün Bakıda TDT hökumət başçılarının, o cümlədən Türkiyənin vitse-prezidentinin bir araya gələrək qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin genişlənməsini müzakirə etmələri təqdirəlayiqdir".



Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı Türkiyəli iqtisadi ekspert, "Vətən" partiyasının iqtisadi siyasət bürosunun rəhbəri Həsən Topkurulu deyib.

Onun sözlərinə görə, qlobal səviyyəli birgə layihələrin birlikdə həyata keçirilməsi təşkilatın nüfuzu və siyasi proseslərdəki rolunu artıracaq.

"Orta dəhliz və Mərkəzi Asiya-Avropa "Yaşıl Enerji" Dəhlizi üzv dövlətlərə qlobal proseslərə təsir etmək imkanı verir. Bu gün Avropanın TDT-nin enerji resurslarına böyük ehtiyacı var ki, bu faktın özü Avropa İttifaqı (Aİ) kimi beynəlxalq quruma təsir etmək imkanı qazandırır. Dəhliz Türkiyə ilə Azərbaycanı, eləcə də Mərkəzi Asiyadakı türk dövlətlərini birləşdirir, onların daha yaxın əməkdaşlığını, bir-birini beynəlxalq arenada əsaslı dəstəkləməsini təmin edir, iqtisadi, siyasi, sosial və mədəni birliyin yaranaraq qlobal siyasi proseslərdə layiqli mövqe tutmasına imkan verir. 6 müstəqil türk dövləti birlikdə 4,7 milyon kvadrat kilometr ərazini əhatə edir. Müqayisə üçün qeyd edək ki, Avropa İttifaqı ölkələrinin ərazisi ümumilikdə 4 milyon kvadrat kilometrdir. Həmçinin 6 müstəqil türk dövləti birlikdə ümumi dünya əhalisinin 2 faizindən çoxunu təşkil edir. Bu gün müstəqil türk dövlətlərinin toplam göstəricilərinə baxdıqda, ərazilərinə görə dünya ölkələri arasında 7-ci, əhali sayına görə 9-cu, ümumi daxili məhsul (ÜDM) istehsalına görə 16-cı, təbii qaz ehtiyatlarına görə Rusiya, İran və Qətərdən sonra 4-cü, neft istehsalına görə 9-cu, qızıl və bor ehtiyatlarına görə 1-ci, uran ehtiyatına görə isə 2-ci yerdə dayanır. Qeyd edək ki, 1,1 trilyon dollar milli gəliri və 560 milyard dollarlıq xarici ticarət dövriyyəsi ilə türk dövlətləri böyük iqtisadi potensiala malikdirlər.

Bu potensialın birləşməsi və səmərəli istifadəsi hər bir üzv dövlətin ayrı-ayrılıqda və birlikdə güclənməsini təmin edəcək. Azərbaycan ilə Türkiyə alternativ enerji potensialları ilə yanaşı, tranzit imkanına da malikdirlər. Bu amilləri hər iki dost və qardaş ölkəni təşkilat daxilində əhəmiyyətli aktora çevirir", - deyə ekspert vurğulayıb.



# Bizi birləşdirən təkcə kökümüz deyil

## Prezident İlham ƏLİYEV: "Türk dünyası artıq yalnız bir mədəni layihə deyil, real iqtisadi güc mərkəzidir"

**Aprelin 1-2-də Türk Dövlətləri Təşkilatının (TDT) hökumət başçılarının Bakıda keçirilən ikinci görüşündə üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın bir qədər də gücləndirilməsi, ticarət və enerji layihələrinin inkişafı, həmçinin regional nəqliyyat və logistik imkanların genişləndirilməsi məsələləri müzakirə olunub. Görüş çərçivəsində qarşılıqlı etimadın artırılması və birgə investisiya təşəbbüslərinin gücləndirilməsi məqsədilə bir sıra qərarlar qəbul edilib.**

Ötən ilin noyabrında Bişkekdə keçirilən birinci görüşdən fərqli olaraq, budəfəki tədbir ABŞ və İsrail - İran müharibəsi fonunda xüsusi əhəmiyyət daşıyır. Müharibənin başlanmasından bəri TDT daxilində fəal müzakirələr aparılır. Xatırladaq ki, bir ay əvvəl - martın 8-də İstanbulda Türk Dövlətləri Xarici İşlər Nazirləri Şurasının rəsmiyyətdənkənar görüşü keçirilib. Həmin görüşdə Naxçıvana PUA, Türkiyəyə raket hücumu qəti şəkildə pislənilib. Ötən həftə isə TDT üzv dövlətlərinin dövlət başçılarının köməkçiləri Macarıstanın paytaxtı Budapeştdə görüşüblər. Görüşdə yüksəksəviyyəli nümayəndələr iştirak edib və müzakirələr zamanı təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi, nəqliyyat və logistika layihələrinin genişləndirilməsi, həmçinin regional və qlobal problemlər fonunda koordinasiyanın artırılması əsas prioritetlər kimi ön plana çıxıb.

Təşkilat çərçivəsində həyata keçirilən görüşlər və razılaşmalar, üzv dövlətlərin qarşılıqlı etimadını gücləndirməklə yanaşı, regionda dayanıqlı sülh və sabitliyin təmin olunmasına yönəlmiş konkret addımların atılmasına imkan yaradır. Ona görə də regional və qlobal şəraitdə baş verən iqtisadi, siyasi dalğalanmalar üzv dövlətlərin bir-birinə daha çox güvənməsini və əməkdaşlığı gücləndirməsini zəruri edir. Dünya iqtisadiyyatında baş verən dəyişkənliklər, təlatümlər, enerji bazarlarında dalğalanmalar və yüksək qlobal borc yükü Türk dövlətlərini bir-birinə güvənməyə, aralarındakı bağı möhkəmləndirməyə vadar edir.

Bu dinamik inkişaf çərçivəsində təşkilat rəhbərliyi üzv dövlətlər arasında əməkdaşlığın sistemli və genişləndirilmiş mexanizmlər vasitəsilə həyata keçirildiyini hər zaman vurğulayır. Bu mənada TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev adıçəkilən tədbirdə deyib ki, hazırda 58 müxtəlif sahədə əməkdaşlıq mexanizmləri tətbiq edirik: "Yaranan qeyri-sabitlik səbəbindən dövlət başçılarımızın təlimatlarına əsasən siyasi və təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndiririk. Həmçinin nəqliyyat bağlantıları da əməkdaşlığın ən perspektivli sahələrindən biridir və Orta dəhliz bu gün cari geosiyasi mühitdə ən vacibidir. Belə ki, 2025-ci ildə Orta dəhlizlə yükdaşıma həcmi 4,7 milyon tona çatıb və bu rəqəmin 2027-ci ilə qədər 10 milyon tona çatacağı gözlənir".

Baş katibin sözlərinə söykənərək deyə bilərik ki, hazırda Orta dəhliz bu bağlantının arteriyası hesab olunur. Çünki Azərbaycan və Mərkəzi Asiya ölkələrinin enerji resursları, eləcə də Orta dəhliz çərçivəsində logistik imkanlar təşkilatın əsas sütunlarıdır. Dəhliz vasitəsilə yük daşımaların həcmi artmaqla yanaşı, region ölkələri arasında ticarət və investisiya imkanları da günbəgün genişlənir. Limanlar, nəqliyyat infrastrukturu və sərbəst iqtisadi zonalar strateji düyün nöqtələri kimi çıxış edir, regional əməkdaşlığın dərinləşməsinə şərait yaradır. Beləliklə, Orta dəhliz üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmlənməsi və uzunmüddətli iqtisadi əlaqələrin formalaşması üçün vacib bir platforma rolunu oynayır.

Buradaca rəqəmlərə müraciət edək: 2026-cı ilin yanvar ayında nəqliyyat dəhlizlərində daşınan yük həcmi 2342,7 min ton təşkil edib. Bu fakt Dövlət Statistika Komitəsinin açıqladığı yanvar ayının makroiqtisadi göstəricilərində yer alıb. Bakı Limanı, Ələt Azad İqtisadi Zonası və Qazaxıstanın Aktau limanı həmin marşrutun strateji düyün nöqtələridir. Marşrut boyunca yük daşımalarının həcmi və tranzit sürəti, üzv dövlətlər arasında iqtisadi əlaqələrin güclənməsinin və investisiya imkanlarının artmasının bariz göstəricisidir. Eyni zamanda bu dinamika regional əməkdaşlıq və ticarət əlaqələrinin daha çox genişlənməsi üçün də möhkəm zəmin yaradır.

TDT çərçivəsində "yaşıl enerji" təşəbbüsləri önəmli yer tutur. Üzv dövlətlər arasında bərpaolunan enerji mənbələrinin inkişafı və enerji layihələrinin ekoloji təmiz texnologiyalarla reallaşdırılması regional enerji təhlükəsizliyini gücləndirir və iqtisadi əməkdaşlığın dayanıqlılığını artırır. Bu mənada Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji" daşımalarının təşkili üzrə pilot layihələrin həyata keçirilməsi diqqətəlayiqdir. 2024-cü ilin noyabrında imzalanan Azərbaycan, Qazaxıstan, Özbəkistan arasındakı "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında sazişə əsasən, az sonra Xəzər dənizi üzərindən "yaşıl elektrik" ötürmə infrastrukturunun yaradılması istiqamətində texniki-iqtisadi əsaslandırma işlərinə başlanılıb. Bu təşəbbüs region daxilində enerji təhlükəsizliyinin həm texniki, həm də ekoloji yönünü əhatə edir.

TDT-nin iqtisadi gələcəyi siyasi iradənin düzgün iqtisadi mexanizmlərlə müşayiət olunmasına bağlıdır. Prezident İlham Əliyevin bu günlər Budapeştdə səsləndirdiyi "Türk dünyası artıq yalnız bir mədəni layihə deyil, real iqtisadi güc mərkəzidir" fikri həmin baxışın təməl tezisidir. Türk İnvestisiya Fondu kimi mexanizmlər bu prosesi daha da sürətləndirə bilər. Ümumiyyətlə, TDT-nin əsas iqtisadi göstəricilərinə nəzər yetirdikdə dünya iqtisadiyyatında önəmli yer tutduğunun şahidi oluruq. Təkcə bu fakta nəzər yetirək: türk dövlətlərinin ümumi ərazisi 4823,5 min kilometr, ümumi daxili məhsulu (ÜDM) 1383 milyard dollar, əhalisi 173,8 milyon nəfər, ticarət dövriyyəsi 855,7 milyard dollardır.

Deyilənlərin fonunda sonda qeyd edək ki, "Gülüstan" sarayında keçirilən görüşdə bəyanat qəbul edilib. Tədbirdə yekun niqti ilə çıxış edən Baş nazir Əli Əsədov deyib: "Hörmətli həmkarlarımın çıxışlarında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi, iqtisadi-ticari əlaqələrin inkişafı, nəqliyyat və enerji sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsi, həmçinin digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı mühüm fikirlər səsləndirildi. Müzakirələr bir daha göstərdi ki, ölkələrimiz arasında mövcud olan qardaşlıq münasibətləri və qarşılıqlı etimad təşkilat çərçivəsində əməkdaşlığın daha da inkişafı üçün möhkəm əsas yaradır".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Siyasi reallığın rəsmi etirafı

Ermənistan rəhbərliyinin son dövrlərdə səsləndirdiyi bəyanatlar və xüsusilə parlament sədri Alen Simonyanın jurnalistə müsahibəsi zamanı qondarma "Artsax" terminindən imtina etməsi, regionda yaranmış yeni geosiyasi reallıqların İrəvan tərəfindən rəsmən qəbulunun növbəti təzahürüdür. Ermənistan parlamentinin sədri bu addımı ilə, əslində, illərdir davam edən saxta təbliğatın iflasını rəsmiləşdirmiş oldu.

Jurnalistin sualına kəskin reaksiya verən Alen Simonyan, faktiki olaraq Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və beynəlxalq hüquq müstəvisində Qarabağın Azərbaycanın suveren ərazisi olduğunu qəbul etdiyini göstərdi. Bu, separatçı ritorikadan imtina edərək real siyasi müstəviyə qayıtmaq cəhdidir. Bu hadisə sadəcə leksik bir dəyişiklik deyil, Ermənistanın onilliklər boyu yürütdüyü işğalçılıq ideologiyasının iflası və beynəlxalq hüququn norma və prinsiplərinə məcburi qayıdışıdır.



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri Cənubi Qafqazda onilliklər boyu davam edən status-kvonu köklü şəkildə dəyişdi: "Bu tarixi qələbələr təkcə döyüş meydanında deyil, həm də diplomatik və siyasi ritorika müstəvisində Ermənistanı illüziyalardan xilas olmağa vadar edir. Alen Simonyanın Qarabağa münasibətdə qondarma "Artsax" ifadəsinin işlədilməsinə qarşı çıxması və beynəlxalq hüquqi xəritələri əsas gətirməsi, rəsmi İrəvanın separatçı ritorikanın dövlət maraqlarına vurduğu zərəri artıq dərk etdiyini göstərir. Ermənistan rəsmi dairələrinin mövqeyində müşahidə olunan bu "u dönüşü" bir neçə mühüm amillə şərtləndirilir. İlk olaraq İrəvan artıq anlayır ki, dünya birliyi tərəfindən tanınan sərhədləri inkar etmək Ermənistanın bir dövlət kimi gələcək taleyini təhlükə altına qoyur. Azərbaycanla imzalanması gözlənilən yekun sülh sənədi fonunda konstitusiyada və rəsmi leksikonda Azərbaycana qarşı ərazi iddialarını xatırladan hər bir ifadə Ermənistan üçün diplomatik çıxılmaz yol deməkdir. Hakimiyyət nümayəndələrinin bu cür kəskin reaksiyaları həm də daxili auditoriyanı revanşist xülyalardan uzaqlaşdırmaq və onları real coğrafi sərhədlərlə barışdırmaq məqsədi daşıyır. Simonyanın jurnalistə ünvanladığı "belə bir subyekt yoxdur" mesajı, əslində, separatizmin rəsmi İrəvan tərəfindən də dəfn olunmasının etirafıdır. Bu proses regionda dayanıqlı sülhün bərqərar olması üçün mühüm psixoloji və siyasi zəmin yaradır".

Deputat diqqətə çatdırıb ki, Paşinyan administrasiyası artıq dərk edir ki, qonşu ölkələrə, o cümlədən Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları Ermənistanın bir dövlət kimi gələcəyini iflic edir. Bu səbəbdən Ağrı dağının təsvirlərinin rəsmi sənədlərdən çıxarılması ilə başlayan proses, indi daha fundamental müstəviyə - konstitusiya islahatlarına keçib. Paşinyan və Simonyan açıq şəkildə bəyan edirlər ki, ölkənin ana qanunu müasir reallıqlara uyğunlaşdırılmalıdır. Bu, faktiki olaraq Ermənistanın Müstəqillik Bəyannaməsində yer alan və Azərbaycanın ərazi bütövlüyünü hədəf alan bəndlərin hüquqi mətndən təmizlənməsi deməkdir. "Paşinyan komandası gözlənilən seçki kampaniyasından sadəcə hakimiyyəti qorumaq üçün deyil, həm də bu ağrılı konstitusiya dəyişikliklərini xalqın iradəsi ilə legitimləşdirmək üçün istifadə edir. "Müharibəyə yox" və "Real Ermənistan" şüarları ilə seçkiyə gedən iqtidar cəmiyyətə seçim imkanı təqdim edir. Ya xəyali iddialarla daimi münaqişə, ya da beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində sülh və əməkdaşlıq", - deyə o əlavə edib.

K.Bayramov qeyd edib ki, Ermənistan rəhbərliyinin bu "realizm" kursu regionda yeni bir eranın, qarşılıqlı tanınma və suverenliyə hörmət dövrünün başlanğıcı ola bilər. Lakin bu addımların sadəcə vaxt qazanmaq taktikası deyil, səmimi bir siyasi iradə olub-olmadığını qarşıdakı seçki prosesi və konstitusiya referendumu tam şəkildə ortaya qoyacaq. Azərbaycan üçün isə əsas hədəf dəyişməz qalır. Regionda davamlı təhlükəsizliyin bərpası və beynəlxalq hüququn norma və prinsiplərinin qəti təntənəsi Azərbaycanın xarici siyasətində dəyişməz prioritet olaraq qalmaqdadır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Türk dövlətlərinin siyasi və iqtisadi əməkdaşlığının inkişafı:* Bakı görüşü yeni mərhələnin başlanğıcına yol açır

"Türk dünyasında inteqrasiya prosesləri son illər dinamik xarakter alaraq keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Türk Dövlətləri Təşkilatının (TDT) institusional əsaslarının möhkəmləndirilməsi, üzv ölkələr arasında qarşılıqlı etimadın artması və ortaq strateji baxışın formalaşması bu prosesin əsas hərəkətverici qüvvələri kimi çıxış edir".

Bunu AZƏRTAC-a açıqlaması zamanı türkiyəli siyasi ekspert Cafer Dal bildirib. Onun sözlərinə görə, türk dövlətlərinin vahid siyasi platformadan çıxış etməsi onların qlobal proseslərə təsir imkanlarını artırır və regional təhlükəsizlik mühitinin sabitliyinə müsbət təsir göstərir.

"İqtisadi əməkdaşlıq isə bu inteqrasiya prosesinin əsas sütunlarından biri kimi, ön plana çıxır. Üzv ölkələr arasında ticarət dövriyyəsinin artırılması, sərmayə qoyuluşlarının təşviqi və biznes mühitinin liberallaşdırılması istiqamətində atılan addımlar artıq konkret nəticələr verməkdədir. Xüsusilə kiçik və orta sahibkarlığın inkişafı, sənaye kooperasiyasının genişləndirilməsi və aqrar sektor üzrə əməkdaşlıq imkanlarının artırılması iqtisadi inteqrasiyanı daha da dərinləşdirir. Bu baxımdan, Bakıda keçirilən TDT-yə üzv dövlətlərin hökumət başçılarının/vitse-prezidentinin ikinci görüşü xüsusi əhəmiyyət daşıyır. Azərbaycan paytaxtı artıq Türk dünyasının strateji qərarlarının qəbul edildiyi mühüm mərkəzlərdən birinə çevrilib. Görüş çərçivəsində aparılan müzakirələr siyasi koordinasiyanın gücləndirilməsi ilə yanaşı, iqtisadi əməkdaşlığın konkret mexanizmlərinin müəyyənləşdirilməsinə xidmət edir. Bakı görüşündə nəqliyyat və logistika sahəsi xüsusi diqqət mərkəzindədir. Orta dəhlizin inkişafı, tranzit potensialının artırılması və infrastruktur layihələrinin əlaqələndirilməsi



məsələləri türk dövlətlərinin uzunmüddətli strateji maraqları baxımından prioritet istiqamətlərdən biridir. Bu marşrutun səmərəli fəaliyyəti Asiya ilə Avropa arasında yükdaşımaların daha sürətli və təhlükəsiz həyata keçirilməsinə imkan yaradır. Enerji sahəsində əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir", - deyə ekspert əlavə edib.

Cafer Dalın sözlərinə görə, rəqəmsal transformasiya və innovasiya sahələri də Bakı görüşünün əsas müzakirə mövzuları sırasındadır: "Rəqəmsal iqtisadiyyatın inkişafı, elektron xidmətlərin genişləndirilməsi və texnologiya sahəsində əməkdaşlıq türk dövlətlərinin qlobal rəqabət qabiliyyətini artıracaq əsas amillərdən biridir. Bu istiqamətdə ortaq platformaların yaradılması və təcrübə mübadiləsinin aparılması xüsusi əhəmiyyət daşıyır. Bununla yanaşı, humanitar və təhsil sahəsində əməkdaşlıq da inteqrasiyanın vacib komponenti kimi qiymətləndirilir. Tələbə mübadiləsi proqramları, ortaq elmi-tədqiqat layihələri və mədəni əlaqələrin genişləndirilməsi türk dünyasında ortaq identikliyin daha da möhkəmlənməsinə xidmət edir".

Türkiyəli ekspert əlavə edir ki, TDT çərçivəsində iqtisadi inteqrasiyanın dərinləşdirilməsi üçün institusional mexanizmlərin təkmilləşdirilməsi vacibdir. Gömrük prosedurlarının sadələşdirilməsi, vahid rəqəmsal ticarət platformalarının yaradılması, eləcə də sərmayələrin qarşılıqlı qorunması üzrə sazişlərin genişləndirilməsi bu prosesə mühüm töhfə verə bilər. Eyni zamanda ortaq investisiya fondlarının yaradılması və iri infrastruktur layihələrinin maliyyələşdirilməsi gələcək inkişaf üçün möhkəm zəmin yaradır.

Cafer Dalın fikrincə, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi davamlı və sistemli xarakter alır: "Bakı görüşü isə bu prosesin növbəti mühüm mərhələsi olmaqla yanaşı, türk dünyasının gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından strateji platforma rolunu oynayır. Bu görüş bir daha göstərir ki, türk dövlətləri ortaq maraqlar və qarşılıqlı fayda prinsipləri əsasında daha sıx inteqrasiyaya doğru inamla irəliləyir".

# Azərbaycan və Gürcüstan Vəkillər Kollegiyaları arasında əməkdaşlıq memorandumu imzalanıb



Gürcüstan Vəkillər Kollegiyasının (GVK) sədri İrakli Kandaşvili Azərbaycanda rəsmi səfərdə olub.

Vəkillər Kollegiyasından AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan və Gürcüstan Vəkillər Kollegiyaları arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənəd peşəkar təcrübə, metodiki tövsiyələr, vəkillik sahəsində məlumat mübadiləsi, tərəflər arasında birgə konfransların, seminarların, praktiki məşğələlərin, işçi görüşlərin təşkili və keçirilməsi, həmçinin digər mümkün diskussiya meydançalarında vəkillik məsələlərinin müzakirəsini nəzərdə tutur.

Səfərin ilk günündə baş prokuror Kamran Əliyev İrakli Kandaşvilini qəbul edib. Görüşdə dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin dinamik inkişafı xüsusi vurğulanıb. Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında, o cümlədən hüquq və qanunvericilik sistemində həyata keçirilən islahatlar və tətbiq edilən yeni hüquq institutları barədə fikir mübadiləsi aparılıb.

Sonra GVK-nın sədri Azərbaycan Respublikasının Ali Məhkəməsində olub. Qonağı salamlayan Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov Azərbaycan və Gürcüstan arasında bütün istiqamətlərdə olduğu kimi, hüquqi sahədə də əməkdaşlığın yüksək səviyyəyə çatdığını bildirib. Görüş zamanı iki ölkə arasında hüquqi əməkdaşlığın inkişaf perspektivləri, vəkillik institutunun rolu, məhkəmə-hüquq sahəsində qarşılıqlı təcrübə mübadiləsi və digər məsələlər müzakirə olunub.

Vəkillər Kollegiyasının (VK) Rəyasət Heyətinin sədri Anar Bağırov və İrakli Kandaşvili ilə baş tutan görüş zamanı Azərbaycan və Gürcüstan xalqları arasında mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinin əhəmiyyəti vurğulanıb. Sədr çıxışı zamanı son illər kollegiya tərəfindən həyata keçirilən fəaliyyət, vəkillik institutunun inkişafı istiqamətində görülən işlər, ardıcıl və sistemli islahatlar barədə ətraflı məlumat verib.

VK-nın beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini qeyd edən sədr xarici hüquq təşkilatları ilə qurulan səmərəli əməkdaşlıq münasibətlərindən bəhs edib. Eyni zamanda Anar Bağırov kollegiya ilə yerli hüquq-mühafizə orqanları və məhkəmə sistemi arasında səmərəli əməkdaşlığın mövcud vəziyyətindən, vəkilliyə qəbul prosedurlarından, elektron xidmətlərin tətbiqindən, eləcə də gənc hüquqşünaslara göstərilən dəstək mexanizmlərindən danışıb.

Görüşdə kollegiyanın Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Gözəl Hüseynzadə qurumun son illərdəki fəaliyyəti, görülən işlərin vəkillərin sayının artımına və cəmiyyətdə peşənin nüfuzunun yüksəlməsinə birbaşa müsbət təsiri haqqında ətraflı hesabat təqdim edib. Həmçinin VK Aparatının Maliyyə və təchizat şöbəsinin müdiri Fərhad Fərəcov kollegiyada tətbiq olunan order markası sistemi barədə təqdimatla çıxış edib. Təqdimat zamanı sistemin mahiyyəti, tətbiq mexanizmi və hüquqi yardım prosesində şəffaflığın, hesabatlılığın və nəzarət imkanlarının artırılmasında rolu ətraflı şəkildə izah olunub.

İrakli Kandaşvili GVK ilə VK arasında formalaşmış əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib, kollegiyanın son illərdə əldə etdiyi nailiyyətləri xüsusi vurğulayıb. GVK-nın sədri qismində ilk rəsmi xarici səfərini Azərbaycana etdiyini bildirən İrakli Kandaşvili ölkəmizin hüquq sistemi ilə yaxından tanış olduğunu qeyd edib. Qonaq vəkillik institutu, hüquq-mühafizə orqanları və məhkəmə sistemi arasında əlaqələrin yüksək səviyyədə qurulduğunu dilə gətirərək, bu təcrübənin qarşılıqlı əməkdaşlığın daha da möhkəmləndirilməsi və inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını söyləyib. Görüşün davamında tərəflər arasında fikir mübadiləsi aparılıb, bir sıra maraq doğuran məsələlər, o cümlədən gələcək əməkdaşlıq perspektivləri geniş müzakirə edilib.

İrakli Kandaşvili bildirib ki, bu cür əməkdaşlıq hüquqi yardım, təlim, intizam və ixtisas sahələrində təcrübə mübadiləsinin genişlənməsinə, vəkillərin peşəkar inkişafına və beynəlxalq hüquqi əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfə verəcək. Həmçinin İrakli Kandaşvili səfər zamanı "Kamandar Nəsibov və Partnyorları" Vəkil Bürosunun inzibati binası ilə tanış olub. Nəzərə çatdırıb ki, hazırda büroda 100-dən artıq ölkədən vəkil cübbələri (mantiyaları) toplanıb, VK-nın dəstəyi ilə dünyada ilk dəfə "Dünya vəkil cübbələri və atributları" sərgisi keçirilib və muzeyi yaradılıb.

Bundan əlavə, qonaq Azərbaycan Milli Xalça Muzeyini ziyarət edib, burada xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında ətraflı məlumat diqqətə çatdırılıb.

Eyni zamanda İrakli Kandaşvili ADA Universitetində qonaq olub. Universitetdə sədr Azərbaycanın hüquq tələbələri üçün "Effektiv və keyfiyyətli məhkəmə sistemində vəkilin rolu" mövzusunda mühazirə ilə çıxış edib.

# Cenevrədə Azərbaycanın rəqəmsal mühitdə insan hüquqlarının müdafiəsi təcrübəsi təqdim olunub

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının (GANHRI) illik konfransı çərçivəsində "Rəqəmsal məkanda insan hüquqlarının müdafiəsi və təşviqində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilmiş tədbirdə iştirak edib.




AZƏRTAC xəbər verir ki, alyansa üzv ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarının rəhbər və nümayəndələrinin də iştirak etdiyi tədbirdə çıxış edən Səbinə Əliyeva ölkəmizdə rəqəmsallaşma proseslərinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

O, Azərbaycanın Ombudsman təsisatının rəqəmsal məkanda insan hüquqlarının qorunmasına xüsusi əhəmiyyət verdiyini bildirib, 2025-ci il üzrə illik məruzəsində insan hüquqlarının rəqəmsal mühitdə daha səmərəli müdafiəsinin təmini məqsədilə bir sıra mühüm təkliflərin irəli sürüldüyünü qeyd edib.

❖ ❖ ❖

Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının Cenevrədə keçirilən illik iclası çərçivəsində S.Əliyevanın təşəbbüsü ilə "Rəqəmsal dövrdə uşaq hüquqlarının müdafiəsi: Azərbaycan Milli İnsan Hüquqları Təsisatının praktik yanaşmaları" mövzusunda tədbir təşkil olunub.

Türkiyə, Özbəkistan, Qırğızıstan, Bosniya və Herseqovina, Filippin, Tailand, İtaliya, Gürcüstan, Pakistan, Slovakiya, Maldiv və digər ölkələrin milli insan hüquqları təsisatlarının və Cenevrədəki diplomatik nümayəndəliklərin də iştirak etdiyi tədbirdə çıxışı zamanı ombudsman S.Əliyeva fəaliyyətində uşaq hüquqlarının müdafiəsinin prioritet istiqamətlərdən biri olduğunu, son illərdə rəqəmsal məkanda uşaqların təhlükəsizliyi ilə bağlı məsələlərə xüsusi diqqət yetirildiyini bildirib.

Müvəkkil monitorinq fəaliyyəti çərçivəsində ölkədə uşaq hüquqlarının təmini vəziyyətinin qiymətləndirildiyini, mövcud problemlərin, o cümlədən rəqəmsal mühitlə bağlı çətinliklərin araşdırıldığını və müvafiq qurumlara tövsiyələrin verildiyini diqqətə çatdırıb.

Səbinə Əliyeva Azərbaycanın müxtəlif bölgələrində dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq çərçivəsində uşaqlar üçün internetdən təhlükəsiz istifadə və rəqəmsal mühitdə mövcud risklərlə bağlı bir sıra maarifləndirici tədbirlərin təşkil edildiyini bildirib. O, həmçinin uşaq hüquqları sahəsində beynəlxalq təşkilatlar və digər ölkələrin milli insan hüquqları təsisatları ilə fəal əməkdaşlıq əlaqələrinin mövcud olduğunu, Avropa Uşaq Ombudsmanları Şəbəkəsi çərçivəsində müntəzəm təcrübə mübadiləsinin aparıldığını qeyd edib.

Sonra Bosniya və Herseqovinanın ombudsmanı Jasminka Dzhumhur çıxış edərək Azərbaycanda müzakirə olunan mövzunun aktuallığı, bu sahədə mövcud beynəlxalq təcrübə və təmsil etdiyi ölkədə uşaq hüquqlarının müdafiəsi sahəsində əldə olunan nailiyyətlər barədə tədbir iştirakçılarına məlumat verib.

Daha sonra Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsinin (ENNHRI) baş katibi Debbi Kohner və Slovakiya ombudsmanı Robert Dobrovodski çıxış edərək rəqəmsal mühitdə uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən fəaliyyətlərdə milli insan hüquqları institutlarının rolu və tətbiq olunan praktiki yanaşmalar barədə iştirakçıları məlumatlandırıblar.

Tədbir zamanı Ombudsman Aparatının Beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şöbəsinin müdir müavini Nuriyyə Məmmədova "Rəqəmsal mühitdə uşaq hüquqlarının qorunmasında Azərbaycan təcrübəsi və praktik yanaşmalar" mövzusunda təqdimatla çıxış edib, müvafiq sahədə Azərbaycan ombudsmanının əldə etdiyi müsbət təcrübələr barədə məlumat verib.

Tədbirdə həmçinin Ombudsman Aparatı tərəfindən hazırlanmış uşaqların rəqəmsal mühitdə qorunmasına dair maarifləndirici videoçarx nümayiş etdirilib, mövzu üzrə geniş fikir mübadiləsi aparılıb və iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.




# Kəlbəcərə növbəti köç: Daha 27 ailə doğma yurduna qovuşub









Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı davam edir. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı aprelin 2-də Kəlbəcər şəhərinə çatıb.

İllərlə məcburi köçkün həyatı yaşayan kəlbəcərlilər üçün bu gün həm kədərli xatirələrin silindiyi, həm də böyük qürurun yaşandığı andır. İşğaldan azad olunan və yenidən qurulan Kəlbəcər şəhərinə aprelin 2-də "Böyük qayıdış" proqramı çərçivəsində sayca 6-cı köç reallaşıb. Bu mərhələdə Kəlbəcər şəhərinə 27 ailə - 113 nəfər köçürülüb. Bu köçün məhz aprelin 2-nə təsadüf etməsi rəmzi məna daşıyır. Onilliklər boyu kəlbəcərlilərin yaddaşında ağrı və ayrılıq günü kimi qalan bu tarix artıq dövlətimizin qüdrəti sayəsində dirçəliş və doğma yurda qovuşma günü kimi yenidən yazılır. 33 il əvvəl məhz bu gün yurdlarından didərgin düşən sakinlər, indi elə həmin təqvim günündə Kəlbəcərə sevinc və qürur hissilə qayıdırlar.

AZƏRTAC xəbər verir ki, Kəlbəcər şəhərinin I yaşayış məhəlləsinə sakinlərin köçürülməsi ilə bağlı təşkil olunan mərasimdə Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər. Mərasimdə çıxış edənlər köç edən sakinləri təbrik edib, onlara doğma yurdlarında xoşbəxt həyat arzulayıblar.

Sonra ailə başçılarına mənzillərin açarları təqdim olunub. Ailələr sevinc hissilə yeni mənzillərində yerləşiblər. Həmin mənzillər fasiləsiz su, elektrik enerjisi, istilik və yüksəksürətli internetlə təmin edilib. Bununla da şəhərin I yaşayış məhəlləsində birinci mərhələ üzrə ümumilikdə 162 ailənin (680 nəfər) qayıdışı təmin olunub.

Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Kəlbəcər sakinləri həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə edib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Fermerlərin işini asanlaşdıran qabaqcıl texnologiyadır

Bu gün dünyanın qlobal problemlərindən biri 8,5 milyard nəfəri ərzaqla təmin etməkdir. Bu problem bir çox səbəbdən qaynaqlanır. Əvvəla, son dövrlər əhalinin sayı sürətlə artır. İkinci səbəb insanlar tərəfindən torpağın nizamsız istismarı və nəticədə onun məhsuldarlığının azalmasıdır. Üçüncü amil isə insanların təbiətə kobud müdaxiləsi üzündən yaranan qlobal iqlim dəyişikliyidir ki, bundan da ən çox ziyan çəkən sahə kənd təsərrüfatıdır.

Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, dünyada 850 milyon adam aclıq həddində yaşayır. Onların 450 milyon nəfəri isə aclıq çəkir. Yəni ən yaxşı halda minimum səviyyədə ərzaqla qidalanmağa məhkumdur. Bunun qarşısını almaq üçün BMT tərəfindən bir çox proqramlar icra edilir. Həmin proqramların əsas hədəfi isə aqrar sektorda məhsul istehsalını artırmaqla əhalinin yaxşı qidalanmasına nail olmaqdır.

Hazırda dövlətlər üçün öz ərzaq təhlükəsizliyini təmin etmək ümdə məsələyə çevrilib. Son dövrlər baş verən hadisələr bir daha göstərdi ki, hər bir dövlət əhalinin ərzaqla təminatına ciddi yanaşmalıdır. Rusiya-Ukrayna müharibəsinin iki ölkə arasında konfliktdən çıxaraq dünyada ciddi ərzaq böhranı yaratması göstərdi ki, siyasi qarşıdurmalar sonda insanların aclıqla sınağa çəkilməsinə səbəb olur. Bu səbəbdən Prezident İlham Əliyevin həyata keçirdiyi aqrar islahatların əsas hədəfinin ölkənin ərzaq təhlükəsizliyinin etibarlı təmin edilməsinə yönəlməsi yalnız alqışlanmalıdır.

Məlumdur ki, aqrar sektorun inkişafında suvarma ən mühüm şərtlərdən biridir. Azərbaycan su qıtlığı yaşayan ölkələr sırasında olduğu üçün ölkəmizdə nəhəng su anbarları yaradılıb. Bunun sayəsində əkin sahələrinin suvarılmasında əvvəlki illərdə olan gərginlik xeyli azalıb, lakin tam həll olunmayıb. Hazırda müxtəlif regionlarda kiçik və orta tutumu olan anbarlar tikilir. Bundan əlavə, suvarmanı yaxşılaşdırmaq məqsədilə yararsız su kollektorları və kanallar bərpa olunur, yeniləri çəkilir.

Suvarmada olan digər problem hələ də bir çox əkin sahələrinin köhnə qayda ilə suvarılmasıdır. Bununla isə yüksək məhsuldarlığa nail olmaq mümkün deyil. Artıq dünyanın inkişaf etmiş ölkələri damcılama üsulundan istifadə edir. Bu, köhnə qaydadan fərqli olaraq, su itkisini aradan qaldırmaqla yüksək məhsuldarlığa nail olmağa imkan verir.

Hazırda ölkəmizdə damcılama üsulundan istifadəyə ciddi fikir verilir. Xüsusən aqroparklar və iri fermer təsərrüfatları həmin üsuldan geniş istifadə edirlər. Bunun səmərəsini sübut edən bir fakta diqqət çəkək. Damcılama üsulundan istifadə etməyən təsərrüfatlarda taxılçılıqda məhsuldarlıq 32 sentner olduğu halda, ondan istifadə edən aqroparklar və iri fermer təsərrüfatlarında həmin rəqəm 60 sentner və daha yüksək olur.

Hazırda dünyada aqrar sektorda az torpaq sahəsindən istifadə etməklə yüksək məhsul almağa çalışırlar və bu məqsədə nail olmaq üçün aqrar elmin son nailiyyətərindən faydalanırlar. Ölkəmizdə də bu istiqamətdə müəyyən işlər görülür. Xüsusən beynəlxalq təcrübədən öyrənməyə xüsusi fikir verilir. Bunun üçün müxtəlif tədbirlər keçirilərək aqrar sektorda çalışanların bilik səviyyələri artırılır, nümunəvi təsərrüfatlarda fermerlər arasında təcrübə mübadiləsi aparılır.

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi və məhsul bolluğunun yaradılması istiqamətində aparılan islahatlar sayəsində müəyyən uğurlar əldə olunub. Bunu ölkəmizdən qeyri-neft-qaz sektoruna aid məhsulların ixracında açıq görmək mümkündür. Belə ki, bu sektor üzrə ixracda kənd təsərrüfatı məhsullarının çəkisi kifayət qədər yüksəkdir.

Lakin ölkədə aqrar sektorda iki sahə üzrə müəyyən problemlər var. Onlardan biri taxılçılıqda istehsalı artırmaq üçün işğaldan azad olunan ərazilərin əkin dövriyyəsinə daxil edilməsidir. Heyvandarlıqda isə məhsul istehsalını artırmaq üçün iri heyvandarlıq komplekslərinin yaradılmasına ehtiyac var. Prezident İlham Əliyevin martın 23-də Şamaxı rayonunda "Şirvan Aqro" heyvandarlıq kompleksinin açılışında iştirak etməsi də dövlətin bu sahəyə göstərdiyi diqqətin nümunəsidir.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleksdə 9000 baş heyvanın - 3200 baş südlük, 3000 baş ətlik malqaranın və 2800 baş buzovun saxlanılmasına şərait var. Hazırda burada Holşteyn-Friz, Limuzin, Aberdin-Anqus və digər cinslərdən heyvanlar saxlanılır.

Ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələrilə idarə olunan bu kompleks Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq müəssisələrindən biridir.

Müəssisədə Azərbaycanın və Cənubi Qafqazın ən böyük "Karusel" tipli süd sağımı, həmçinin "Paralel" sağım sistemləri yaradılıb. Hər bir sağım nöqtəsində süd keyfiyyətinin onlayn analizatoru quraşdırılıb. Ölkədə südün 32 dərəcədən 4 dərəcəyədək sürətli soyudulması üçün qabaqcıl sistem, həmçinin dünyadakı ən son genetik materiallar əsasında fəaliyyət göstərən, süd həcminin artırılmasını təmin edən ilk Reproduksiya Mərkəzi yaradılıb. Kompleksdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün dünyanın qabaqcıl texnologiyalarının tətbiqini öyrədəcək Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

Göründüyü kimi, ölkəmizdə ərzaq təhlükəsizliyini təmin etmək üçün tədbirlər görülür və həmin tədbirlərə ən yüksək səviyyədə olan münasibətə əsasən deyə bilərik ki, onlar indidən sonra da davamlı olacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Təhlükəsizliyin və sabitliyin Azərbaycan nümunəsi

Azərbaycan Respublikası həssas və mürəkkəb geosiyasi məkanda yerləşməsinə baxmayaraq, uğurlu təhlükəsizlik siyasəti sayəsində dünyada çox yüksək sabitlik reytinqinə malikdir. Prezident İlham Əliyevin dediyi kimi, təhlükəsizlik, sabitlik məsələləri hər hansı bir ölkənin gündəliyində heç vaxt olmadığı qədər birnömrəli məsələ kimi qalmalıdır. Çünki bu olmadan bütün başqa səylər mənasızdır.

"Global Terrorism Index 2026" (GTI) hesabatı ilə dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralanması təqdim edilib. Hesabatda Azərbaycan daha da irəliləyərək dünyanın ən təhlükəsiz ölkələri sırasında yer alıb. Belə ki, ötən il terror təhlükəsi üzrə "0.233" indekslə 90-cı pillədə qərarlaşan ölkəmiz 2026-cı ildə üç pillə yüksələrək "0.123" indekslə 93-cü yerə yüksəlib. Bu göstərici Azərbaycanın terror təhlükəsi baxımından qlobal miqyasda ən təhlükəsiz ölkələrdən biri olduğunu bir daha təsdiqləyir.

Bu reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

Bu reytinq dövlətimizin həyata keçirdiyi təhlükəsizlik və sabitlik siyasətinin, hüquq-mühafizə orqanlarının peşəkar fəaliyyətinin real göstəricisidir. Xüsusilə nəzərə almaq lazımdır ki, Azərbaycan kifayət qədər mürəkkəb geosiyasi bölgədə yerləşir. Regionda illərlə davam edən münaqişələr, sərhəd təhlükələri, radikal qruplaşmaların müxtəlif coğrafiyalarda fəallaşması fonunda ölkəmizdə sabitliyin qorunması heç də sadə məsələ deyil.

Qeyd edək ki, inkişaf etmiş dövlətlər belə, terror təhlükəsi baxımından Azərbaycandan geridədirlər. Bu, sözsüz ki, Azərbaycanın təhlükəsizlik siyasətinin effektivliyini daha aydın şəkildə ortaya qoyur. Eyni zamanda görünən odur ki, ölkəmiz Cənubi Qafqaz regionunda təhlükəsizlik baxımından da liderdir. Bu həm də mövcud ictimai-siyasi sabitlikdən xəbər verir.

Digər mühüm məqam isə Vətən müharibəsində Zəfər və sonrakı antiterror tədbirləri ilə bağlıdır. Azərbaycanın öz suverenliyini tam təmin etməsi, bölgədə qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsi, dövlət nəzarətinin bütün ərazilərdə bərpa olunması ölkəmizdə təhlükəsizlik mühitinin daha da möhkəmlənməsinə ciddi töhfə verib. Bütün bu faktorlar da reytinqdə yüksəlişin əsas səbəblərindən biri kimi qiymətləndirilir.

Bu gün dünyanın müxtəlif regionlarında müharibələr, silahlı toqquşmalar, terror təhdidləri və qeyri-sabitlik ocaqları genişlənməkdədir. Belə bir vəziyyətdə Azərbaycanın sabitlik adası kimi seçilməsi dövlətimizin böyük uğurudur. "Global Terrorism Index 2026" hesabatı isə bu uğurun beynəlxalq səviyyədə təsdiqidir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Bakının diktəsi, İrəvanın etirafları

## Azərbaycanın hərbi-diplomatik qələbəsi
## Ermənistanı reallıqla barışmağa və sülhə sövq edir

Ermənistan mürəkkəb və taleyüklü seçim dövrünü yaşayır. Uzun illər mifik ideyalarla, qondarma "böyük Ermənistan" xülyası ilə təcavüzkar siyasət yürüdən cinayətkar hökumətlər erməni toplumunu fəlakətə və səfalətə düçar ediblər. Hakimiyyətinin ilkin dövründə Nikol Paşinyan və komanda üzvləri də eyni işğalçı mövqeni sərgiləyir, ona uyğun hərəkət edirdilər. Lakin 44 günlük Vətən müharibəsinin və antiterror tədbirlərinin yaratdığı geosiyasi reallıqlar fonunda Paşinyan hökuməti Bakının diktəsinə uyğun davranmaq məcburiyyətində qaldı. Regionda güclər balansı Azərbaycanın xeyrinə köklü şəkildə dəyişdi. Ermənistan hökuməti onilliklər boyu arxalandığı xarici təhlükəsizlik zəmanətlərinin artıq işləmədiyini əyani surətdə gördü. İrəvan anladı ki, qonşularına qarşı ərazi iddialarını hüquqi sənədlərində saxladıqca, özünü hərbi və siyasi zərbələr üçün hədəf halına gətirir.



Hazırda rəsmi İrəvanın mərhələli şəkildə icra etdiyi, hətta beynəlxalq platformalarda ağızdolusu danışdığı sülh gündəliyinin də təşəbbüskarı, prosesi praktiki irəliyə daşıyan da məhz Azərbaycandır. Mövcud reallıqlar artıq Ermənistanın hazırkı siyasi rəhbərliyinin, hökumət nümayəndələrinin dilindən də açıq etiraf olunur. Parlament sədri Alen Simonyanın çıxışları da əvvəlki yanlışlıqların bəyanı və Ermənistanın xəyallarla reallıqlar, keçmişin yükü ilə gələcəyin sağ qalma strategiyası arasındakı çırpınışıdır. Məlum olduğu kimi, baş nazir Nikol Paşinyandan sonra A.Simonyan da qondarma "Artsax" məsələsinin gündəmdən birdəfəlik çıxarıldığını xatırladıb. Spiker jurnalistin sualına cavabında "Niyə Qarabağa "Artsax" deyirsiniz, başa düşmək istəyirəm, bəs niyə Ermənistanın bəzi ərazilərinə Azərbaycan adları veriləndə özünüzü pis hiss edirsiniz?" - deyib. Simonyan vaxtilə özünün də "Artsax" sözünü işlətdiyini xatırladan media nümayəndəsinə "səhv etmişəm" deyə qarşılıq verib. O, 2018-ci ildə, o zaman işğal altında olan Ağdamda foto çəkdirməsini də kobud xəta adlandırıb.

Parlament sədri Ermənisanın hazırkı konstitusiyasının dəyişdirilməsinin vacibliyindən də bəhs edib. Onun sözlərinə görə, konstitusiyaya nəzərdə tutulan dəyişikliklər Azərbaycanın yox, məhz Ermənistanın maraqları üçündür: "Bunlar Ermənistanın yaşaması və gələcəyi üçün vacibdir. Biz elə bir konstitusiyaya sahib olmalıyıq ki, heç kimə bizi regionda təhlükə kimi görmək üçün bəhanə verməsin". Bəllidir ki, Ermənistan konstitusiyasının istinad etdiyi Müstəqillik Bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları yer alır. Rəsmi Bakı yekun sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasında müvafiq düzəlişin olunmasını tələb edib. Bunun qarşılığında Nikol Paşinyan yeni konstitusiyada Müstəqillik Bəyannaməsinə istinad edilməyəcəyini açıqlamışdı.

Erməni rəsmilər özləri də etiraf edirlər ki, 1990-cı illərin əvvəllərində qəbul edilmiş Müstəqillik Bəyannaməsi bugünkü Ermənistanın əl-qolunu bağlayan buxova çevrilib. Paşinyan hökuməti dərk edir ki, mövcud konstitusiya dəyişmədən nə Azərbaycanla sülh mümkündür, nə də Türkiyə ilə sərhədlərin açılması. Bu isə ölkənin iqtisadi cəhətdən boğulması, təcridin davam etməsi anlamına gəlir. Dünya birliyi Ermənistanın suveren sərhədlərini tanısa da, İrəvanın başqa bir dövlətin ərazisinə iddialarını sülhə maneə kimi görür. O baxımdan, rəsmi Bakının Ermənistan konstitusiyası ilə bağlı tələbi beynəlxalq müstəvidə məntiqli və legitim şərt kimi qəbul olunur.

Erməni spiker 7 iyunda keçiriləcək parlament seçkilərinə hazırlaşan revanşist qüvvələrin cəmiyyəti yeni fəlakətlərə düçar etmək niyyətində olduğuna da diqqət çəkib. Bildirib ki, Ermənistanın siyasi mənzərəsi iki gündəmlə üz-üzədir: sülh və müharibə. Parlament sədri qonşu ölkələrə qarşı ərazi iddialarının müharibə demək olduğunu və Robert Köçəryanın rəhbərlik etdiyi radikal qüvvələrin bu gündəmdən çıxış etdiklərini vurğulayıb: "Bəli, 2026-cı il iyunun 7-də keçiriləcək seçkilər sülhlə mümkün müharibə arasında olacaq". Simonyanın açıqlamaları həm də Ermənistanın daxili və xarici siyasətində yaranmış dilemmanın açıq etirafıdır. Paşinyan hakimiyyəti hazırda cəmiyyəti iki radikal seçim qarşısında qoyur, ya mövcud kursla sülhə getmək, ya da hakimiyyət dəyişikliyi ilə yenidən müharibə riskini göz önünə almaq. Məqsəd Paşinyanı müxalifətin "müharibə gətirən rəhbər" suçlamasından qurtarmaq və cəmiyyətə "yeganə xilaskar" obrazında qəbul etdirməkdir. Baş nazirin seçkilərdə uduzacağı təqdirdə sentyabrda müharibənin başlayacağını iddia etməsi isə toplumu xunta rejimi ilə qorxutmağa hesablanıb.

İrəvanın yeni reallıqları qəbul etməsi geosiyasi çıxılmazlıqdan irəli gələn zəruri seçimdir. Paşinyan hökuməti Ermənistanı gələcək risklərdən sığortalamaq istəyir. Bunun yolu isə sərsəm ideyalardan, "dənizdən dənizə Ermənistan" utopiyasından birdəfəlik imtina etməkdir. Simonyanın etirafları da Ermənistanın siyasi ritorikasında baş verən effektli dönüşün təzahürüdür. Gecikmiş etiraflar Ermənistanın illərdir apardığı işğalçı ideoloji xəttin iflasının göstəricisidir. Paşinyan hökuməti ermənilərin beynini illüziyalardan təmizləməyə çalışır, anlayır ki, uydurma "xəritə" üzərindəki xəyallar real dövlətçiliyi itirmək təhlükəsi yaradır. Xüsusən, sülh prosesinin ən son mərhələsində, iqtisadi əməkdaşlığın və nəqliyyat kommunikasiyalarının işə düşdüyü dövrdə qondarma ifadələri təkrarlamaq təkcə söz oyunu yox, sülh prosesini məqsədli şəkildə pozmaq və sonu indidən bəlli olan təhlükəli yola girməkdir. Tarixin çarxını geri döndərmək cəhdi Ermənistanın bir dövlət kimi mövcudluğunu tamamilə sual altında qoya bilər.

Nəticə etibarilə, İrəvanın etirafları Ermənistanın ideoloji qalasının daxildən çökməsinin təzahürü, saxta tarixin reallıq qarşısında təslimiyyətidir. Bu mənada 7 iyun seçkilərinin nəticələri Ermənistanın regionda bir dövlət kimi qalıb-qalmayacağına dair son hökm olacaq. Birmənalı vurğulamaq lazımdır ki, Simonyanın və Paşinyanın sülhdən xilas yolu kimi yapışmaları heç də İrəvanın sülhsevərliyindən yox, Bakının diktə etdiyi yeni düzənin gücündən qaynaqlanır. Azərbaycanın hərbi-diplomatik qələbəsi erməni xalqının da qaranlıq keçmişdən və köçəryanlardan qurtuluşuna yol açdı.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# Azərbaycan və Çin

## Yeni tarix yaratmaq yolunda gələcəyə doğru birlikdə addımlamaq

### Çinin Azərbaycandakı səfiri iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 34-cü ildönümünə həsr olunmuş məqalə ilə çıxış edib

"Son illər ərzində Çin-Azərbaycan münasibətləri böyük və kiçik ölkələr arasında bərabərhüquqlu münasibətlərin və dostluq əməkdaşlığının modelinə çevrilib".



AZƏRTAC xəbər verir ki, bu barədə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfiri Lu Meyin iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 34-cü ildönümünə həsr olunmuş məqaləsində deyilir.

AZƏRTAC məqalənin mətnini təqdim edir.

1992-ci il aprelin 2-də Çin və Azərbaycan hökumətlərinin nümayəndələri Bakıda səfir səviyyəsində diplomatik münasibətlərin qurulması ilə bağlı Birgə Kommünike imzaladılar və bu, ölkələrimiz arasında münasibətlərdə yeni bir dövrün başlanğıcı oldu. Çinin Azərbaycandakı onuncu səfiri olaraq, diplomatik münasibətlərin qurulmasının 34-cü ildönümü münasibətilə bütün Azərbaycan xalqına, xüsusən də Çin-Azərbaycan dostluğunu dəstəkləyən və inkişaf etdirən hər sahədən olan dostlara səmimi salamlarımı və ən xoş arzularımı çatdırıram.

Dəyişən beynəlxalq vəziyyətə baxmayaraq, diplomatik münasibətlərin qurulmasından keçən 34 il ərzində Çin və Azərbaycan arasındakı münasibətlər dinamik inkişafını davam etdirərək böyük və kiçik ölkələr arasında bərabərhüquqlu münasibətlərin, dostluq və əməkdaşlığın nümunəsinə çevrilib. Xüsusilə son illərdə Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin strateji rəhbərliyi altında ölkələr hərtərəfli strateji tərəfdaşlıq quraraq ikitərəfli münasibətlərdə yeni tarixi fəsil açıblar. Fürsətdən istifadə edərək, sizinlə bir neçə mülahizəmi bölüşmək istərdim.

Birincisi, liderlik diplomatiyası Çin-Azərbaycan münasibətlərinin əsas prinsipidir. ÇXR Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyev ikitərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət verir, yaxşı işgüzar əlaqələr və dərin şəxsi dostluq münasibətləri qurub və iki ölkə arasında əməkdaşlığın inkişafına şəxsən rəhbərlik edirlər. 2003-cü ildən bəri Prezident İlham Əliyev Çinə səkkiz dəfə səfər edib, ÇXR liderləri ilə 10-dan çox görüş keçirib, Çin xalqının daimi və yaxşı dostuna çevrilib. 2024-cü ilin iyul ayında Sədr Si Cinpin və Prezident İlham Əliyev Astanada keçirilən ŞƏT Sammiti zamanı görüşərək Çin ilə Azərbaycan arasında strateji tərəfdaşlığın yaradılmasını birgə elan ediblər. 2025-ci ildə iki dövlət başçısı iki dəfə görüşərək Çin ilə Azərbaycan arasında hərtərəfli strateji tərəfdaşlığın yaradılmasını birgə elan edib və dövlətlərimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı bir sıra mühüm razılaşmalar əldə edib. Dövlət başçıları arasında əldə edilən razılaşmalara əsasən, tərəflər yüksəksəviyyəli əlaqələri davamlı olaraq gücləndirir, siyasi etimadı dərinləşdirir, əməkdaşlıq potensialını ortaya çıxarır, xalqlar arasında yaxınlaşmanı təşviq edir və Çin ilə Azərbaycan arasında hərtərəfli strateji tərəfdaşlığı yüksəkkeyfiyyətli və hərtərəfli inkişafın yeni mərhələsinə qaldırır.

İkincisi, qarşılıqlı dəstək ölkələrimiz üçün gözəl bir ənənədir. Əsas qarşılıqlı maraqlara təsir edən məsələlərdə möhkəm qarşılıqlı dəstək Çin və Azərbaycan üçün qürurverici bir ənənədir və strateji tərəfdaşların öhdəliyidir. Prezident İlham Əliyev Çin hökumətinin milli birliyə nail olmağa yönəlmiş bütün səylərini açıq şəkildə dəstəklədiyini bildirib. Azərbaycan tərəfi dəfələrlə vahid Çin prinsipinə sadiq olduğunu açıq şəkildə bəyan edib və Tayvanın müstəqilliyini müdafiə edən separatçı qüvvələri qınayıb. Çin tərəfi Azərbaycanı onun milli şəraitinə uyğun inkişaf yolu ilə getmək, eləcə də əsas maraqlarını qorumaq, suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək səylərində qətiyyətlə dəstəkləməyə davam edəcək. İkitərəfli münasibətlərin davamlı inkişafı ortaq konsepsiyaların və konsensusun möhkəm təməli olmadan mümkün deyil. Prezident İlham Əliyev Çin konsepsiyasını tam şəkildə bölüşür və bəşəriyyət üçün ortaq gələcəyi olan bir icma qurmaq konsepsiyasının və ÇXR Sədri Si Cinpinin irəli sürdüyü dörd qlobal təşəbbüsün dünyada sülhə, sabitliyə və rifaha töhfə verdiyini, Azərbaycan tərəfinin onları yüksək qiymətləndirdiyini və fəal şəkildə dəstəklədiyini açıq şəkildə bildirib. Qlobal Cənubun üzvləri olan Çin və Azərbaycan dünyada çoxqütblülüyü təşviq etmək və birtərəfli zorakılığa qarşı çıxmaq kimi ortaq missiyanı bölüşür. Tərəflər BMT, ŞƏT və AQEM kimi çoxtərəfli platformalar çərçivəsində səmərəli əməkdaşlıq edir, davamlı inkişaf, iqlim dəyişikliyi və insan hüquqları da daxil olmaqla qlobal idarəetmə məsələlərində bir-birini davamlı olaraq dəstəkləyir, həqiqi çoxtərəfliliyi birgə tətbiq edir və beynəlxalq bərabərlik və ədaləti dəstəkləyir.

Üçüncüsü, praktik əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafının təməlini qoyur. Çin və Azərbaycanın iqtisadi strukturları bir-birini tamamlayır və onların əməkdaşlıq konsepsiyaları da uyğundur. Hər iki ölkə Çinin yüksəkkeyfiyyətli istehsal gücünün Azərbaycanın inkişaf ehtiyacları ilə uyğunlaşdırılmasına imkan verən "Bir kəmər, bir yol" təşəbbüsünün yüksək keyfiyyətlə birgə tikintisinə diqqət yetirərək, həmçinin hərtərəfli praktik əməkdaşlığı dərinləşdirir. Diplomatik münasibətlər qurulduğu zaman 1 milyon dollardan bir qədər çox olan ikitərəfli ticarət həcmi 2025-ci ildə 4,87 milyard dollara qədər artıb. Çin Azərbaycanın ən böyük idxal mənbəyinə və üçüncü ən böyük ticarət tərəfdaşına çevrilib. Tərəflər kommunikasiya, "yaşıl enerji", yüksəktexnologiyalı istehsal və informasiya-kommunikasiya texnologiyaları kimi sahələrdə əməkdaşlığı fəal şəkildə inkişaf etdirir. Azərbaycandan keçən beynəlxalq Çin-Avropa yük marşrutlarının bir hissəsi olan Trans-Xəzər qatarları qlobal istehsal və təchizat zəncirlərinin sabitliyinin təmin edilməsində mühüm rol oynayır. Çin şirkətləri Azərbaycan əhalisinin 70 faizini simsiz şəbəkə bağlantısı ilə təmin edir. Çin, həmçinin Cənubi Qafqazda ən böyük fotovoltaik və külək enerjisi, keramika plitələr və elektrik avtobusları istehsalı layihələrini həyata keçirib. Qeyd etmək lazımdır ki, Azərbaycan Çinin altı şəhərində Ticarət Evi açıb, getdikcə daha yüksəkkeyfiyyətli olan "Made in Azerbaijan" brendinin məhsulları Çin bazarına daxil olur və istehlakçılar arasında geniş populyarlıq qazanır.

Dördüncüsü, mədəni və humanitar mübadilələr iki ölkə xalqlarını bir-birinə daha da yaxınlaşdıran mühüm bir əlaqədir. İpək yolunun tarixində kök salmış və hər iki ölkə xalqlarının qəlbində möhkəm yer tutan qarşılıqlı anlaşma və hörmət Çin-Azərbaycan münasibətlərinin canlı qalmasına imkan verir. Hazırda iki xalqın bir-birinə və bir-birinin mədəniyyətlərini araşdırmağa marağı görünməmiş səviyyəyə çatıb. Azərbaycanda "Çin aludəçiliyi" və "Çin dilini öyrənmək bumu" sürətlə artmaqda davam edir: Çin dilini öyrənən qeydiyyatdan keçmiş tələbələrin sayı 8 mini keçib. Pekin Universiteti, Sinxua Universiteti və Çin Sosial Elmlər Akademiyası kimi Çin universitetləri və beyin mərkəzləri Azərbaycanla bağlı tədqiqatlarla fəal şəkildə məşğul olur, habelə Pekin Xarici Dillər Universitetində 2015-ci ildə "Azərbaycan dili" ixtisası yaradılıb.

Azərbaycan özünəməxsus cazibəsi, ənənə və müasirliyin, eləcə də Şərq və Qərb mədəniyyətlərinin sintezi ilə getdikcə daha çox çinli turisti cəlb edir. Vizasız rejim sayəsində 2025-ci ildə 60 mindən çox Çin vətəndaşı Azərbaycana səfər edərək tarixi rekord qırıb. İki ölkə arasında elm və texnologiya, mədəniyyət, gənclər və yerli səviyyədə əlaqələr getdikcə daha da yaxınlaşır ki, bu da resursların birləşdirilməsi və ikitərəfli münasibətlərin inkişafına ictimai dəstəyin gücləndirilməsinə imkan verir. Azərbaycana gəlişimdən sonrakı bir il ərzində müxtəlif dairələrin nümayəndələri ilə geniş mübadilələr apardım və ölkənin bir çox bölgələrini ziyarət etdim. Bu, Çin ilə Azərbaycan arasındakı dostluğun nəsildən-nəslə ötürüldüyü və zamanla daha da möhkəmləndiyini tam şəkildə qiymətləndirməyə imkan verdi. Azərbaycan xalqının Ümummilli Lideri Prezident Heydər Əliyev Çinlə münasibətlərin inkişafını xarici siyasət prioriteti kimi görürdü və Çin-Azərbaycan münasibətlərinin uzunmüddətli, sağlam və sabit inkişafı üçün möhkəm təməl qoyurdu. Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Liderinin başlatdığı Çin ilə dostluq siyasətini hərtərəfli miras alıb və daha da inkişaf etdirib. Birinci xanım, Prezidentin qızları və Heydər Əliyev Fondu da Çin ilə Azərbaycan arasındakı dostluğun möhkəmləndirilməsində fəal iştirak edirlər. Azərbaycan nümayəndələrlə ünsiyyətim zamanı onların Çinə olan diqqətini və dərin marağını tam şəkildə hiss etdim. Çin dilində səlis danışan bir çox azərbaycanlı dostlarımla tanış oldum: onların arasında yaşlı çinşünas-alimlər, orta və gənc nəslin nümayəndələri, 2000-ci, 2010-cu və hətta 2020-ci illərdə anadan olmuş uşaqlar var ki, bu da iki ölkə arasındakı dostluğun davamlı olaraq davam edəcəyini əyani şəkildə göstərir.

2026-cı il Çinin 15-ci Beşillik Planının ilk ili, Çin-Azərbaycan münasibətlərinin 34-cü ildönümüdür. Belə ki, 15-ci Beşillik Plan ərzində Çin yeni inkişaf arxitekturasının formalaşmasını sürətləndirəcək, yüksəkkeyfiyyətli inkişafın təşviqinə diqqət yetirəcək, yüksəksəviyyəli açılışı genişləndirəcək və dünyaya daha böyük sabitlik və əminlik gətirməyə davam etmək üçün "Bir kəmər, bir yol" təşəbbüsünün yüksək keyfiyyətlə birgə tikintisini irəli aparacaq. Pekin Azərbaycanın Çinin sürətli inkişafına qoşulmaq, qabaqcıl elmi və texnoloji nailiyyətləri bölüşmək, təmiz enerjiyə keçid və innovativ inkişafda lider mövqe tutmaq öhdəliyini alqışlayır.

Çin ilə Azərbaycan arasında hərtərəfli strateji tərəfdaşlıq gələcək üçün böyük potensiala malikdir. İki lider arasında əldə edilən mühüm razılaşmaları rəhbər tutan Çin qarşılıqlı dəstək və dostluq ənənələrini inkişaf etdirmək, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan inkişaf naminə yeni məkanlar açmaq və bəşəriyyət üçün ortaq gələcəyə malik bir cəmiyyət qurmaq istiqamətində Azərbaycanla birlikdə işləməyə hazırdır.

# "Dəmir yumruğ"un Aprel zəfəri

## Hərb tariximizi şərəfləndirən Aprel döyüşləri

Azərbaycan torpaqları işğal altında qaldığı uzun illər ərzində təcavüzlə barışmayacağını, beynəlxalq hüquq normalarına əsaslanaraq ərazilərini erməni faşistlərindən azad edəcəyini qətiyyətlə bildirirdi və bir anda mübarizədən çəkinmirdi. Ancaq Ermənistana havadarlıq edənlərin sayəsində, beynəlxalq təşkilatların məsuliyyətsizliyi, iqtisadiyyatımızda, həmrəyliyimizdə müəyyən çətinliklərin olması nəticəsində düşmənin başını əzmək, torpaqlarımızı azad etmək mümkün olmurdu.



Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev həmin dövrdə hərbi strategiyanın hazırlanması, ordunun möhkəmləndirilməsi, qələbəyə inam hissinin yüksəldilməsi barədə düşünür, ən mötəbər tribunalardan öz sözünü deyir, sülh mümkün olmasa, hərbə önəm verəcəyini bəyan edirdi. Bununla yanaşı, qələbəyə gedən yolun konturları çəkilirdi və 2016-cı ilin aprelində bu, baş verdi. Azərbaycan Ordusu 2-5 aprel tarixində düşmənə qarşı geniş əməliyyat keçirdi. Nəticədə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Suqovuşan kəndləri istiqamətində bəzi mövqelər igid əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində düşməndən azad edildi.

Lələtəpə yüksəkliyinin və onun ətrafındakı yüksəkliklərin ələ keçirilməsi strateji baxımdan əhəmiyyətli olmaqla bərabər, həm də geniş ərazidə düşmənin atəş məntəqələrini nəzarətdə saxlamağa, təcavüzkarların hərəkətlərini izləməyə imkan yaratdı. Dördgünlük döyüşlər Azərbaycan Ordusunun hərbi potensialını və əsgərlərimizin mübarizliyini ortaya qoydu.

Aprel döyüşləri Ermənistan ordusuna baha başa gəldi, erməni silahlı qüvvələri böyük itki verdi. 300-dən çox erməni hərbçi məhv edildi, 500-dən çoxu yaralandı. Düşmənin 30-dan çox tank və zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu, xeyli yaylım atəş sistemi, minaatanları, hərbi avtomobilləri və mühəndis-istehkam vasitələri sıradan çıxarıldı. Komanda idarəetmə məntəqələri, raket sistemləri darmadağın edildi və düşmən geri çəkilməyə məcbur oldu. Cəbhədə yaranmış vəziyyət, erməni ordusundakı özbaşınalıq, fərarilik, zabitlər və əsgərlər arasındakı qarşıdurma, inamsızlıq göstərdi ki, düşmənin silahlı qüvvələri Azərbaycan Ordusu ilə mübarizə aparmağa qadir deyil və məhvə məhkumdur.

Bu döyüşlər zamanı ermənilər müharibə qaydalarını yenə də pozdular, dinc sakinləri, əhalinin sıx yaşadığı yaşayış məntəqələrini atəşə tutdular, təcavüzkar əməllərini davam etdirdilər. Onlar necə olur-olsun öz mövqelərini möhkəmləndirməyə, revanş götürməyə çalışdılar, ancaq yanıldılar. Azərbaycan artıq əvvəlki - zəif, güclü orduya malik olmayan, ümidsiz və düşkün, köməksiz əsgər və zabiti ilə seçilən bir ölkə deyildi. Dövlətimizin başçısının düşünülmüş siyasəti sayəsində iqtisadiyyatı sürətlə inkişaf edən, ordusu müasir silahlarla təchiz edilən, peşəkar hərbi kadrlara malik bir Azərbaycan idi.

Prezident, Ali Baş Komandan Aprel döyüşlərində əldə edilən hərbi uğurları yüksək qiymətləndirərək bildirmişdir: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir".

Aprel döyüşlərini tarixi qələbəmizin baş məşqi adlandırmaq daha düzgün olar. Bu 2020-ci ilin zəfərinə, 2023-cü ilin qələbəsinə aparan yolun başlanğıcı və Ali Baş Komandan cənab İlham Əliyevin hərbi strategiyasının, ordumuzun gücünün yenilməz olduğunun göstəricisi idi. Bu döyüşlər xalqımızın, rəhbərimizin və ordumuzun nəyə qadir olduğunu, həm də yenilməz gücünü ortaya qoydu. Eyni zamanda Ermənistanın dünyada formalaşan məğlubedilməz ordu mifinə böyük zərbə vurdu. Erməni əsgər və zabitlərinin ordumuz qarşısında acizliyini dünyaya göstərən Aprel döyüşləri sübut etdi ki, genişmiqyaslı döyüşlərdə Azərbaycan Ordusu düşmənə qalib gəlməyə qadirdir.

Dördgünlük mübarizə xalqımızın birliyini, çətin gündə səfərbərliyini, döyüşə hazır olmaq əzmini bir daha göstərməklə gələcək qələbələrə böyük inam yaratdı. Aprel döyüşləri cəbhə xəttində mövqelərin daha da möhkəmlənməsinə, təhlükəsizlik mühitinin formalaşmasına, tərəflər arasında güc balansının dəqiqləşdirilməsinə zəmin yaratdı və münaqişənin həll yollarına öz təsirini göstərdi. Digər tərəfdən, ordumuzun gücləndirilməsi, peşəkar hərbi kadrların hazırlanması vəzifəsini qarşıya qoydu.

Bu gün Aprel döyüşlərinin 10-cu ildönümünü böyük iftixar və qürurla qeyd edirik. Torpaqlarımız artıq düşməndən azad edilib, suverenliyimiz tam bərpa olunub. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin hərb planı, ordumuzun gücü, xalqımızın birliyi tarixi qələbəmizi təmin etdi. Hazırda 30 il erməni işğalı altında qalan ərazilərdə möhtəşəm tikinti, quraşdırma, abadlıq işləri həyata keçirilir. Sakinlər öz ata-baba yurdlarına qayıdırlar. Məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, uşaq bağçaları, istehsal sahələri, yararlı torpaqlar sakinlərin istifadəsinə verilir. Müasir yollar, təyyarə meydanları, binalar, idman qurğuları, təhsil müəssisələri insanların xidmətindədir.

Tarixi qələbəmizdən sonra Qarabağın və Şərqi Zəngəzurun abadlaşdırılmasına qoyulan 25,5 milyard manatlıq vəsait iqtisadiyyatımızın davamlı və dayanıqlı olmasından xəbər verməklə, Prezidentimizin doğma torpaqlara, insanlara qayğı və diqqətini, öz vətəninə sədaqətini nümayiş etdirir. İndi işğaldan azad edilmiş ərazilərdə həyat dirçəlir. Ölkəmizin rəhbəri vaxtaşırı həmin ərazilərdə olur, insanlarla görüşür, təməlqoyma, açılış mərasimlərində iştirak edir, öz planlarını uğurla həyata keçirir, Qarabağ torpaqlarını gülüstana, cənnətə çevirmək arzularını reallaşdırır. Bu, xalqımızda qürur doğurur.

Yolumuz haqq-ədalət, sağlam münasibətlər, əməkdaşlıq yoludur və buna görə qalibik. Amma yenə də Azərbaycan sülh, əmin-amanlıq, əməkdaşlıq uğrunda mübarizədədir.

Günümüzün reallığı - dünyada baş verən hadisələr, müharibələr, münaqişələr bunu tələb edir. Ermənistanın təcavüzü, uzun illər torpaqlarımızın işğal altında qalması və nəhayət, Azərbaycanın tarixi qələbəsi göstərdi ki, nahaq qan, zülm yerdə qalmır, haqq-ədalət qalibdir və müharibələrin sonu yoxdur.

***Tahir RZAYEV,***
***Milli Məclisin***
***Aqrar siyasət komitəsinin sədri***

## Aprel döyüşləri Vətən müharibəsindəki Qələbənin konseptual başlanğıcı kimi tarixə düşdü

"2016-cı ilin Aprel döyüşləri hərbi baxımdan məhdud miqyaslı əməliyyat kimi qiymətləndirilsə də, onun hərbi, siyasi, diplomatik və psixoloji nəticələri regionun siyasi-təhlükəsizlik arxitekturasında ciddi dönüş yaratdı. Dörd gün davam edən bu hərbi əməliyyatlar 4 il sonra baş verən və 44 gün davam edən Vətən müharibəsi üçün strateji zəmin rolunu oynadı və Azərbaycan dövlətinin hərbi-siyasi kursunun effektivliyini nümayiş etdirdi".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Rizvan Nəbiyev deyib.

O xatırladıb ki, Aprel döyüşləri zamanı Azərbaycan Ordusu qısa müddətdə mühüm taktiki uğurlar əldə edərək bir sıra strateji əraziləri nəzarətə götürdü. Bu əməliyyatların ən mühüm nəticələrindən biri təxminən 2000 hektara yaxın ərazinin işğaldan azad edilməsi oldu ki, bu da uzun illər dəyişməz qalan təmas xəttində ciddi irəliləyiş demək idi. Azad edilən Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı ətrafı ərazilər, Talış kəndi ətrafındakı yüksəkliklər, Suqovuşan istiqamətində yollar və mövqelər, Gülüstan və Qazaxlar kəndləri istiqamətlərində mövqelər - strateji nəzarət nöqtəsi kimi xüsusi əhəmiyyət daşıyırdı.

"Hərbi-strateji əhəmiyyəti həm də onunla ölçülürdü ki, məsələn, Lələtəpənin azad edilməsi nəticəsində geniş əraziyə vizual və atəş nəzarəti təmin olundu. Talış istiqamətində yüksəkliklərin ələ keçirilməsi düşmənin müdafiə xəttini zəiflətdi. Azad edilən ərazilər yaxın yaşayış məntəqələrinin təhlükəsizliyini artırdı. Beləliklə, Aprel döyüşlərində əldə edilən ərazi üstünlüyü təkcə taktiki nailiyyət deyil, həm də gələcək döyüş əməliyyatların konturlarını müəyyən edən mühüm hərbi-strateji göstərici kimi qiymətləndirilir", - deyə R.Nəbiyev qeyd edib.

Deputat vurğulayıb ki, Aprel döyüşləri, həmçinin Azərbaycan Ordusunun uzun illər ərzində formalaşdırdığı hərbi potensialın real döyüş şəraitində ilk ciddi sınağı oldu. Buna görə də, şanlı Aprel döyüşləri hərbi müstəvidə həm də "sınaqdan keçmiş güc modeli" kimi dəyərləndirilir. Bu baxımdan, Aprel döyüşləri gələcək genişmiqyaslı müharibə üçün taktiki yanaşmaların test edilməsi, komanda-idarəetmə sisteminin yoxlanılması, real döyüş koordinasiyasının formalaşdırılması kimi mühüm funksiyaları yerinə yetirdi.

"Aprel döyüşlərinə qədər regiondakı mövcud vəziyyət uzun müddət "dondurulmuş münaqişə" kimi təqdim olunurdu və Azərbaycanı bu nəticəni qəbullandırmağa məcbur etmək taktikası həyata keçirilirdi. Lakin Aprel döyüşləri işğal altındakı ərazilərin dəyişməzliyi mifini sarsıtdı, ən mühümü yeni siyasi reallıq formalaşdırdı: status-kvo dəyişdirilə bilər. Bu reallıq daxili müstəvidə dövlət və cəmiyyət arasında birliyin daha da möhkəmlənməsinə əlavə stimul verdi, milli həmrəyliyimiz daha da gücləndi. Diplomatik müstəvidə isə ciddi mesaj xarakteri daşıdı. Uzun illər davam edən, lakin nəticəsiz qalan danışıqlar fonunda Azərbaycan ilk dəfə açıq şəkildə sübut etdi ki, münaqişənin həllində hərbi həll yolu real və tətbiq oluna bilən variantdır", - deyə o diqqətə çatdırıb.

R.Nəbiyev, həmçinin bildirib ki, Aprel döyüşlərindən sonra Azərbaycan diplomatiyası beynəlxalq platformalarda daha fəal mövqe nümayiş etdirməyə başladı, informasiya müharibəsində üstünlüyünü artırdı. Bu isə gələcək hərbi əməliyyatlar üçün siyasi və hüquqi zəminin formalaşdırılmasına xidmət edirdi. Beləliklə, "güc amili" ərazilərimizin işğaldan azad edilməsi ilə bağlı beynəlxalq müzakirələrdə real və legitim alət kimi qəbul olunmağa başladı.

"Aprel döyüşləri ardıcıl strategiyanın tərkib hissəsidir. Sonrakı dövrdə baş verən proseslər bu xəttin davamı kimi çıxış etdi. Bu kontekstdə Aprel döyüşləri hərbi hazırlığın real sınağı, siyasi iradənin möhkəmlənməsi, diplomatik zəminin formalaşması, cəmiyyətin psixoloji hazırlığı kimi faktorları bir araya gətirərək 2020-ci ildə tammiqyaslı müharibəyə keçidi mümkün etdi. Bir sözlə, Aprel döyüşləri Azərbaycanın sonrakı strateji qalibiyyətinin - Vətən müharibəsindəki Qələbənin - ilkin mərhələsi və konseptual başlanğıcı kimi tarixə düşdü", - deyə deputat əlavə edib.

## Aprel Zəfərindən Bütöv Azərbaycana

Azərbaycan xalqı və onun rəşadətli ordusu Aprel döyüşlərindəki qələbənin 10-cu ildönümünü qürurla qeyd edir. On il əvvəl, 2016-cı ilin baharında Lələtəpə zirvəsinə sancılan üçrəngli bayrağımız millətimizin onilliklər boyu davam edən haqq mübarizəsindəki qələbə başlanğıcı oldu. Bu, həm də düşməni və ona havadarlıq edən xarici qüvvələri Azərbaycanın gücü ilə hesablaşmağa vadar edən "Zəfər zəngi" idi.

Xalqımızın Aprel döyüşləri ilə başlayan şanlı yolu bizə bütöv Azərbaycan bəxş etdi. Həmin dördgünlük döyüş, həm də xalqımızın sınmaz iradəsinin, düşmənin "məğlubedilməzlik" mifinin darmadağın edilməsinin və Böyük qayıdışın ilk müjdəsi idi.

2020-ci il dekabrın 10-da Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəşadətli ordumuzun önündə bəyan etdiyi kimi: "Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

### Dördgünlük dərs

2016-cı ilin aprelində Azərbaycan əsgəri sübut etdi ki, xalqımız 30 illik işğalla heç vaxt barışmayacaq. 2 aprel tarixində düşmən təxribatına verilən sarsıdıcı cavab, illərdir dondurulmuş hesab edilən Qarabağ münaqişənin taleyini kökündən dəyişdi. Cəbrayıl rayonunun strateji yüksəkliyində - Lələtəpədə dalğalandırılan üçrəngli bayraq, həm də 2020-ci ilin 8 noyabrında Şuşada qaldırılacaq bayrağın mənəvi carçısı oldu.

Ermənistanın 2016-cı ilin yazındakı növbəti təxribatları özünə baha başa gəldi. Həmin il aprelin 2-də düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Tərtər-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Dördgünlük Aprel döyüşləri zamanı düşmən Azərbaycan Ordusunun gücünü döyüş meydanında əyani şəkildə daddı və tezliklə daha böyük zərbə alacağını, külünün göyə sovrulacağını anladı. Hələ Aprel döyüşləri zamanı Ermənistan ordusu Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyəcəyinin gerçək qorxusunu yaşadı.

Ermənistan illər boyu öz ordusu ətrafında "keçilməz Ohanyan xətti" və "məğlubedilməz erməni əsgəri" əfsanələri uydurmuşdu. Lakin dördgünlük Aprel döyüşləri bu mifi sabun köpüyü kimi dağıtdı.

Bu əməliyyat Ermənistanın ideoloji sütunlarını sarsıtdı və sübut etdi ki, xarici havadarların köməyi ilə qurulan xülyalar Azərbaycanın milli iradəsi qarşısında acizdir.

31 mart 2017-ci ildə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bir qrup hərbçi ilə görüşü zamanı bildirdi ki, Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir: "Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

### Qələbə silsiləsi

2016-cı ildə cəmi 4 günə əldə edilən Aprel zəfəri təsadüfi deyildi. Bu qələbə Ulu Öndər Heydər Əliyevin 1994-cü ildəki uğurlu Horadiz əməliyyatı ilə başlatdığı ordu quruculuğu strategiyasının məntiqi davamı oldu.

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən və ölkəmizi hərtərəfli inkişaf mərhələsinə yüksəldən Prezident İlham Əliyevin gündəliyində duran birnömrəli məsələ ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası idi. Buna görə də Silahlı Qüvvələrin Ali Baş Komandanı müasir ordu quruculuğu işinə xüsusi diqqət yetirərək ölkənin hərbi gücünü artırırdı. Münaqişə ilə bağlı danışıqların heç bir nəticə verməməsi isə yürüdülən bu siyasətin düzgün olduğunu bir daha təsdiqləyirdi.

Digər tərəfdən də Ermənistan xarici havadarlarına güvənərək ölkəmizə qarşı davamlı hərbi təxribatlar törədirdi.

2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələri növbəti dəfə təxribata əl ataraq, mövqelərimizi, o cümlədən yaşayış məntəqələrimizi atəşə tutdu, Azərbaycana qarşı hücuma keçdi. Ermənilərin bu təxribatı nəticəsində hərbçilərimizlə yanaşı, içərisində azyaşlının da olduğu mülki şəxslərimiz həlak oldular.

Ermənistanın bu təxribatlarına cavab olaraq həyata keçirilən ildırım sürətli əks-hücum əməliyyatı nəticəsində düşmənin qüvvələri darmadağın edildi.

Bu qələbə xalqımıza onilliklər sonra ilk dəfə öz torpağına qədəm basmaq və üçrəngli bayrağımızı uca zirvələrdə görmək xoşbəxtliyini yaşatdı.

Ümumiyyətlə, 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri bir-birini tamamlayan vahid qələbə zənciri kimi salnamələrimizə həkk olundu.

2018-ci ildə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılan uğurlu əməliyyat nəticəsində bu bölgəmizin 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt olunmuş 11 min hektar torpağı azad edildi. Bu, Böyük Zəfərin yaxınlaşdığının göstəricisi idi.

2020-ci il 44 günlük Vətən müharibəsində Azərbaycan Şuşada qazandığı Zəfərlə ərazilərinin işğalına son qoydu. Həmin 44 günün hər birində qəhrəman döyüşçülərimiz şanlı tarix yazdılar.

2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan Ordusu cəmi 23 saata ərazilərimizdə separatizmə son qoydu. Dövlət suverenliyimiz tam təmin olundu, Azərbaycan Konstitusiyası bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi.

### İlk qayıdış

Cocuq Mərcanlı kəndinin təhlükəsizliyinin təmin olunması və orada Şuşa məscidinin bənzərinin ucaldılması düşmənə verilən ən böyük rəmzi mesaj idi ki, biz mütləq Qarabağa qayıdacağıq!

Aprel zəfərindən bir il sonra 2017-ci il iyulun 14-də Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndinə səfər edərək öz yurd-yuvalarına qayıdan xoşbəxt sakinlərlə görüşən Prezident İlham Əliyevin də xalqımıza rəmzi mesajı elə bu idi.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyat qaynayır, on minlərlə sakin doğma ocağına qovuşub. Hər ötən gün bu yurdlara qələbə əhvallı köç karvanları yola salınır.

Aprel döyüşlərində qəhrəman Azərbaycan oğullarının Lələtəpədə ucaltdığı bayraq, indi artıq Xankəndinin, Şuşanın, Xocalının, Laçının... səmasında əzəmətlə dalğalanır.

Bəli, 2016-cı ildə Lələtəpədə yandırılan qələbə məşəli bu gün bütöv Azərbaycanın hər qarışına işıq saçır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Milli Kitabxanada Aprel döyüşlərinə həsr edilmiş sərgi hazırlanıb




Milli Kitabxanada "Aprel döyüşləri" adlı elektron məlumat bazası, "Aprel döyüşləri - böyük zəfərin başlanğıcı" adlı virtual sərgi və eyniadlı ənənəvi geniş kitab sərgisi istifadəçilərə təqdim olunub.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, elektron məlumat bazasında sistemləşdirilmiş tammətnli resurslar müxtəlif bölmələr üzrə onlayn istifadəçilərin ixtiyarına verilib.

Sərgilərdə Aprel döyüşlərində Lələtəpə, Talış yüksəklikləri və digər strateji mövqelərin işğaldan azad olunması, Aprel döyüşlərinin əhəmiyyəti, eyni zamanda tarixi Zəfərimizin əldə olunmasında Azərbaycan Ordusunun Zəfəri, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyası, Azərbaycan əsgərinin əfsanəvi qəhrəmanlıqları və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin döyüş yolu haqqında Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, dövri mətbuat məqalələri və fotolar nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər linkindən istifadə edə bilərlər. https://anl.az/el/emb/aprel_doyusleri/index.html, https://anl.az/el/vsb/Aprel_doyusleri/index.htm







# Vətən deyəndə...





● Tarix yazan oğullar

## Döyüş bölgəsinə köməyə getdi, şəhid oldu

**Uğurla başa çatan Aprel döyüşləri gənclərimizin vətənpərvər ruhda böyüdüklərini bir daha göstərdi. Əməliyyatlar başlayar-başlamaz ürəyi Vətən eşqi ilə döyünən gənclər cəbhə bölgələrinə, döyüşən hərbi hissələrə axışmağa başladılar. Onların məqsədi düşmən üzərində qələbə naminə döyüşən qüvvələrə kömək etmək, mənəvi dəstək durmaq idi.**



Amma döyüş meydanında məğlub olan, ağır itkilər verən düşmən hərbçilərimizə mənəvi dəstək durmaq istəyən mülki adamları da hədəfə aldı. Təəssüflər olsun ki, əsgərlərimizi qələbələrə ruhlandıran bir neçə cəsur vətən oğlu şəhid oldu. Nə edəsən ki, müharibə itkisiz olmur, qələbəyə gedən yol qan-qadanın üzərindən keçir. Aprel döyüşlərində Vətən yolunda canını fəda edən cəsur oğullarımızdan biri də Fərman Elçin oğlu Əsədli oldu.

Fərman Əsədli hərbçi ailəsində dünyaya göz açmışdı. Atası Elçin Əsədov zabit idi. Başqa hərbçilərimiz kimi onun da ürəyi Vətən eşqi ilə döyünürdü. Fərman evlərində Qarabağ müharibəsi, Xocalı, Meşəli, Qaradağlı və başqa faciələr haqqında söhbətlərə qulaq asa-asa böyümüşdü. Bu söhbətlərdən onun qəlbində, ürəyində Vətənə sədaqət, vətənpərvərlik duyğuları yaranmışdı. Həmin duyğular onu həmişə yurdun müdafiəsinə, düşməndən qisas və intiqam almağa səsləmişdi. Aprel döyüşləri başlayan kimi Fərmanı ön xəttə aparan da vətənpərvərlik duyğuları, Qarabağı azad görmək arzusu olmuşdu.

Fərman 1990-cı ildə Gəncədə doğulmuşdu. 2007-ci ildə orta təhsilini bitirərək Gəncə Dövlət Universitetinə qəbul olmuşdu. Bu ali təhsil ocağında iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına yiyələnmişdi. 2011-ci ildə ali təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılmışdı. Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirərək 2012-ci ildə doğmalarının yanına qayıtmışdı. Həmin ilin sentyabrında ailə həyatı qurmuş, bir qız övladı dünyaya gəlmişdi.

Erməni işğalçılarının 2016-cı il aprel ayının 1-də atəşkəs rejimini pozaraq müxtəlif istiqamətlərdən həm mövqelərimizə hücum etdiyini, həm də yaxınlıqdakı yaşayış məntəqlərini atəşə tutduqların eşidəndə Fərman Əsədli narahat hisslər keçirdi. Döyüşlərə getmək istəsə də, səfərbərlik olmadığına görə arzusuna çatmadı. Amma sinəsində döyünən ürəyi onu cəbhə bölgəsinə çəkib apardı. Fərman Əsədli 2 aprel 2016-cı ildə səhər ertədən vuruşan hərbçilərimizə mənəvi dəstək durmaq, onları qələbələrə ruhlandırmaq niyyəti ilə, bacısının həyat yoldaşı Sadiq Əliyevlə birlikdə bir qədər ərzaq, şirniyyat alaraq Tərtər rayonunun Şıxarx qəsəbəsinə getdi. Onlar cəbhə bölgəsinə çatanda qəsəbənin atəş altında olduğunun, erməni təcavüzkarları tərəfindən bu yaşayış məntəqəsinin ağır artilleriya atəşinə tutulduğunu gördülər. Fərmanla Sadiq gətirdikləri yardımı hərbi hissəyə verdilər. Onlardan nə kömək lazım olduğunu soruşdular. Hərbçilərin yeganə xahişləri o oldu ki, vaxt itirmədən atəş altında olan ərazini tərk etsinlər. Hərbçilərdən bu sözləri eşidəndən sonra onlar hərbi hissənin yaxınlığına toplaşanları ərazidən uzaqlaşdırmağa çalışdılar. Bu vaxt düşmən artilleriyası mövqelərimizi atəşə tutdu. Artilleriya atəşini görən Fərmanla Sadiq fikirləşdilər ki, birdən yaralılar olar, onları xəstəxanaya çatdırmaq zərurəti yaranar. Buna görə də avtomobillə atəş altında olan ərazilərə yollandılar. Şükürlər olsun ki, yaralı yox idi.

Sonra onlar Tərtər şəhərinə gələrək yenə də hərbçilərimizə yardım alıb hərbi hissəyə apardılar. Geri dönəndə ordumuza məxsus olan avtomobilin dayandığını gördülər. Məlum oldu ki, avtomibildə yüngülvari nasazlıq yaranıb. Bu sahəni yaxşı bildiyinə görə Fərman avtomobili qısa müddət ərzində təmir etdi. Avtomobili hərbi hissəyə qədər müşayiət etdikdən sonra Fərmanla Sadiq yenidən döyüş bölgəsinə döndülər. Həmin müddət ərzində düşmən tərəfindən atılan top mərmiləri onların olduğu yerə yaxın düşürdü. Fərman top mərmilərindən birinin düşdüyü yerin yaxınlığında yaralı əsgərin olduğunu görüb Sadiqlə birlikdə onu atəş altından çıxararaq xəstəxanaya çatdırdılar.

Axşam saat 18-19 radələrində Fərmanla Sadiq əsgərlərlə sağollaşaraq Gəncəyə qayıtdılar. Yolun kənarında bir nəfər zabitin dayandığını görüb maşını saxladılar. Məlum oldu ki, zabit Mübariz Vaqif oğlu Rəhimov xidmət etdiyi məntəqəyə getməlidir. Vaxt itirmədən onu maşına götürüb geriyə - yenidən Tərtər rayonuna qayıtdılar. Həmin vaxt ermənilər yenə də Şıxarx kəndini artilleriya atəşinə tutdular. Onların avtomobilinin yaxınlığına düşən mərminin qəlpələri şüşələri deşərək Sadiqin yanında oturmuş Fərmana dəydi. Sükan arxasında olan Sadiq də ağır yaralandı. Xoşbəxtlikdən qəlpələr zabit Mübariz Rəhimovdan yan keçmişdi. Təcili olaraq Fərman Tərtər rayon xəstəxanasına çatdırıldı. Təəssüflər olsun ki, həkimlər nə qədər çalışsalar da, onun həyatını xilas edə bilmədilər. İlıq bir yaz günündə, 2016-cı il aprel ayının 2-də Vətən uğrunda vuruşan zabit və əsgərlərimizin köməyinə tələsən Fərman Əsədli 26 yaşında əbədi olaraq gözlərini yumdu.

Həmin gün Fərman Əsədli ilə birlikdə olan Sadiq Əliyev ötüb keçənləri belə xatırlayır: "Düşmən mərmiləri hara, hansı istiqamətə atırdısa, bilirdik ki, orada şəxsi heyət var. Atəş sovuşandan sonra 3-4 dəqiqə gözləyir, sakitlik yaranan kimi maşını ora sürürdük. Əsgərlərlə hal-əhval tutur, onlardan "yaralanan, həlak olan varmı, nə edə bilərik", - deyə soruşurduq. Şükürlər olsun ki, salamatlıq olurdu. Döyüşçülərimizdən arxayın olub geri qayıdırdıq. Fərmanın ölümü bizi çox sarsıtdı. Təskinliyimizi onunla tapırıq ki, o, müqəddəs bir amal uğrunda canından keçdi, düşmən üzərində qələbəmiz naminə əlindən gələni etdi".

Fərman Əsədli ilə bir maşında olmuş və təsadüf nəticəsində sağ qalmış zabit Mübariz Rəhimov Aprel döyüşlərindən bir müddət sonra onun yaşadığı ünvana gəlib. Şəhidin atası Elçin Əsədovla görüşərək ona başsağlığı verib, yaşadığına görə oğlu Fərmana borclu olduğunu bildirib. Belə cəsur, qorxmaz, igid, qəhrəman övlad böyütdüyünə görə ona dərin minnətdarlıq edib.

Anası Xatirə xanım Fərmanı həmişə kövrək hisslərlə xatırlayırdı. Oğlunun adı heç vaxt dilindən düşmürdü. Ciyərparasının şirin təbəssümündən, dəcəlliklə dolu uşaqlıq illərindən danışmaqdan doymazdı. Təəssüflər olsun ki, Fərmansız keçən günlər, həftələr Xatirə ananın qəlbini üzdü. Oğul itkisinə dözə bilməyən ana Fərmanın ölümündən iki il sonra ürəyində övlad nisgili dünyadan köç etdi.

Şəhid atası, ehtiyatda olan zabit Elçin Əsədov oğlu haqqında danışanda gözləri yaşarır. Deyir ki, oğlumla qürur duyuram: "Çünki Fərman igidliyi, cəsarəti və qorxmazlığı ilə başımızı el içində uca etdi. Oğlum ölümün gözünün içinə qorxmadan baxaraq düşmən üzərində qələbəmiz naminə əlindən gələn köməyi əsirgəmədi. Aprel döyüşlərində qüdrətli Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri hərb tariximizə şanlı bir səhifə yazdı. Fəxr edirəm ki, bu səhifələrdə oğlumun, Fərmanımın da adı var".

Samux rayonunun Sərkar kəndindəki küçələrindən biri bu gün şəhid Fərman Əsədlinin adını daşıyır. Bu küçədə yaşayanlar, bütün samuxlular onu ehtiramla xatırlayır, göstərdiyi igidlikdən ürəkdolusu danışırlar. Vətənin azadlığı naminə öz canından keçən Fərman Əsədli kimi oğullar heç vaxt unudulmayacaq.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

## Zəfərə cığır açanlardan oldu

### Şəhid Orxan Həmidov baharda doğuldu, baharda da əbədiyyətə qovuşdu

**Deyirlər, torpağın üzü soyuq olur. Yəni zaman keçdikcə torpağa tapşırdığın əziz, doğma insanın itkisinin ağrıları azalır, onu... Yox, yox, unutmursan, sadəcə artıq sənin ətrafında olmadığı ilə barışıb onu öz qəlbinə köçürərək orada yaşadırsan.**



Şəhid Orxan Həmidov təkcə anası, ömür-gün yoldaşı, bir cüt qardaşı və bir cüt oğul balasının deyil, kənd sakinlərinin hamısının xatirələrində yaşayır. Orxan kimi igidlər bütün xalqımız üçün daim əziz və unudulmazdır.

Qardaşı oğlu Həsən deyir ki, əmim barədə keçmiş zamanda danışa bilmirik: "Belə bir igidin ölümünə kim inanardı? Adını xatırlaya bilmədiyim hansısa dahi çox düzgün söyləyib ki, bütün insanların iki tarixi var - doğulduqları və öldükləri gün. Əsl qəhrəmanların isə yalnız bir tarixi olur - onlar doğulur və heç zaman ölmürlər".

Füzuli rayonu Əhmədalılar kəndinin sakini Orxan Həmidov 1980-ci il martın 29-da dünyaya göz açmışdı. Ölüm isə onu ömrünün 36-cı baharında haqladı. Bu ölüm deyil, bir şəhadət və şərafət idi.

Orxan Həmidov şanlı keçmişimizin çox yaxın tarixinin qəhrəmanıdır. 2016-cı ilin zəfərli Aprel döyüşlərində qəhrəmanlığın ən yüksək zirvəsi olan şəhidlik məqamına yetişib. Az sonra, aprelin 19-da Prezident İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilib.

Orxan çox yaraşıqlı, həm də ədəb-ərkanlı bir cavan olub. Sürücü peşəsinə yiyələnibmiş. Sonra yeddi il ANAMA-da minaaxtaran kimi çalışıb. Anası Tamilla xanım qürur qarışıq göz yaşları ilə söyləyir ki, Orxan üç oğlunun ən kiçiyi idi:

- Faiq Bakıda yaşayırdı. Azər üçün isə qonşuluqda ev-eşik düzəltmişdik. Orxanı min arzu-kamla evləndirib yanımda saxlamışdım. Gənc olsa da, bir ağsaqqal sanbalı ilə ata evinə yurdçuluq edirdi. Mərifət, qanacaq sarıdan gəlinim Esmira ilə elə bil bir almanın iki üzü idilər. On ildir ailə qurmuşdular. Bu illər ərzində heç biri nəinki mənim sözümün üstündən söz deməmişdi, özümə qarşı soyuq baxışlarını belə görməmişdim...

Bir gün isə... Axşam hamı evə yığışan zaman Orxan üzünü anasına tutub deyir ki, hərbiyə getməyi qərara alıb.

Anası cavab verir ki, ay oğul, çətin yol tutmaq istəyirsən. Hər an düşmənlə üz-üzə, göz-gözə dayanmaq sənə asan gəlməsin.

Orxan deyir: "Torpağa basqın edən düşmənin üstünə sənin oğlun getməsin, mənimki də, bir başqasınınkı da getməsin, bəs kim getsin?"

Ana oğluna xeyir-dua verir.

- 2014-cü ildən hərbidə idi, - deyə Tamilla xanım sevimli oğlu haqqında söhbəti davam etdirir. - Ara-sıra evə gəlirdi. Bir dəfə gələndə mənə qovluq verdi, açanda gördüm ki, arasında fəxri fərman var. Nümunəvi xidmətə görə almışdı. Növbəti dəfə gələndə mənə balaca bir qutu uzatdı. Açanda gördüm ki, qol saatıdır. Yenə də nümunəvi xidmətə görə... Sonuncu dəfə gələndə dedi ki, bir müddət Şükürbəylidə korpusda olacağam. Səbəbini açıqlamadı. "Xidmət belə tələb edir" - dedi. Onda evə tez-tez gəlirdi. Kresloya söykənib xeyli dincəlir, sonra bir-iki saat yatıb qayıdırdı. Çox vaxt heç yemək də istəmirdi. Sonradan bildim ki, Şükürbəylidə təlim keçirlərmiş...

2016-cı il aprelin 1-də axşamüstü Orxan qonşuluqda yaşayan qardaşına mobil telefonla zəng vurur. Deyir ki, heç nədən qorxmayın və məndən də nigaran qalmayın. Hamınızın bizim evə yığışmağınız yaxşı olar.

Şübhəsiz ki, Orxan öz evinin nisbətən atəş tutmayan səmtdə olduğunu nəzərə almışdı. Çünki bir azdan Lələtəpə tərəfdən dəhşətli atəş səsləri gəlməyə başlayır. Döyüş gedən yerlər xeyli aralıda olsa da, Əhmədalılarda da az qala yer-göy çaxnaşır. Artıq hamı vəziyyətin nə yerdə olduğunu başa düşür.

Aprelin 2-də Tamilla xanım eşidir ki, həmkəndliləri Maarif Quliyev döyüşdə yaralanıb. Onların evinə gedir. Bundan sonra ana qəlbinin narahatlığı bir az da artır. Ürəyinə damır ki, Orxana nə isə olub. Üstəlik, Bakıdakı və Füzulidəki bütün qohumları, dostları Orxanı telefonla arayıb "bu nömrəyə zəng çatmır" sözlərini eşidirlər.

Özünə yer tapa bilməyən, narahatlıqdan çırpınan anaya əsl faciəni tədricən çatdırmağı qərara alırlar. Deyirlər ki, Orxan yaralanıb, onu Beyləqana xəstəxanaya aparıblar (Əslində isə şəhidin cəsədini məscidə yuyub, kəfənə tutmaq üçün aparıbmışlar). Tamilla xanım heç kəsə qulaq asmadan qohumları ilə Beyləqana üz tutur. Yolda təcili yardım maşını ilə rastlaşır. Bu dəfə isə ona bildirirlər ki, oğlunu Bakıya hospitala aparırlar. Lakin dünya görmüş qadın maşının Bakı yoluna deyil, Horadizə tərəf istiqamət aldığını görüb haray qoparır...

Orxan şəhid olanda övladları Vüsal və Fərid kiçik idilər. Ata soraqlayan bu uşaqları ovutmaq üçün Tamilla nənə gündə bir nağıl fikirləşib tapırdı. Gah deyir ki, atanız göylərdədir, sizi görür, gah da özünün aldığı hədiyyələri Orxanın oradan - göylərdən göndərdiyini söyləyirdi.

İllər keçdikcə uşaqların kövrəklikləri qürur hissi ilə əvəz olundu. Onlar əsl həqiqəti dərk edib başlarını uca tutdular və hərəsi öz qəlbində Orxana layiq oğul olmağa qərar verdi. İndi Vüsal universitet tələbəsidir. Fərid də bu adı qazanmağa çalışır, abituriyentdir.

Orxanın və onun kimi igidlərin uğrunda can verdiyi torpaqlarda isə bu gün böyük quruculuq işləri gedir. Yeri gəlmişkən, qardaşı oğlu Həsən də bu quruculuqda qol çırmayıb çalışanlardandır. Cəbrayıl rayonunda minatəmizləmə işləri ilə məşğuldur.

- Qoy düşmən görsün ki, biz torpağı qorumağı, müdafiə etməyi, uğrunda can verməyi də bacarırıq, onu cənnətə çevirməyi də! - deyir.

*Flora SADIQLI, "Azərbaycan"*

● Şəhidlər ölməz...

## Samidin qəhrəmanlıq dastanı

**Qəhrəmanlıq tarixi bəzən bir günə, bir gecəyə də sığır. Bəzən elə hadisələr də baş verir ki, bir insanın taleyi bütöv bir xalqın yaddaşına çevrilir. 2016-cı ilin aprelində baş verən döyüşlər xalqın yaddaşına qızıl hərflərlə yazılmış qəhrəmanlıq salnaməsidir.**

İllərlə səngərdə gözünü qırpmadan dayanan, Vətənin hər qarış torpağını ruhunda, canında yaşadan, ürəyində daşıyan Azərbaycan əsgəri hər an döyüş əmrini gözləyirdi. Nəhayət, o an 2016-cı ilin aprelində yetişdi. Düşmənin təxribatına cavab olaraq əks-hücum əmri verildi. Bu, təkcə bir hərbi əməliyyat deyildi, illərlə davam edən həsrətin, qürurun, haqq savaşının başlanğıcı idi.

Həmin gün ön sırada olanlardan biri də mayor Samid Gülağa oğlu İmanov idi. Uşaqlıqdan arzusu zabit olmaq, işğal olunmuş torpaqları azad etmək idi. Bu arzu onu Neftçalanın Həsənabad qəsəbəsindən ən çətin hərbi təlimlərə, beynəlxalq kurslara, döyüş meydanlarının ön xəttinə qədər gətirib çıxarmışdı.



Zabit Samid İmanov əsgərlərinə yalnız tabeliyində olan döyüşçü kimi baxmırdı. Onlar onun üçün silahdaşdan da artıq yaxın dost, sirdaş, Vətənin canlı parçası idilər. Bu səbəbdən də döyüş meydanında verdiyi hər qərar yalnız taktiki yox, həm də vicdanın, insanlığın səsi idi. Aprel döyüşləri onun qəhrəmanlıq səhifəsinin zirvəsi oldu. Tərtərin Talış kəndi istiqamətində gedən döyüşlərdə Samid ön xətdə idi. O, düşmənlə üz-üzə, mərmi yağışı altında geri çəkilməyi yox, irəli getməyi seçmişdi. Çünki onun üçün geri çəkilmək yalnız mövqe dəyişikliyi demək deyildi, həm də bir zabit şərəfinin, döyüşçü ləyaqətinin sınağı demək idi. Bir də Samid geri çəkilməyi sevmirdi.

Samid kimi zabitlər məhz belə məqamlarda tarix yazırlar. Onun həyatı iradənin, peşəkarlığın və vətən sevgisinin canlı nümunəsidir. 1981-ci ilin payızında Neftçalanın Həsənabad qəsəbəsində dünyaya göz açan gənc hələ məktəb illərindən Vətənə xidmət etməyi özünə məqsəd seçmişdi. 1998-ci ildə daxil olduğu Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində qazandığı biliklər və aldığı tərbiyə onu gələcəyin peşəkar zabitinə çevirdi. Həmin məktəbi fərqlənmə ilə bitirməsi və Ulu Öndər tərəfindən mükafatlandırılması onun nə qədər seçilən bir hərbçi olduğunun ilk göstəricilərindən idi.

O, sadəcə nəzəri biliklərlə kifayətlənmədi. Türkiyədə, Pakistanda, İsveçrədə, Rumıniyada keçdiyi təlimlər, qatıldığı beynəlxalq kurslar onun hərbi təcrübəsini daha da genişləndirdi. "Komando təlimi", "Paraşütdən sərbəst atlama", "Antiterror əməliyyatları", "Dağ təlimləri" - bütün bunlar Samidin simasında müasir, çevik və yüksək hazırlıqlı xüsusi təyinatlı zabit formalaşdırdı.

2014-cü ildə təmas xəttində baş verən gərginlik zamanı onun rəhbərlik etdiyi dəstənin düşmən arxasına keçərək uğurlu əməliyyat həyata keçirməsi, qarşı tərəfin xeyli canlı qüvvəsini məhv etməsi onun döyüş təcrübəsinin və liderlik keyfiyyətlərinin bariz nümunəsi idi. Bu, artıq təkcə bir zabitin uğuru yox, Azərbaycan Ordusunun gücünün, iradəsinin göstəricisi idi.

Amma Samidin həyatında ən böyük imtahan 2016-cı ilin aprelində oldu. Aprelin 3-dən 4-nə keçən gecə… Talış istiqamətində səngərlər od-alov içində idi. Bu gərgin məqamda Samid yenə ön sırada idi. Gecənin səssizliyi gurlayan mərmi səsləri ilə parçalanır, torpaq sanki hər partlayışda titrəyirdi. Qəhrəman zabitin gözləri parıldayır,ürəyi qəzəb, nifrət hayqırırdı. Bu, adi bir döyüş deyildi, illərlə yığılan qəzəbin, ədalət istəyinin savaşı idi. Belə bir məqamda döyüşün ən qızğın anında o, ayağından və çiynindən qəlpə yarası aldı. Buna baxmayaraq, Samid irəliləməkdə davam etdi. Əsgərləri onu döyüş meydanından çıxarmaq istədikdə, qətiyyətlə etirazını bildirdi. Onun üçün özünün yox, əsgərinin həyatı daha önəmli idi. O, yaralı gizirin çıxarılmasını əmr etdi. Bu, sadəcə bir əmr deyildi, bir zabitin öz əsgərinə olan sevgisinin, məsuliyyətinin ifadəsi idi.

Əsgərləri geri qayıdanda isə Samid artıq orada yox idi… O, əsir düşməmək üçün son gücünü toplayaraq mövqeyini dəyişmişdi. Bütün mərmiləri bitmiş, əlində yalnız bir qumbarası qalmışdı. Qəhrəman zabit ya düşmənə əsir düşməli, ya da son nəfəsinə qədər döyüşməli idi. Samid ikinci yolu seçdi. Çünki o, lazım gəldikdə şərəflə ölməyi də bacaranlardan idi. Geri dönən əsgərləri onu nə qədər axtarsalar da, səhərə qədər tapa bilmədilər. Samid şəhid olmuşdu. Aprelin 8-də nəşi neytral ərazidən götürülərək doğma Neftçalaya gətirildi. Bir ailə övladını itirdi, Vətən bir qəhrəman qazandı.

Samid İmanovun həyatı və döyüş yolu bir daha sübut etdi ki, Vətən sevgisi sözlə deyil, əməllə ölçülür. O, arzuladığı kimi yaşadı - zabit kimi, komandir kimi, Vətənin keşiyində duran bir əsgər kimi.

Aprel döyüşləri Azərbaycan xalqına yalnız qələbə sevinci yox, həm də belə igid oğulların varlığı ilə qürur duymaq haqqı verdi. Bu döyüşlər göstərdi ki, illərlə gözlənilən o əmr veriləndə, Azərbaycan əsgəri tərəddüd etmədən irəli atılır. Çünki həmin əmrin arxasında Vətən, qarşısında haqq dayanır.

Samid kimi oğullar varsa, bu xalqın qəhrəmanlıq salnaməsi heç vaxt yarımçıq qala bilməz. Belə də oldu. Samidin Aprel döyüşlərində yazmağa başladığı qəhrəmanlıq dastanını 44 günlük Vətən müharibəsində yurdumuzun igid övladları tamamladılar.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

## Qərbi Azərbaycana qayıdış: *milli ideyanın əsas hədəflərindən biri*

# Qərbi Azərbaycanın bərpaolunan enerji mənbələri

### Tarixi ərazimizdəki su enerjisi ehtiyatlarının potensialı 22 milyard kilovat-saata yaxındır

Azərbaycanın "yaşıl enerji" sahəsində əldə etdiyi tarixi uğurlar - nəhəng şirkətlərlə qurulan tərəfdaşlıq, rekord həcmdə xarici investisiyaların cəlbi, nəhəng günəş və külək elektrik stansiyalarının inşası ölkəmizi qlobal enerji xəritəsində əvəzedilməz bir mərkəzə çevirmişdir. Bu transformasiyanın təməlində Ümummilli Lider Heydər Əliyevin "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də yalnız indiki nəsillərə deyil, həm də gələcək nəsillərə mənsubdur" fəlsəfəsi dayanır.



Bu gün təbii ehtiyatlar Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə "yaşıl sərvət"ə çevrilir. Dövlət başçısının qeyd etdiyi kimi: "Azərbaycanın bərpaolunan enerji potensialı bizim böyük sərvətimizdir və biz bu potensialı reallığa çeviririk". Bu yanaşma, gələcəkdə tarixi torpaqlarımızda qurulacaq həyatın iqtisadi cəhətdən özünü təmin edən və ekoloji baxımdan dayanıqlı olacağına ən etibarlı təminatdır.

Prezident İlham Əliyevin enerji strategiyası Zəngəzur dəhlizini təkcə qitələri birləşdirən logistik arteriya deyil, həm də Avropanın enerji təhlükəsizliyinə birbaşa töhfə verən strateji bir "Yaşıl Enerji Körpüsü" kimi dizayn edir. Bu konsepsiya Xəzər dənizindən və daxili resurslardan əldə edilən enerjinin Qərbi Azərbaycan ərazisindən keçərək dünyaya çatdırılmasını nəzərdə tutur ki, bu da bölgənin geosiyasi əhəmiyyətini sarsılmaz edir. Prezidentin bu istiqamətdəki qətiyyəti regionun gələcək taleyini müəyyən edir: "Zəngəzur dəhlizi təkcə dəmir yolu, avtomobil yolu deyil, həm də enerji ixracı marşrutu olacaqdır". Bu layihə ilə Azərbaycan bölgədə sülhün və əməkdaşlığın "yaşıl zəmanətçi"sinə çevrilir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda uğurla sınaqdan çıxan "yaşıl enerji zonası" modeli Qərbi Azərbaycana qayıdış konsepsiyasının innovativ təməlini təşkil edir. Bu, sadəcə coğrafi bir dönüş deyil, həm də tarixi yaddaşın ən müasir "ağıllı kənd" və "ağıllı şəhər" texnologiyaları ilə birləşməsidir. Dövlət başçısının vurğuladığı kimi: "Biz bu torpaqları ən müasir standartlarla bərpa edirik və edəcəyik. Qərbi azərbaycanlılar öz ata-baba yurdlarına qürurla qayıdacaqlar." Həmin ərazilərdə qurulacaq infrastruktur ekoloji təmiz iqtisadiyyatın, innovativ kənd təsərrüfatının və təmiz sənayenin mərkəzinə çevriləcək.

Bu milli strategiya Qərbi Azərbaycanın zəngin təbii resurslarını - dağ çaylarının hidroenerji potensialını və günəş enerjisi imkanlarını strateji üstünlüyə çevirərək, bölgəni gələcək "yaşıl iqtisadiyyat"ın qlobal habı kimi canlandırmağı vəd edir. Azərbaycanın bu siyasəti xalqımızın iradəsini və dövlətimizin qüdrətini bütün dünyaya bəyan edir: "Bizim sözümüz imzamız qədər dəyərlidir. Biz istədiyimizə nail oluruq və olacağıq!" Qərbi Azərbaycana qayıdış bu "yaşıl işığ"ın şöləsində həm mənəvi haqqın bərpası, həm də regionun iqtisadi intibahıdır.

Qərbi Azərbaycan ərazisinin hidroenerji potensialı - Zəngəzur, Zəngibasar, Dərələyəz, Göyçə, Qafan, Mehri mahallarının çayları, yeraltı su hövzələri və bulaqları araşdırılmışdır. Bu ərazilərdən irili-xırdalı yüzlərlə çay keçir. Qərbi Azərbaycanın su enerji ehtiyatlarının potensialı 21,8 milyard kilovat-saatdır. İldə bunun 8,6 milyard kilovat-saatından istifadə etmək texniki cəhətdən mümkündür. Həmçının Qərbi Azərbaycanın böyük çayları, onların uzunluğu, yerləşdiyi ərazi, hövzəsinin sahəsi və onlar üzərində tikilən su anbarları haqqında araşdırma aparılmışdır. Bu ərazilərdə günəş radiasiyasının miqdarı kifayət qədər yüksəkdir və günəşli saatların illik miqdarı 2500-2800-dür. Bu da onu göstərir ki, Qərbi Azərbaycan ərazisi kifayət qədər günəş enerji potensialı ilə zəngindir. Həmin ərazilərin külək enerji potensialı haqqında məlumat verilərək qeyd edilmişdir ki, orada yay fəslini çıxmaq şərtilə ilin digər fəsillərində demək olar ki, gün ərzində küləkli hava müşahidə edilir. Həmçinin küləyin orta illik sürəti bu ərazilərdə 5-7 m/s olur. Bütün bu araşdırmalardan məlum olur ki, Qərbi Azərbaycan ərazisində kifayət qədər bərpaolunan enerji ehtiyatları var.

Bərpaolunan enerji mənbələri dedikdə hidroenerji, külək enerjisi, günəş enerjisi, geotermal enerji, biokütlə enerjisi və qabarma-çəkilmə enerjisi başa düşülür.

Günəş enerjisi - günəş işığından enerji əldə edilməsi texnologiyasıdır. Yer səthinə düşən Günəş enerjisinin miqdarı bütün neft, təbii qaz, daş kömür və digər yanacaq ehtiyatlarından çoxdur.

Külək enerjisi - küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Bərpaolunan enerji mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər.

Hidroenerji dedikdə, çayların, su axınının enerjisi başa düşülür. Hər bir çay müəyyən hidroenerji ehtiyatına malikdir. Hidroenerji ehtiyatları təbiətdə su dövranı ilə əlaqədardır. Su dövranı - Yerdə günəş radiasiyasının və ağırlıq qüvvəsinin təsiri nəticəsində suyun fasiləsiz yerdəyişməsidir.

Geotermal enerji yeraltı suların, süxurların enerjisidir.

Qərbi Azərbaycan ərazisi Azərbaycanın qədim təbiətinə görə ən zəngin bölgələrindən biridir. Keçmişdə Azərbaycanın şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən bu ərazi hazırda qərbdən Türkiyə, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, şimaldan Gürcüstan, cənubdan isə İranla həmsərhəd olmaqla 29,8 min $km^2$ sahəni əhatə edir. Bu diyar indi Ermənistan Respublikası kimi tanınsa da, onun ərazisi qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır.

Qərbi Azərbaycanın ərazisi subtropik zonada yerləşir, lakin dağlıq relyefinə görə müxtəlif iqlim tipləri ilə seçilir. Qərbi Azərbaycanın iqliminə Qara və Xəzər dənizlərinin, eləcə də quraq İran və Kiçik Asiyanın yüksək dağlıq ərazilərinin yaxınlığı təsir edir. Düz və dağətəyi hissələrin iqlimi quru, yayı isti və qışı mülayim soyuq olan kontinentaldır, iyulda orta temperatur 24 - 26° C, mütləq maksimum temperatur 42° C, yanvarda - 5°C; yağıntılar ildə 200 - 400 mm-dir. Orta dağlarda iqlim mülayimdir. İyul, avqust aylarında orta temperatur 18°C, qışı mülayim, qarlı yanvarda orta temperatur -8° C-dən -2°C-dək, yağıntıların illik miqdarı 600-800 mm olur. Yüksək dağlıq ərazilərdə (2000-3000 m hündürlükdə) isə soyuq iqlim şəraiti müşahidə edilir.

Qərbi Azərbaycan ərazisinin bərpaolunan enerji mənbələrini araşdırarkən məlum olur ki, bu ərazilər yüksək miqdarda hidroenerji potensialına malikdir. Bu ərazilərdən axan çayların ən böyüyü Araz (192 km; 1072 km - ümumi uzunluğu) Cənubi Qafqazın ən böyük çayı Kürün sağ qoludur. Qərbi Azərbaycanın çaylarında gəmiçilik üçün imkanlar yoxdur, ona görə də çay sularından əsasən suvarma və elektrik enerjisi mənbəyi kimi istifadə olunur.

Qərbi Azərbaycanın mərkəzi və cənub hissələrinin bir çox ərazilərində yeraltı su axını üstünlük təşkil edir. Ən böyük artezian hövzəsi 29 milyard m3 su ehtiyatı olan İrəvan Çuxuru hövzəsidir. Müəyyən edilmiş bütün yeraltı hövzələrdə su ehtiyatı 50 milyard kubmetr olaraq qiymətləndirilir. Vulkanik ərazilərdə yeraltı sular həm şirin, həm də mineral olan çoxsaylı bulaqlar şəklində səthə çıxır. Bu ərazilərdə 8 mindən çox bulaq var.

Buradan keçən Araz çayı Türkiyə, İran, Azərbaycan və Ermənistan əraziləri və sərhədləri ilə axır. Öz mənbəyini Türkiyə ərazisində Bingöl silsiləsindən götürür. Araz çayı qarışıq mənbələrdən qidalanır. Axımının 44 faizini yeraltı sular, 38 faizini qar suları, 18 faizini isə yağış suları təşkil edir. Çay Sabirabad səhəri yaxınlığında Suqovusan adlanan ərazidə Kür cayı ilə birləşib Xəzər dənizinə axır.

Arpaçay Araz çayının sol qoludur. Uzunluğu 126 km, hövzəsinin sahəsi 2630 $km^2$-dir. Başlanğıcını Basarkeçər dağ silsiləsində Cermuk şəhərindən 12 km şimal-şərqdə, 2985 metr hündürlükdə yerləşən zirvədən götürür. Yeraltı sular, qar və qismən yağış suları ilə qidalanır. Suvarmada geniş istifadə edildiyindən yayda suyu Araza çatmır. 1970-ci ildə Arpaçayından Göyçə gölünə su axıtmaq məqsədilə 48,6 km uzunluğunda tunel çəkilmişdir. Şərur rayonu ərazisində 1977-ci ildə çayın üzərində su tutumu 150 mln. $m^3$ olan su anbarı tikilmişdir.

Zəngi çayı da Araz çayının sol qoludur. Bu çay başlanğıcını Göyçə gölündən götürür. Axta, Gümüş rayonlarından, İrəvan şəhərindən, Zəngibasar rayonunun ərazisindən axıb Araz çayına tökülür. Bu çayın yatağı qədim zəngi tayfalarının sıx məskunlaşdığı ərazilərdə yerləşdiyi üçün çay məhz bu cür adlandırılıb. Yaz və payız aylarında vaxtaşırı daşan Zəngi çayı yataqboyu yerləşən düzənlik ərazini basırdı. Ona görə də, bu yerlər - Zəngi çayının daşqın sularının basdığı ərazi "Zəngibasar" adlandırılıb.

Ağstafaçay çay Kür çayının sağ qolu olub, uzunlugu 13 km, hövzəsinin sahəsi 2500 kvadratkilometrdir. Başlanğıcını Kiçik Qafqazın şımal şərq hissəsində Pəmbək sıra dağlarından götürür.

Gərni çayı da Araz çayının sol qolu olub başlanğıcını Göyçə dağ silsiləsindən götürərək Gərnibasar mahalı ərazisində Araza tökülür. Uzunluğu 34 km-dir.

Bazarçay çayının uzunluğu 178 km, hövzəsinin sahəsi 2711 kilometrdir. Zəngəzur ərazisində yerləşən Bazarçay Zəngəzur dağ silsiləsi və Qarabağ yaylası arasında yerləşir. Başlanğıcını Zəngəzur silsiləsinin şimal yamacından 3040 m yüksəklikdə yerləşən Zalxa gölündən götürür.

Tona çayı indiki Ermənistan və Gürcüstan ərazilərindən axan çaydır.

Oxçuçay Azərbaycan və Ermənistan ərazilərindən axan çaydır. Oxçu çayı öz başlanğıcını Zəngəzur silsiləsinin ən uca zirvəsi olan Qapıcıq dağının (3904 m) cənubunda 3502 metr yüksəklikdə olan Yağlı dərə dağlarından götürür. Arazın sol qoludur. Qafan rayonu və Zəngilan rayonu ərazilərindən keçir. Uzunluğu 85 km, hövzəsinin sahəsi 1140 kilometrdir.

Cəlaloğlu çayı da Qərbi Azərbaycanın Loru mahalı ərazisindən keçir. Tona çayının sol qoludur.

Tərsaçay çayı Ağstafa çayının sağ qoludur. Uzunluğu 58 km olub başlanğıcını Göyçə dağlarından götürür.

Ələyəz çayı Arpa çayının sağ qoludur. Dərələyəz mahalından keçir və uzunluğu 49 kilometrdir.

Qaranlıq çayı uzunluğu 42 km olub Göyçə mahalının Qaranlıq rayonu ərazisindən axır.

Qarasu çayı - Arazın sol qolu. Uzunluğu 40 km, hövzəsinin sahəsi 1610 km2-dir.

Basarkeçər çayı Göyçə mahalının Basarkeçər mahalından keçir. Uzunluğu 28 km-dir.

Gorus çayı Zəngəzur mahalındakı çaydır. Uzunluğu 29 km-dir.

Balıqlı çayı Goyçə golünə şimal - şərq tərəfdən tökülən çaydır.

Bəsitçay Arazin sol qolu olub mənbəyini indiki Ermənistan Respublikasından götürür. Çayın uzunluğu 44 km-dir.

Əyənzur çayı da Arpa çayının sağ qoludur. Uzunluğu 42 km olan bu çay Dərələyəz mahalından keçir.



Qazangölçay keçmiş Qafan rayonu ərazisində Gığı dərəsi boyunca axan dağ çayıdır. Çay öz mənbəyini 3130 m yüksəklikdə Hərəmli adlı yerdən və Qazangöl gölündən götürür. Hərəmlidən və Qazangöldən gələn kiçik çay qolları Motalqəyə adlı yerdə birləşərək 30 km uzunluqlu Oxçuçayın sol qolu olan Qazangölçayı əmələ gətirir.

Qacaran şəhərində yerləşən Zəngəzur mis - molibden zavodunu elektrik enerjisi ilə təmin etmək məqsədilə 1983-cü ildə Qazangölçay üzərində "Gığı" Su-Elektrik Stansiyası inşa olunmuşdu. Baharlı kəndində tikilən su anbarının daşma və kəndin su altında təhlükəsi səbəbindən Baharlı kənd sakinləri qonşu Zeyvə kəndinə köçmüş və 1988-ci ildə digər azərbaycanlılar kimi Zeyvədən deportasiya olunmuşdular.

1970-ci ildə Gəyən dağının ətəyində 2010 m yüksəklikdə qədim Azərbaycan torpaqları olmuş Qaraqala kəndinin şərqində yağış, qar sularının toplanması nəticəsində Qaraqala su anbarı tikilmişdir. Süni su hövzəsi olan bu hidroqovşaq ətraf rayonlardakı əkin sahələrinin suvarılması üçün istifadə edilirdi. Həmin ildə Göyçə gölünün səviyyəsinin aşağı düşməsinin qarşısının alınması üçün Arpa çayı sahilində Dərələyəz mahalının Qədim Quşçu kəndi yaxınlığındakı Quşçu su anbarının tikintisinə başlanılmış, Basarkeçər dağ silsiləsindən 40 km-lik tunel qazılaraq bu anbardan su nəql edilmişdir. Həmin hövzədə balıqçılıq təsərrüfatı da yaradılmışdır. Quşçu su anbarı 1950 m yüksəklikdə, sahəsi 145 hektar, sahil xətlərinin uzunluğu 8,5 km, dərinliyi 20 metr, su ehtiyatı 23 milyon kubmetrdir.

Başlanğıcını Qarabağ yaylasının şimal-qərb yamaclarından alan Həkəri çayının sağ qolu olan və uzunlugu 178 km olan Bazarçayın yuxarı axarlarında, çayın üstündə Qalaçıq kəndindən 2-3 km şimal-qərbə tərəf hidroenerji məqsədilə su anbarı tikilmişdir və Quşçu su anbarı ilə 9-10 km-lik yeraltı su xətti ilə birləşdirilib ki, bu da Bazarçay hövzəsinin Göyçə gölü ilə süni əlaqəsinin yaranmasına səbəb olmuşdur.

Göyçə gölü nəinki Qərbi Azərbaycanda, Cənubi Qafqazda, ümumən Qafqazda, eləcə də dünyada tektonik mənşəli yüksək dağ gölləri sırasında təmiz su ehtiyatına görə fərqlənən təbii sututar kimi (1898 m yüksəklikdə olan) qiymətləndirilir və "Qafqazın incisi" hesab edilir.

2012-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Mehri bölgəsində ümumi gücü 130 MVt olan "Mehri" Su-Elektrik Stansiyası tikilmişdir. Bütün bu araşdırmalardan belə məlum olur ki, Qərbi Azərbaycan əraziləri kifayət qədər hidroenerji potensialına malikdir.

Ümummilli Lider Heydər Əliyevin hələ onilliklər əvvəl uzaqgörənliklə dediyi: "Azərbaycanın böyük neft və qaz yataqlarına malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu, xalqın rifahına xidmət edən ən əsas amildir" fikri bu gün "yaşıl enerji" resursları ilə yeni bir epoxaya qədəm qoyur. Bu strateji varislik, Qərbi Azərbaycanın yüksək potensiallı resurslarının gələcəkdə həmin torpaqlarda qurulacaq həyatın özünü təmin edən, dayanıqlı və rəqabətqabiliyyətli olacağına tam təminat verir.

***Sevinc RZAYEVA,***
***Naxçıvan Dövlət Universitetinin Elektroenergetika mühəndisliyi kafedrasının baş müəllimi***

# "Ən böyük arzumuz doğma yurda qayıtmaqdır"

"Altı il öncə Ermənistanın silahlı quldur birləşmələrindən azad edilən Qarabağ bölgəsinə - Xocalıya, Ağdama, Füzuliyə, Cəbrayıla, Ağdərəyə, Şuşaya, Xankəndiyə, Suqovuşana - doğma yurdlarına qayıdanları görəndə ürəyimiz atlanır, istəyirdik ki, Prezidentimiz belə bir qayıdışı bizə də nəsib etsin".

Bu sözləri Zəngəzur mahalının Urud kəndində anadan olan və erməni vəhşilikləri ucbatından 1988-ci ilin qarlı-şaxtalı qış günlərində ailəsi ilə birlikdə doğma yurd-yuvasını məcburi tərk edən Hüsniyyə Əliyeva (Şahverənova) deyib. Həmçinin bildirib ki, doğma yurdlarında normal yaşamaq üçün hər cür şəraitləri var idi: "Atam dağ-mədən tuneli işində çalışırdı, anam isə evdar qadın idi. Ailədə 2 oğlan, 3 qız uşağı idik. Yaxşı mülkümüz, geniş həyətimiz, biçənək yerimiz və bağ-bağatımız, istənilən meyvə ağaclarımız, ayrıca böyük ərik sahəmiz vardı. Kartofçuluqla da məşğul olurduq. Valideynlərim əsasən dədə-babadan qalma arıçılıqla məşğul idilər, 50 arı ailəsi saxlayırdıq. Bir sözlə, əlimizin zəhməti ilə firavan dolanırdıq. Lakin faşist siyasətinin əsiri olan ermənilər biz azərbaycanlıları öz kəndimizdə rahat yaşamağa qoymurdular. İmkan düşən kimi saqqallı ermənilər cinayətkar əməllərindən əl çəkmirdilər, soydaşlarımızı müxtəlif yollarla incidərək kənddən perik salırdılar, ev-eşiklərinə yiyə dururdular. Uşaq vaxtlarımdan yaxşı yadımdadır ki, böyüklərimiz erməni nankorluğu, erməni xəyanəti, çörək qədri bilmədikləri barədə çox danışırdılar. Soydaşlarımızın 1918-ci ildən başlanan deportasiyasının 1948-1953-cü illərdə kütləvi xarakter aldığını və on minlərlə azərbaycanlının doğma yurdlarından didərgin salındıqlarını ürək ağrısı ilə xatırlayırdılar".



Həmsöhbətimin sözlərinə görə, 1980-ci illərdən başlayaraq, erməni vəhşilikləri daha da şiddətləndi. Camaatı dövlət səviyyəsində ən kəskin formada incitməyə başladılar. Azərbaycanlılar məcbur olub uşaqları, qadınları gözdən kənar yerlərdə saxlayırdılar: "Yadımdadır, qoca nənəmlə bibimi atam gecəykən aparıb yaydanyaya getdiyimiz Əriklikdəki evimizdə gizlətdi. 1988-ci ilin qış fəslinin qarlı-çovğunlu vaxtında bütün azərbaycanlıları kütləvi şəkildə kənddən çıxarırdılar, daha doğrusu, qovurdular. Hamı kimi, bizim ailə də yurdumuzu tərk etməli oldu. Uşaqların kiçik, qocaların xəstə olmasına baxmayaraq, saqqallılar evdən nəisə götürməyə imkan vermədilər. Ailəmiz Uruddan çıxandan sonra qoca Züleyxa nənəmlə Zəhra bibimi götürüb kəndi axırıncı tərk edənlərdən biri Süleyman əmimlə atam oldu".

Müsahibim onu da qeyd etdi ki, mənim və mənim kimi minlərlə qərbi azərbaycanlının başına gələnlərin sübutu Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın vaxtilə böyük qürur hissi ilə etdiyi çıxışında da öz əksini tapmışdır. Bu cəllad demişdir: "Ermənistan və Dağlıq Qarabağ erməni xalqının 600 il həll edə bilmədiyi problemi həll etdi. Ermənistan və Artsax tamamilə əcnəbilərdən təmizləndi. Yenə deyirəm, bu, 600 illik problem idi və onun əhəmiyyətini erməni xalqı hələ 600 il də bundan sonra hiss edəcək. Təsəvvür edin, bu gün Ermənistanda 180 min əcnəbi olsaydı, bizim dövlətimiz olmazdı. Zəngəzuru qoruya, şimal-şərq rayonlarımızı qoruya, Sevan sahilini qoruya bilməzdik, burada bir neçə yeni muxtariyyətimiz olacaqdı. Yada salaq ki, azərbaycanlılar üç bölgədə çoxluq təşkil edirdi: Vardenis, Masis, Amasiya - bütün Zəngəzur zonasında onların sayı çox idi. Bu problem həll olundu". Ter-Petrosyanın bunu etiraf etməsi sözügedən cinayətlərə görə Ermənistanın dövlət kimi məsuliyyətini və bu cinayətlərin sistemli olaraq mütəşəkkil şəkildə törətməsini sübut edir.

Həmsöhbətim onu da bildirdi ki, həmin vaxt qohumlarının çoxu Azərbaycanın müxtəlif rayonlarında məskunlaşdılar: "Biz Sumqayıta gəldik. Sonra Bakıya köçdük. Allah erməninin bəlasını versin. O qədər qohum-əqrəba, dost-tanış hərəsi bir tərəfə üz tutdu. Qardaşım Nəsib indi Xətai rayonunda, digər qardaşım Binəqədidə yaşayır. Aran rayonlarında məskunlaşanların çoxu içi biz qarışıq kəskin iqlim dəyişikliyinə uyğunlaşmaqda çətinlik çəkir, tez-tez xəstələnirdi, yaşlılar heç dözə bilmirdilər... Qoca Züleyxa nənəm, Zəhra və Ziba bibim "Urud! Urud!" deyə dünyalarını dəyişdilər. Həyat yoldaşım da qərbi azərbaycanlıdır, Qarakilsə rayonunun Şəki kəndindəndir. Oğlum, qızım, nəvələrim var. Çox sağ olsun Azərbaycan hökumətini, dolanışıq sarıdan heç bir çətinliyimiz yoxdur. Artıq yaşlanmışam, amma o yerlərdə keçən uşaqlığım, orta məktəb illəri, şagird yoldaşlarım yadıma düşəndə ürəyimin başı göynəyir. Şəraitimizin yaxşı olmasına baxmayaraq, doğma yurdumuz olan Qərbi Azərbaycan üçün çox darıxırıq və qayıdış gününü səbirsizliklə gözləyirik. Səmimi deyirəm, Prezident İlham Əliyevin qarşıya qoyduğu məsələlər biz qərbi azərbaycanlıların doğma torpaqlarımıza qayıtmaq ümidini birəbeş artırıb. Ən böyük istəyimiz əzəli torpaqlarımıza qayıdıb orada rahat yaşamaq, bayram tonqalları yandırmaqdır. Əminik ki, Prezidentimizin qətiyyəti sayəsində uzun illər ürəyimizdə gəzdirdiyimiz bu arzumuz da reallaşacaq".

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Almaniyada kannabis qanunu: "Qaş düzəldilən yerdə göz çıxarıldı"

Son illər dünyanın bir sıra ölkəsində kannabisdən istifadə leqallaşdırılıb. Onların arasında AFR də var. Almaniyada tibbi marixuananın liberallaşdırılmasından bəri satışlar inanılmaz dərəcədə artmaqdadır. O səbəbdən hazırda hakimiyyət orqanları sui-istifadədən ehtiyatlanır və daha sərt qaydaları müzakirə edir.



Almaniyanın durğun iqtisadiyyatında az sayda sənaye sahəsi davamlı artımla öyünə bilər. Nadir istisnalardan biri tibbi kannabis bazarıdır. İki il əvvəl qanunvericilikdə olunan dəyişikliklər sayəsində bu, son zamanlar sürətlə böyüyür.

Sənaye Assosiasiyası olan BPC-yə görə, Almaniyada tibbi kannabis bazarının 2024-cü ildə təxminən 1 milyard avro dəyərində olduğu halda ötən il bu rəqəm ikiqat artaraq 2 milyard avroya çatıb.

Lakin bütün istehlakçılar kannabisi yalnız tibbi məqsədlər üçün istifadə edirlərmi? Bu, açıq sualdır. Hakimiyyət orqanları cavabın mənfi olacağından ehtiyatlanır və artıq qanunvericiliyin mümkün sərtləşdirilməsini müzakirə edirlər. Bu məqamda onu da qeyd edək ki, kannabisin qismən leqallaşdırılmasından iki il sonra alman nazirlər bunu siyasi səhv adlandırırlar. Qara bazar bir qədər kiçilsə də, nəhəng, çətinliklə idarə olunan kannabis bazarı hələ də qalır.

Almaniyanın səhiyyə naziri Nina Varken kannabis istehlakı ilə bağlı yeni hesabat haqqında açıq şəkildə etiraf edib: "Kannabisin istirahət və əyləncə məqsədləri üçün qismən leqallaşdırılması səhv idi!" Daxili işlər naziri Aleksandr Dobrindt isə qanunu "tamamilə uğursuz" elan edib və onun daxili təhlükəsizlik üçün ciddi nəticələrə səbəb olduğunu vurğulayıb: "Qara bazar sürətlə inkişaf edir, polis və müstəntiqlər isə satıcıları tutmaqda çətinlik çəkirlər". Ailə naziri Karin Priyen (CDU) da islahatı tənqid edərək bunun asılılığın qarşısının alınmasına xələl gətirdiyini söyləyib.

Öz növbəsində Federal hökumətin narkotiklər üzrə komissarı, professor Hendrik Ştrek qanuna düzəlişlər tələb edir: "İcazə verilən saxlama miqdarı çox yüksəkdir və sui-istifadə geniş yayılıb. Bunun davam etməsinə icazə vermək səhlənkarlıq olardı".

Qanuni bazarın inkişafı xüsusilə təhlükəlidir. Elmi qiymətləndirmələrə görə, Almaniya hazırda Avropada ən böyük qanuni kommersiya kannabis bazarına malikdir. Təkcə 2025-ci ildə 200 tona yaxın tibbi kannabis idxal edilib ki, bu da əvvəlki ilə nisbətən təxminən 2 dəfə çoxdur. Mütəxəssislər bunu təhlükəli bir dinamika kimi görürlər: bazar tənzimləmədən daha sürətli böyüyür. Bundan əlavə, kannabisin mənbəyi və necə istifadə edildiyi ilə bağlı şəffaflıq yoxdur. Almaniyanın Avropa paylama mərkəzinə çevrildiyinə dair artan əlamətlər də var. "Şübhəli onlayn platformalar və icazəsiz reklamlar vasitəsilə xəstə deyil, istirahət və əyləncə istifadəçilərini hədəf alan böyük bir bazar yaranıb. Bunun artıq tibblə heç bir əlaqəsi yoxdur", - deyə bildirirlər.

İstehlakçı kannabis qanununun ara qiymətləndirmə hesabatında da sağlamlıqla bağlı narahatlıqların artdığı qeyd olunur. Psixiatrik klinikalar həm asılılıq, həm də kannabisdən qaynaqlanan psixoz hallarının artdığını deyirlər. Halbuki leqallaşdırmanın əsas məqsədlərindən biri yetkinlik yaşına çatmayanların müdafiəsini gücləndirmək idi.

Professor Hendrik Ştrek deyir: "Kannabis istifadəsinə yoluxan hər kəsin bu gün qanun qüvvəyə minməzdən əvvəlki dövrlə müqayisədə erkən məsləhət və dəstək alma ehtimalı daha azdır... Dəyişikliklər etməliyik. Çünki erkən müdaxilə etməsək, gənclər və onların ətrafı problemlə təkbaşına qalacaqlar".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Azərbaycan-Çin strateji tərəfdaşlığı yeni mərhələdə sürətlə inkişaf edir
Zamanın çağırışlarını qabaqlayan LİDER
NƏHAYƏT!
Humanizm dəyərlərinə bağlılığın nümunəsi
Kəlbəcər bizimdir!
Yaxın Şərq müharibəsinin uzaq bədbin proqnozları

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# *ESKATO:* Cənubi Asiya energetika şoku astanasındadır

Yaxın Şərqdəki müharibə Cənubi Asiya ölkələrinin iqtisadi sabitliyini təhdid edir.

AZƏRTAC xəbər verir ki, Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (ESKATO) ekspertləri regionun görünməmiş risklərlə üzləşdiyini, lakin onların bərpaolunan enerjiyə keçid üçün katalizator rolunu oynaya biləcəyi barədə xəbərdarlıq edirlər.



Qlobal enerji bazarları qarışıqlıq içindədir: neftin qiymətləri 2008-ci il tənəzzülündən bəri rekord həddə çatıb. Əsas səbəb Hörmüz boğazında gəmiçiliklə bağlı məhdudiyyətlərdir. Bu boğazdan gündəlik təxminən 20 milyon barel və ya bütün qlobal neftin 20 faizi keçir.

Cənubi Asiya ölkələri üçün bunlar sadəcə rəqəmlər deyil; onlar iqtisadiyyat üçün birbaşa təhlükə yaradır. Hindistan xam neftinin demək olar ki, yarısını və mayeləşdirilmiş təbii qazın (LNG) əhəmiyyətli bir hissəsini boğazdan idxal edir. Pakistan və Banqladeş Qətər və BƏƏ-dən LNG tədarükündən asılıdır (bütün qaz idxalının 72 faizə qədəri). Şri-Lanka və Maldiv adaları artıq inflyasiyanın artmasına və milli valyutalarının devalvasiyasına səbəb ola biləcək tədiyyə balansı ilə bağlı pisləşən vəziyyətlə üzləşirlər. Qazıntı yanacaqlarından asılılıq regionu bu cür vəziyyətlərə qarşı həssas edir. Enerji qiymətlərinin artması iqtisadiyyatın bütün sahələrinə dərhal təsir göstərir. Xüsusilə kənd təsərrüfatı məhsullarının qiymətləri yüksəlir və sənaye istehsalı yavaşlayır.

Əlverişli enerji təchizatının böyümənin əsasını təşkil etdiyi inkişaf etməkdə olan iqtisadiyyatlar üçün bu cür şoklar uzunmüddətli tənəzzülə səbəb ola bilər.

Bədbin proqnozlara baxmayaraq, analitiklər mövcud böhranda "fürsət pəncərəsi" görürlər. Qlobal qeyri-sabitlik şəraitində enerji təhlükəsizliyinin artıq təkcə qazıntı yanacaqlarına etibar edilə bilməyəcəyini diqqətə çatdıran ESKAP mütəxəssisləri vurğulayırlar ki, regiondakı ölkələr təmiz və müstəqil enerji gələcəyi yaratmaq üçün səyləri birləşdirməlidir. Bahalı idxal olunan yanacaqlardan məcburi imtina bərpaolunan enerji mənbələrinə keçidi sürətləndirə bilər və bu, Cənubi Asiya ölkələri üçün potensial olaraq "üçqat qazanc" ilə nəticələnərdi.

Himalay dağlarının Günəş, külək və su-elektrik stansiyalarından istifadə qlobal qiymətlərin dəyişkənliyindən asılılığı azaldacaq və enerji təhlükəsizliyini təmin edəcək.

Günəş paneli istehsalına, batareya saxlama sisteminə və şəbəkənin modernləşdirilməsinə investisiyalar yeni iş yerləri yaradacaq və iqtisadi artımı stimullaşdıracaq. Bundan əlavə, təmiz enerjiyə keçid Cənubi Asiya meqapolislərində fəlakətli hava çirkliliyinin aradan qaldırılmasına kömək edəcək ki, bu da öz növbəsində ictimai sağlamlığı yaxşılaşdıracaq.

Cənubi Asiyada "yaşıl enerji"nin inkişafının uğurlu nümunələri artıq mövcuddur: Hindistan, Nepal, Butan və Banqladeş arasında sərhədyanı elektrik enerjisi ticarəti regional əməkdaşlığın effektivliyini nümayiş etdirir.

Lakin tam irəliləyiş əldə etmək üçün region ölkələri maliyyə kəsirlərini aradan qaldırmalı və köhnəlmiş elektrik şəbəkələrini modernləşdirməlidir.

# Hava çirkliliyi qlobal böhrandır

Hava çirkliliyi qlobal miqyasda insan sağlamlığı və ətraf mühit üçün ən ciddi təhdidlərdən biri kimi qiymətləndirilir. Nəfəs aldığımız havanın keyfiyyətinin pisləşməsinin əsas səbəbləri arasında insan fəaliyyəti dayanır. Fosil yanacaqların yandırılması, sənaye tullantıları, nəqliyyat vasitələrinin artması, meşə yanğınları və iqlim dəyişikliyi bu prosesin əsas sürətləndiriciləridir. Xüsusilə son illərdə baş verən genişmiqyaslı meşə yanğınları və toz fırtınaları vəziyyəti daha da ağırlaşdırıb. 2025-ci ilə dair qlobal hava keyfiyyəti hesabatı bu təhlükənin artıq lokal yox, ümumbəşəri problem olduğunu bir daha sübut edir.



Araşdırmalar göstərir ki, ötən il dünyada cəmi 13 ölkə və ərazi təhlükəsiz hava standartlarına cavab verib. Bu, sadəcə statistik rəqəm deyil, eyni zamanda Yer kürəsinin böyük hissəsinin sağlamlıq üçün riskli hava ilə yaşadığını göstərən ciddi xəbərdarlıqdır. Ümumilikdə 143 ölkə və 9446 şəhəri əhatə edən tədqiqatın nəticələri göstərir ki, planetdə insanların əksəriyyəti təmiz havadan məhrumdur.

Ən təhlükəli çirkləndiricilərdən biri hesab edilən PM2.5 hissəcikləri bu problemin mərkəzində dayanır. Diametri 2,5 mikrometrdən az olan bu mikroskopik hissəciklər o qədər kiçikdir ki, tənəffüs yolu ilə ağciyərlərə daxil olmaqla kifayətlənmir, həm də qan dövranına keçərək bütün orqanizmə yayılır. Mütəxəssislər bildirirlər ki, bu hissəciklərin təhlükəsiz səviyyəsi kubmetr başına 5 mikroqramdan artıq olmamalıdır. Lakin reallıqda bu limit bir çox ölkədə dəfələrlə aşılır.

Dünyanın ən təmiz hava göstəricilərinə malik yerlər sırasında əsasən kiçik ərazilər və okean adaları dayanır. Avropadan yalnız Andorra, Estoniya və İslandiya bu siyahıya düşüb. Digər tərəfdən, Avstraliya, Barbados, Bermuda, Fransız Polineziyası kimi bölgələrdə də hava keyfiyyəti nisbətən qənaətbəxşdir. Bu siyahının ortaq xüsusiyyəti isə sənaye yükünün az olması və təbii ekosistemlərin qorunmasıdır. Amma dünyanın böyük hissəsi üçün vəziyyət tam fərqlidir. Araşdırılan 143 ölkədən 130-da hava çirkliliyi təhlükəli həddi keçib. Ən ağır vəziyyət Pakistan, Banqladeş, Tacikistan, Çad və Konqo Demokratik Respublikasında müşahidə olunur. Bu ölkələrdə PM2.5 səviyyəsi Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi normadan on dəfələrlə yüksəkdir.

Bu statistikanın arxasında isə insan taleləri dayanır. Xüsusilə Cənubi Asiyada yerləşən şəhərlər hava çirkliliyinin ən ağır nəticələrini yaşayır. Dünyanın ən çirkli 25 şəhərinin hamısının Hindistan, Pakistan və Çində yerləşməsi təsadüfi deyil. Bu bölgələrdə sürətli urbanizasiya, sənayeləşmə və nəqliyyatın həddindən artıq artması havanı zəhərli qarışığa çevirib.

Hindistanın Loni şəhəri bu mənzərənin ən kəskin nümunəsidir. Paytaxta çox yaxın yerləşməsinə baxmayaraq, bu şəhər dünyanın ən çirkli havasına malik yaşayış məntəqəsi kimi qeydə alınıb. Burada orta illik PM2.5 göstəricisi 112,5 mikroqram təşkil edir ki, bu da normadan 22 dəfə yüksəkdir. Bu rəqəm sadəcə ekoloji göstərici deyil, hər gün nəfəs alan minlərlə insan üçün real təhlükə deməkdir.

Lonidə yaşayan insanların gündəlik həyatı bu təhlükənin nə qədər ciddi olduğunu açıq şəkildə göstərir. Sakinlər deyirlər ki, burada nəfəs almaq belə çətindir. Toz, sənaye tullantıları və nəqliyyatın yaratdığı qazlar şəhəri sanki görünməyən bir dumanla örtür. Hətta evlərin içərisində belə tozdan qaçmaq mümkün deyil. Valideynlər uşaqlarının davamlı öskürək, allergiya və tənəffüs problemlərindən əziyyət çəkdiyini bildirirlər.

Həkimlər də vəziyyətin ildən-ilə pisləşdiyini təsdiqləyirlər. Xüsusilə uşaqlar arasında astma və digər tənəffüs xəstəliklərinin artması narahatlıq doğurur. Bu isə bir daha sübut edir ki, hava çirkliliyi sadəcə ekoloji problem deyil, eyni zamanda ciddi ictimai sağlamlıq böhranıdır. Maraqlıdır ki, dünyanın ən təmiz havasına malik şəhərlərdən biri Cənubi Afrikada yerləşən Nyuvudvill hesab olunur. Burada PM2.5 səviyyəsi cəmi 1 mikroqramdır. Bu, təbii mühitin qorunduğu, sənayeləşmənin məhdud olduğu ərazilərdə sağlam həyatın mümkün olduğunu göstərir. Lakin belə nümunələr çox azdır.

Bu problemin təsirləri isə təkcə tənəffüs sistemi ilə məhdudlaşmır. Araşdırmalar göstərir ki, hava çirkliliyi ürək-damar xəstəliklərinin, insultun, hətta bəzi xərçəng növlərinin artmasına səbəb olur. Hava çirklənməsinə qısa müddətli məruz qalma belə, xüsusilə yaşlılar və xroniki xəstələr üçün ciddi risk yaradır. Hər il dünyada 7 milyondan çox insanın məhz çirkli hava səbəbindən həyatını itirməsi bu problemin miqyasını aydın şəkildə göstərir.

Hava çirkliliyinin ən həssas qruplara təsiri isə daha ağırdır. Uşaqlar və hamilə qadınlar bu riskin birbaşa hədəfindədirlər. Mütəxəssislər bildirirlər ki, hamiləlik dövründə çirkli havaya məruz qalma körpələrin inkişafına mənfi təsir göstərir. Bu, vaxtından əvvəl doğuşlara, zəif inkişafa və gələcəkdə diqqət problemlərinə səbəb ola bilər. Uşaqların daha çox hava qəbul etməsi isə onları çirkləndiricilərə qarşı daha həssas edir. Bu baxımdan hava çirkliliyi artıq təkcə ekoloji məsələ deyil, sosial ədalət məsələsinə də çevrilir. Çünki ən çox zərər görənlər, adətən, daha az imkanlara malik olan, sənaye və çirklənmə mənbələrinə yaxın yaşayan insanlardır. Bu isə bərabərsizlikləri daha da dərinləşdirir.

Azərbaycanın mövqeyi isə orta səviyyədə qiymətləndirilir. Son reytinqlərə görə, ölkə 138 ölkə arasında 49-cu yerdə qərarlaşıb. Bu o deməkdir ki, ölkə nə ən çirkli, nə də ən təmiz hava kateqoriyasına daxildir. Lakin bu nəticə arxayınlıq üçün əsas deyil. Çünki orta səviyyə belə uzunmüddətli perspektivdə ciddi sağlamlıq problemlərinə yol aça bilər.

Bu gün dünyanın bir çox yerlərində insanlar təmiz hava tapmaq üçün şəhəri tərk etməyi düşünürlər. Bu isə gələcəyin necə olacağı ilə bağlı ciddi suallar doğurur. Mütəxəssislər hesab edirlər ki, problemin həlli yalnız dövlət siyasəti ilə məhdudlaşmamalıdır. Hər bir fərd də bu prosesdə rol oynaya bilər. Gündəlik həyatımızda kiçik dəyişikliklər - avtomobildən daha az istifadə etmək, enerjiyə qənaət etmək, tullantıları yandırmamaq, plastikdən uzaq durmaq ümumi vəziyyətə müsbət təsir göstərə bilər. Eyni zamanda hava keyfiyyətinin yüksək olduğu günlərdən maksimum yararlanmaq, çirklənmənin artdığı vaxtlarda isə açıq havada uzun müddət qalmamaq tövsiyə olunur. Ev şəraitində hava təmizləyicilərdən istifadə də müəyyən dərəcədə qoruyucu rol oynaya bilər. Lakin bütün bunlara baxmayaraq, əsas məsuliyyət yenə də sistemli dəyişikliklərdədir. Təmiz enerji mənbələrinə keçid, nəqliyyat siyasətinin yenidən qurulması, sənaye tullantılarının azaldılması və ekoloji standartların sərtləşdirilməsi olmadan bu problemi köklü şəkildə həll etmək mümkün deyil.

Əslində, hava çirkliliyi bizə çox sadə bir həqiqəti xatırladır: insan təbiətdən ayrı deyil. Atmosferə buraxılan hər bir zərərli maddə sonda yenidən bizə qayıdır. Torpağa, suya, qidaya və ən əsası nəfəsimizə qarışır. Təmiz hava insanın ən fundamental hüquqlarından biridir. Onu qorumaq isə təkcə ekoloqların və ya siyasətçilərin deyil, hər birimizin borcudur.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasova əzizi

**ŞAHİN AĞAMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Aparatının Maliyyə və təminat şöbəsinin müdiri Bəhruz Məmmədova bacısı

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyevə anası

**FLORA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3435**
**Sifariş 396**

**Qiyməti 60 qəpik**